

Əhməd Bəssam Sai

# Namazı yenidən kəşf edin

(“Namaz menecmenti” kitabından ixtisarla)

Əhməd Bəssam Sai

# Namazı yenidən kəşf edin

(“Namaz menecmenti” kitabından ixtisarla)

Beynəlxalq İslam Fikri İnstitutu

“İdrak” İctimai Birliyi

Bakı - 2018

© Beynəlxalq İslam Fikri İnstitutu, 2018
© "İdrak" İctimai Birliyi, 2018

The International Institute of Islamic Thought (USA)
P.O. Box 669, 500 Grove St., Suite 200, Herndon, VA 20170, USA
www.iiit.org

The International Institute of Islamic Thought (UK)
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN: 978-9952-8333-8-5

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-924/Q)

# Namaz

Allahım, heç şübhəsiz, Sən bilirsən ki, mən bu sətirləri ancaq Sənin razılığın və axirətim üçün qələmə almışam. Bəli, məhdud və naqis bəşəri dillə Sənə üz tutmuşam. Adi insanlara xitab edən bəsit şəxs olaraq, Şanına layiq olmayan nöqsanlı söz və ifadələr işlətmişəm bu yazımda. Və bu sözlər əzəmətin və böyüklüyünü ifadə etmir. Sözlərimlə atımı mahmızlasam da, büdrədim, Sənə aparan yolda büdrədim. Dilim topuq vurub yanılsa da, bircə Sən bilirsən ki, nəzərdə tutduğun haqqa yetişməkdir niyyətim! Amma biz insanlar hara, Sənin hikmətindəki məqsədləri, Əsrarəngiz Meracda beş vaxt namazın vacib edilməsinə dair ilahi əmr alan peyğəmbərinə vəhy etdiklərinin sirrini anlamaq hara! O peyğəmbərinə ki, namazın tükənməz xəzinəsini bütün incəlik və təfsilatı ilə bizə – yerdəki insanlara çatdırmışdır.

Allahım, doğru yazdıqlarıma görə, əməlisaleh bəndələrində olduğu kimi, məni də mükafatlandır. Amma nədə ki yanılmışam, səhv fikirləşib, səhv qiymətləndirmişəm, səhv izah və ifadə etmişəm, Sən də bilirsən ki, ancaq Sənin göstərdiyin Doğru Yolla getmək istəmişəm, odur ki buna görə də məni savabla mükafatlandır. Çünki naqis dilimlə Əzəmətini ifadə etməkdə, qələmimlə Hikmətinin səmasına yetişməkdə aciz olduğumu əvvəlcədən etiraf edirəm. Sən əfv edənsən, bağışlayansan, kərəm sahibisən, mərhəmətlilərin mərhəmətlisisən!

Daima rəhmətinə sığınan bəndə
Əhməd Bəssam Sai

# Allahla görüş

Təəccüblə soruşdu:

– Namaz menecmenti?! Namazın da menecmenti olar?!

Dedim:

– Əgər düzgün şəkildə investisiya yatırıb daha çox gəlir qazanmaq üçün dünya işlərinin menecmenti varsa, nə üçün də axirət işlərinin menecmenti olmasın?! Maddi qazanc əbədi deyildir, yox olandır. Axirətlə əlaqəli işlərimizi tənzimləyib, sərmayəmizi düzgün yatırıb daha çox qazanc əldə edə bilərik. Məhz bu qazanc əbədidir və yox olmur. Dünya və axirətin xeyri sayılan namaz qədər düzgün idarə edilməyə, düzgün sərmayə yatırılmağa, yığım edilməyə layiq ikinci iş varmı?!

Bir dəfə Ramazanda məni Oksforddakı Səudiyyəli Tələbələr Klubuna iftardan əvvəl məruzə oxumağa dəvət etmişdilər. Məruzə üçün "Namazın idarə edilməsi (menecmenti)" mövzusunu seçmişdim.

Əlimdə namaza dair bir neçə ayə və hədis qeyd etdiyim kağız parçası ilə xitabət kürsüsünə yaxınlaşdım. Salam verdim, kağızı açdım, orada qeyd etdiklərimi son dərəcə tələskənliklə oxumağa başladım. O qədər tələsik oxudum ki, oradakılar heç nə başa düşmədilər. Bir dəqiqədən sonra kağızı oxuyub bitirmişdim. Onu tez-tələsik bükdüm, getməyə hazırlaşırmış kimi dedim:

– Tələskənliyimə görə üzr istəyirəm. Sizinlə vidalaşmağa məcburam. Sizdən daha mühüm insanlarla görüşüm var. Salamat qalın!

Çantamı götürüb qapıya tərəf yönəldim. Gözucu oradakılara baxırdım: mat-məəttəl qalmışdılar, üz

ifadələrində dəhşət və narazılıq, nifrət və məzəmmət vardı. Gördükləri və eşitdiklərinə inana bilmirdilər.

Nəzakətsiz hərəkətlərə başqalarının ani reaksiyası bu cür olur. Mən də görüşdüyüm şəxslərlə eynilə bu cür davranmışdım. Necə təsəvvür edirsiniz: əgər Allahla bu cür davransaq, reaksiya necə olacaqdır?

Bir neçə saniyə keçməmiş tələbələrin yanına qayıdıb etdiklərimə görə üzr istədim:

– Mənə qəzəbiniz tutub, eləmi? Qoy olsun. Sizinlə bu cür ancaq bir dəfə davrandım və budur qayıdıb üzr istəyirəm. Amma Allahla hər gün beş dəfə bu cür davranırıq. Amma qayıdıb tövbə etmirik, üzr də istəmirik!

Allah üçün vaxtını ayırmada xəsislik edirsənsə, bu cür tələsik namaz qılırsansa, böyük fürsəti əldən qaçırır, ehtirama layiq görüşü korlayırsan. Belə namazı namaz adlandırmaq mümkündürmü?!

Müşahidə etdinizmi: mən səudiyyəli tələbələrə ayə və hədisləri bədahətən deyil, vərəqdən oxumuşdum. Dinləyiciyə hansı daha çox təsir göstərir: vərəqdən oxumaq, yoxsa danışmaq istədiklərimizi sinədəftər söyləmək? Çox vaxt biz də namazda surələri nitqini kağızdan oxuyanlar kimi oxuyuruq. Belə oxuma qəlbdən gəlmir, dodaqlarımızın arasından çıxır. Namazı Allah qarşısında ağzımızla "oxumaq"la bədahətən, könlümüzdən səsləndirmək arasında necə də böyük fərq vardır!

Uca Allahın qızıl boşqabda bizə təqdim etdiyi böyük investisiya layihəsini biveclik̇lə bir kənara atdıq, əliboş çıxdıq, qazancımız olmadı, həm də heç olmadı. Özümüzlə məntiqli davranmadıq. Qazancımız rədd və inkar, bəlkə də, cəza oldu. Halbuki namaz salam deməkdir, amma biz bu salamı lağlağıya çevirdik. Özü də kimə verilən salamı?!

Özümüzü, ibadətimizi, ətrafımızdakı şeyləri yenidən kəşf etməli, övladlarımıza onlara ətraflarındakı hər şeyi yenidən aşkarlamağa kömək edəcək düşüncə üslubu aşılamalıyıq. Hətta istifadə etdiyimiz bu cihaz və qurğulara yeni gözlə baxmağı onlara öyrətməliyik. Təbii ki, əgər onların əzbərçi və təqlidçilərdən düşünüb yeni-yeni şeylər yaradanlara çevrilməsini istəyiriksə.

Yadıma gəlir ki, keçən əsrin qırxıncı illərinin axırında mən yeddi və ya səkkizinci sinifdə oxuyarkən rəhmətlik anam Latakiyadan dost bir xristian ailəni ziyarətdən qayıtdığında bizə əcaib qurğudan – radiodan danışmışdı. Radionu bu ailənin oğlu Fransadan – təhsilini başa vurub geri qayıtdığında gətirmişdi. Anam heç vaxt unutmayacağım bu sözləri demişdi: "Bu radionun qabaq tərəfində orada danışan şəxsi görə biləcəyin bir pəncərə var".

Həmin gecəni yata bilməmişdim. Bu balaca qutuya "dəfn" edilib "həbs" olunan bədbəxt diktor haqqında düşünürdüm: onu oraya necə yerləşdiriblər axı?! Yəqin bu balaca qutuya yerləşəcək cılız bədənli birisini seçiblər. Çox yaxşı, bəs bu bədbəxt – ifadəmə görə üzr istəyirəm, uşaq olduğum üçün bu cür fikirləşirdim, – gecələr ayaqyoluna getmək üçün qutudan necə çıxır?

Onlarla, bəlkə də, yüzlərlə bu cür sual həmin gecə beynimdə fırlanıb məni yatmağa qoymamışdı. Bu məsələ uzun müddət məni narahat etmişdi. Nəhayət, öyrənmişdim ki, həmin qutu televizor imiş.

Övladlarımız televizorun, radionun, mobil telefonların, kompüterlərin, optik disklərin, süni peyklərin, elektriklə işləyən qəribə təyyarə və maşınların mövcud olduğu bir vaxtda dünyaya göz açır, amma bu əzəmətli kəşflər və onların baş verdiyi dövr haqqında, onları icad edənlər barəsində heç fikirləşmirlər. Onlara

bu şeylərin və ixtiraçılarının böyüklüyünü aşkara çıxarmağı öyrətməliyik. Nəticədə onlar insan və təbiətin (kainatın) böyüklüyünü, deməli, Allahın əzəmətini üzə çıxaracaqlar. Bu da onlara imkan verəcəkdir ki, özlərini, dinlərini, ibadətlərini yenidən kəşf etsinlər, ibadətdəki təkrarçılıq və vərdiş tozunu silsinlər, onu həmişə təzə saxlasınlar; namazı ilk dəfəsində olduğu kimi qılsınlar. Quran bizə bir çox ayəsində yenidənkəşfi öyrədir:

"Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatlaq, nöqsan) görə bilərsənmi?!

Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!" (əl-Mülk, 3-4);

"Məgər onlar başları üstündə (səf çəkib) qanad çalaraq (qanadlarını açıb-yumaraq) uçan quşları görmürlərmi? Onları (göydə) ancaq Rəhman (olan Allah) saxlayır..." (əl-Mülk, 19);

"De: "Bir söyləyin görək, əgər suyunuz çəkilib (yerin dibinə) getsə, (Allahdan başqa) kim sizə axar su gətirə bilər?!" (əl-Mülk, 30).

Bu üsluba Quranın bir çox surə və ayəsində rast gəlirik. Onun əsasında formalaşan cəmiyyət həmişə özünü yenidənkəşf vəziyyətində tapacaqdır. Yəni, davamlı şəkildə həm özünü, həm də ətrafını kəşf edəcəkdir. Bu isə öz növbəsində həmin cəmiyyətin mənəvi-mədəni vəziyyətini davamlı şəkildə yaxşılaşdıracaqdır. Bizdən tələb olunur ki, hər səhər gözümüzə yeni eynək vurub, özümüzə və ətrafımıza ilk dəfə imiş kimi nəzər salaq. Həmin vaxt görəcəyik ki, biz bu eynəklərlə Allaha necə də yaxınıq...

İndiki dövrdə menecmentə dair çoxlu ədəbiyyat və sahə mövcuddur. Menecment sənaye, kənd təsərrüfatı, sosial və biznes layihələrin investisiyasının ən ideal, optimal yollarını öyrənir. Gəlir və fayda gətirə biləcək hər şeyi sərmayə yatırmaq – bu, menecmentin əsas məqsədini əmələ gətirir. Bəs bu layihələrdən daha xeyirli, daha mənfəətli, daha uzun ömürlü, daha gəlirli, dünya və axirət üçün daha sərfəli olanını sərmayə yatırmaq haqqında bircə dəfə düşünmüşükmü, barəsində kitablar yazmışıqmı, ixtisas açmışıqmı, fənn təsis etmişikmi?! Bu müvəqqəti maddi layihələrin nəyə görə müvəffəqiyyət qazandığını heç ağlımızdan keçirmişikmi?! Bu ki ibadət menecmentidir, onun yenidən kəşf edilməsidir. Başlıca ibadətin namaz olduğunu fikirləşmişikmi?! O namaz ki Allahla görüşdür, özü də nə görüş!

Namaz ibadət siyahımızın əvvəlində gələn görüşdür, dünya və axirət üçün yatıracağımız əsas sərmayədir. İslam şəriətində birinci və ya ikinci yerdə cihad kimi məşəqqətli, çətin ibadətin gəlməməyinə təəccüblənməyin. Cihad üçüncü yerdə qərarlaşıb. Ondan əvvəl "valideynlə yaxşı keçinmək", ən başda isə "vaxtında qılınan namaz" gəlir:

Rəvayət olunur ki, Abdullah ibn Məsud *(Allah ondan razı qalsın!)* demişdir: "(Bir dəfə) Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* soruşdum: "Hansı əməl Allaha daha xoşdur?" Dedi: "Vaxtında qılınan namaz." Bir də soruşdum: "Bəs sonra?" Buyurdu: "Valideynlə yaxşı keçinmək." Yenə soruşdum: "Bəs sonra?" Dedi: "Allah yolunda cihad"[1].

Heyrətamiz hədisdir. Çoxumuz hədisin üstündən keçib gedirik. Namazın əhəmiyyət, səbir və savab baxımından cihaddan bir neçə dəfə üstün olmağı bizdən

---

[1] Hədisi İmam Müslim rəvayət etmişdir.

ayaq saxlayıb fikirləşməyi tələb edir. Allah namaz qılmağın "ağır iş" olduğunu demiş, amma "itaətkarlar"ı bundan istisna etmişdir. Doğrudan da, onlar namaz qılmağı özləri üçün ağır və ya çətin iş bilməmişdilər. Çünki itaətkar olduqları üçün ləzzət alır, xatircəmlik hiss edir, rahatlanır, həyatda söykənəcəkləri möhkəm divar qazanırdılar. Namaz oxumada, hərəkətlərdə, düşüncə və xəyalda itaətkarlıq, rahatlıq və dözüm olduğu kimi, həm də onlara səbri, diqqətliliyi, təvazökarlığı, diqqətlə qulaq asmağı, başqalarını xoşhallıqla qəbul etməyi, dinləməyi bacarmağı, əsəbləri cilovlamağı, təmkinlə, tələsmədən qərar qəbul etməyi, müxtəlif vəziyyətlərdə "qızıl orta"nı tutmağı, hökm verərkən ifrata varmamağı, insanlara və həyata müdrikliklə baxmağı öyrədən mənəvi məktəbdir. Elə isə Allahın bir çox ayədə namazı və səbri yanaşı göstərməsində təəccüblü heç nə yoxdur:

"Səbir etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin! Bu, ağır iş olsa da, (Allaha) itaət edənlər üçün ağır deyildir" (əl-Bəqərə, 45);

"Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbirlə davam et" (Taha, 132).

# “Heç şübhəsiz, o (namaz) ağır işdir”... Nə üçün?

Nə üçün namaz?

Namaz qılmaq üçün nəyə görə görüşlərimizi ləğv edir, əlimizdəki işi bir kənara qoyur, alış-verişi yarıda kəsir, nə qədər əhəmiyyətli olursa-olsun, gündəlik işlərimizi təxirə salırıq?

Nə üçün Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* imanla küfrün əsas fərqinin namazda olduğunu demişdir? Ölüm döşəyində Peyğəmbərin söylədiyi son sözlərdə namaza dair xəbərdarlıq nəyə görə idi? “Namaz! Namaz!”

Namaz cəzadır, yoxsa mükafat? Əgər namazda bir çətinlik vardırsa, onda bu çətinlik nədən ibarətdir? Əgər namaz qılarkən, doğrudan da, həzz alırıqsa, onda bu nə həzdir, görəsən? Nə üçün göstərilən vaxtlarda namaz qılırıq? Nə üçün məlum hərəkətləri edirik? Nə üçün namazların rükət sayı bildiyimiz qədərdir? Nə üçün namazlarımızda məlum ayə və sözləri oxuyuruq? Nə üçün bütün dinlərdə namaz ayini olmuşdur? Nə üçün namaz cihaddan, Allah yolunda vuruşub şəhid düşməkdən üstün və əhəmiyyətlidir Allahın və elçisinin nəzərində?

Etiraf edim ki, əlli il namaz qıldıqdan sonra nəhəng ticarət layihəsinin sahibi olduğumu gördüm. Elə bir ticarət layihəsinin ki, Uca Allah onun büdcə kapitalını sərmayə qoyum deyə bank hesabıma yatırıbmış. Məhz əlli ildən sonra başa düşdüm ki, daha çox qazanmaq və həzz almaq üçün bu kapitalı idarə etməyin ən ideal üsulunu tapmalıyam.

Bəxtin gətirib iki qarışqa dəstəsi arasında balaca qənd tikəsi üstündə gedən savaşın şahidi olsan, nə görərdin? Görərdin ki, hər iki dəstə tikəni ələ keçirməyə çalışır: bir qarışqa digərinin üstünə atılır, başqa bir qarışqa isə qənd tikəsinə çatmasın deyə xırda dişləri ilə rəqibinin ayağından yapışır. Bir sözlə, bir-birinə hücum çəkib savaşan qarışqalar görərdin qarşında. Şübhəsiz, bu iki "ordu" arasındakı qəribə savaşa baxaraq gülürsən ki, axı nəyin üstündə bir-birinizi didirsiniz? Heç nəyə dəyməyən adi qənd tikəsinin üstündə...

Həqiqi və bitkin şəkildə namaz qılsaydın, dünyadan uzaqlaşıb Allaha yaxınlaşdığını hiss edər, o uca dərgahdan aşağıya – dünyaya – namazınla tərk edib arxanda qoyub getdiyin dünyaya nəzər salar, iri gördüyün hər şeyin sezilməyəcək qədər xırdalaşdığının şahidi olardın. Onda bilərdin ki, qarışqaların ölüm-qalım savaşına girişdikləri o dəyərsiz qənd tikəsi, əslində, sənin əhəmiyyətsiz dünyandan başqa şey deyildir. Bu tikəni əldə etmək üçün vuruşub bir-birini öldürən həmin ağılsız qarışqalar isə səni və digər insanları təmsil edirlər. Bir-birinə hücum çəkən, biri-biri ilə əlbəyaxa olan, bir tikə qənd üçün qələbəyə can atan bizləri – biz insanları...

## Borcdan hüquqa doğru

Bəli, şəriətimizə görə, başlanğıcda namaz borcdur: "Yeddi yaşına çatdıqlarında övladlarınıza namaz qılmağı əmr edin. On yaşına çatdıqları vaxt (namaz qılmazlarsa) onları döyün"[2]. Bu üzdən "İnsanla küfr arasında namazı tərgitmək dayanır"[3].

Amma övladımız böyüyüb namazın mahiyyətini başa düşdükdə, Allahla rabitədəki bu "qaynar xətt"in əhəmiyyətini dərk etdikdə həmin borc tədricən "hüquq"a çevrilir.

Tərslik göstərən balaca uşağı həkimin yazdığı dərmanı içməyə məcbur edirik. Amma zaman keçdikcə, yəni bu uşaq böyüyüb yekəldikdə dərman anlayışı onun nəzərində "borc" müstəvisindən "hüquq" müstəvisinə adlayır. O, tamamilə dərk edir ki, dərman onu sağaldıb, səhhətini yaxşılaşdıran vasitədir.

Təsəvvür edin ki, gözəlliyi, genişliyi, əla yerdə yerləşməyi, dəbdəbəli əşyaları və mebeli ilə sizi sehrləyən, böyüklüyü və abadlığına heyran qaldığınız bir mənzili icarəyə götürmək istəyirsiniz. Sahibi ilə kirayə haqqı barəsində söhbət edərkən gözlənilməz təklif irəli sürür: mənzilimin icarə haqqı budur ki, hər gün mənimlə, mənim hesabıma beş dəfə yeməlisən. Səndən bundan başqa heç nə istəmirəm!

---

[2] Hədisi Əmr ibn Şüeybə istinadən İmam Əhməd rəvayət etmişdir. Hədisin istinad ardıcıllığı belədir: Əmr ibn Şüeybə → atası → babası.

[3] Hədisi Cabir ibn Abdullaha istinadən İmam Müslim rəvayət etmişdir.

Nə böyük comərdlik! Necə də möhtəşəm təklif! Nə güman etmişdiniz?! Bu, Allahın bizə etdiyi təklifin eynisidir! Rəbbimiz bu təklifi etmişdir ki, Onun bu dünyasında yaşayaq, nemətlərindən faydalanaq, halalından gen-bol istifadə edək, yer üzünü abadlaşdırmaqda ortaq olaq.

Gündəlik qidalanmamıza ayırdığımız vaxtı, verdiyimiz əhəmiyyəti namaza ayırmamağımız insafsızlıq deyildirmi?

Yeməkdən aldığımız həzzi namazlarımızdan almamağımız insafsızlıq deyildirmi?

Mədəmizi qidalandırmağa ayırdığımız gen-bol vaxtı nə üçün ruhumuzun qidalanmağına ayırmırıq? Görəsən, hansı bizim üçün daha əhəmiyyətlidir?

Elə bir mükafat təsəvvür edin ki, verən tərəf alan tərəfə təklif edir: bu mükafatı almaq üçün ondan daha böyüyünü qəbul etməyə razılıq verməlisən! Bu nə mükafatdır, görəsən? Namazdan gedir söhbət, namazdır bu mükafat. Vəzifə və ya çiyninə düşən yük deyil, borc olduğu üçün ləzzətlə namaz qılmadıqca Allahın dərgahında ən böyük mükafata layiq görülməyəcəksən.

"Allahu əkbər" (hərf. Allah daha böyükdür) deyərək namaza başladığında həzz alacaqsan. Təsəvvür et ki, mələklər sənin bütün günahlarını çiyinlərində ucaldılmış iki böyük qüllənin başına qoymağa gəlirlər. Hər dəfə rükuya və ya səcdəyə getdiyində günahların bu qüllələrdən bir-bir yer tökülür. İstəsən: rüku və səcdəni uzat, ya da qısa tut:

"Bəndə namaza durduğunda bütün günahları gətirilib çiyinlərinə qoyular. Hər dəfə rükuya və ya səcdəyə getdiyində günahlar ondan (sıyrılıb yerə) tökülər"[4];

[4] Abdullah ibn Ömərə istinadən rəvayət olunmuş bu hədisi Əlbani səhih hesab etmişdir.

“Dəstəmaz alan, özü də yaxşı şəkildə alan, sonra namaz qılan və namazda dediklərinin fərqinə varan elə müsəlman yoxdur ki, namazını bitirdikdə anadan olduğu gün kimi (pak) olmasın”[5].

Borcu necə də asanlıqla vəzifəyə çeviririk. Özü də elə bir ağır vəzifəyə, məşəqqətli yükə ki, tələm-tələsik ondan canımızı qurtarmağa çalışırıq. Bir neçə rükət qıldığında vaxtının “istehlak” olunduğunu, ya da “ziyan”a düşdüyünü güman edənlərin halı budur.

Vəzifə dedikdə ağlımıza gələn ilk şey yükdür. Yük isə nəfsə ağır gələn şeydir; yük bizdən alır, bizə vermir, vaxtımız və ya rahatlığımızın müəyyən hissəsindən bizi məhrum edir. Elə buradan “qol-budağ”ın qırılması başlanır. Və bir çoxumuzun nəzərində namaz “yük”ə çevrilir, xilas olub çiynimizdən atmağa çalışdığımız yükə!

“Ey Bilal, bizi (namazla) rahatlat”[6].

Elə isə əsas sual bu deyil: “Namaz qıldın ya yox?” Düzdür, bu sual da mühümdür, amma hər namazdan sonra özümüzə verəcəyimiz əsas sual aşağıdakı olmalıdır: “Bu namaza görə balansıma köçürülmüş mükafatı əldə etdimmi? Ondan, doğrudan da, həzz aldımmı?”

Namazını maraqlı səyahət üçün məccani biletə çevir, dünya səyahəti üçün deyil, bütün kainatı gəzmək üçün! Bu halda o səni kainatın sahibi, hakimi-mütləq Allaha sarı aparacaqdır.

---

[5] Üqbə ibn Amirə istinadən rəvayət olunmuş bu hədisi Əlbani səhih hesab etmişdir.

[6] Bilal ibn Rəbaha istinadən əl-İraqi rəvayət etmişdir.

# Vəzifə və hüququn sərhədi

Həyatımızda çox vaxt vəzifələrimizi hüquqlarımızla qarışıq salır, aralarındakı sərhədi müəyyənləşdirə bilmirik. Vəzifənin sərhədi harada başa çatır və harada hüququnku başlanır və əksinə.

Həcc vəzifədir, qayğıdır, səfərdir, öhdəlikdir, bəlkə də, riskdir (təhlükədir), amma (həcc vaxtı) atdığımız hər addımın bizə gətirəcəyi savabı düşündükdə vəzifə ilə əlaqəli təsəvvürlərimiz yox olub, yerini hüquqa verir.

Sədəqə vəzifədir, zəhmətdir, xərcdir, amma könül xoşluğu ilə verdiyimizdə, bizə qazandırdığı savabı, verdiyimiz şəxsə bəxş edəcəyi xoşbəxtliyi fikirləşdiyimizdə bizə yağdıracağı rahatlıq və xatircəmlik yağışı canlanır xəyalımızda. Çünki rəbbimizi razı salmışıq, möhtaclara qayğı və əmin-amanlıq, isti qucaq bəxş etmişik.

Oruc vəzifədir, aclıqdır, susuzluqdur, səbir və məşəqqətdir, amma tutmağa başladığımız hər dəqiqə ərzində savabın ləzzətini, Allaha yaxın olmanın həzzini hiss edəcəyik. Biz ki Allahın əmr və qadağalarına uymuşuq, elə isə vəd edilmiş mükafat anı yaxınlaşmışdır. Bu mükafat təkcə ac və susuz qaldığımız uzun saatlar sonrası iftar etməkdən ibarət deyildir; əksinə, ən böyük mükafat nəfsimizi istəklərindən məhrum buraxdığımız savaşda qələbə qazandığımızı hiss edərkən aldığımız ləzzətdədir. Bu ləzzətə başqa bir ləzzət – əbədi "bank hesabımız"a daha çox "pul" yatırmaqdan aldığımız ləzzət əlavə olunur.

Halal və haram arasındakı fərq də bu cürdür. Allah bizə bir şeyi haram etdiyində bizi həmin şeyin zərərindən qorumaq istəyir. Bu zərər isə ya bizə

məlumdur, ya da deyildir. Həmçinin Allahın əmrləri, yaxud halalları faydalanmağımız üçündür. Əgər ağlımızı işlədib halal və haramı real, iqtisadi, psixoloji-tibbi formada ifadə etmək istəsək, gəldiyimiz nəticə belə olacaqdır: fayda və zərər!

Bütün hüquqları vəzifələrə çevirməyimiz necə də asandır! Bütün vəzifələri hüquqlara çevirmək də asan, həm də maraqlı işdir!

Təsəvvür et ki, qurumların birindən böyük həcmdə pul mükafatı udmuşsan və səndən onu almaq üçün yola çıxmağı tələb edirlər. Bu pulları almaq üçün, təbii ki, həvəslə yola düzələcək, vaxtını və enerjini gen-bol xərcləyəcək, səfərdə qarşına çıxa biləcək istənilən çətinliyi bir heç sanacaqsan. Yaxşı, bəs "namaz" mükafatı bütün bunlara və daha çoxuna layiq deyildirmi? Namaz mükafatı hara, dünyəvi mükafatlar hara?!

Əlini uzadıb ağacdan meyvə yığmasan, meyvənin ləzzətini necə hiss edəcəksən? Yatağını hazırlamasan, yumşaq döşəyin, rahat yorğanın, ağ mələfələrin, pərqu yastığın olmazsa, otaqda sakitlik yaranmazsa, işıqlar söndürülməzsə, mışıl-mışıl yatıb, şirin yuxudan həzz ala bilərsənmi?! Deyən doğru demişdir: "Düzdür, quşa yemi yetirən Allahdır, amma quş da yeyib həzz almaq üçün uçub özünü yemə çatdırmalıdır".

# Namaza oyanmaq həzzi

Balaca olduğumda “gecə yarısı” sübh namazına oyanmalı idim. Həmin vaxt mən hey düşünür, öz-özümə soruşurdum: Nə üçün gecənin bu vaxtında? Məgər Allah Ona beş vaxtda namaz qılmağımızı istəmir? Elə isə onları belə çətin vaxta nə üçün salıb? Nə üçün bizdən yuxumuzun ən şirin vaxtında oyanıb Ona namaz qılmağımızı istəyir? Bu namazı səhər saat yeddidə, yaxud səkkizdə, hətta onda qılsaq olmazmı? İstənilən vaxt qılınan namaz namaz deyildirmi?! Axırıncı namazda oxuduğumuz lap birincisində oxuduğumuzun eynisi deyildirmi? Əgər namaz Allahla “rabitə”mizi qoruyub saxlamaq, şeytanı bizdən uzaq tutmaq üçündürsə, biz yuxuda olarkən şeytan bizə nə edə bilər ki? Madam ki yuxudayıq, xeyir və ya şər işləməyi planlaşdıra bilmiriksə, Allahla əlaqəni itirib şeytanın tələlərinə düşməkdən nə üçün qorxmalıyıq ki?!

Bəlkə də, bu cür suallar təkcə balacaların deyil, həm də böyüklərin ağlına gəlir. Amma böyüklər əvvəl-axır dərk edəcəklər ki, namaz təkcə Allahla davamlı rabitə olmayıb, həm də, aşağıda görəcəyimiz kimi, həyat proqramıdır.

Sübh çağı yataqdan qalxmağın, məscidə getməyin, gündəlik işinə başlamaq üçün günəş doğmadan məsciddən çıxmağın şirinliyini dadan şəxs – məhz o, tezdən oyanmağın, məsum sübh yelinin ətrini qoxulamağın, sübh sakitliyindən həzz almağın, təkcə səhər namazında deyil, həm də ondan əvvəl və sonra Allaha yaxın olmağın qədir-qiymətini bilir.

Məhz o, həyatın yuxudan ayılmağının şahidi olur; gecədən gündüz sıyrılıb çıxır, dan yeri gözlərinin önündə sökülür, gecə öz örtüyünü səma və yerdən, ağaclar və otlardan, çiçəklərdən çəkir; gündüz öz üzünü utancaq qıztəki ona göstərir, çöhrəsində yenidən həyat parlayır.

Gözləri qarşısında yaradılmanın başlandığı ilk günün əsrarəngiz səhnəsi canlanır. Gündüzün gecəyə sarılaraq daxil olmağı möcüzəsinin göstərildiyi səhnə! Kainatın "damarlar"ına yayılaraq genişlənən həyatın ilk dəfə saçılmasının əks olunduğu səhnə! Bu füsunkar anların şahidi olan şəxs hiss edir ki, zəkası, düşüncəsi parlayaraq "zəncirlər"i qırır, yaratmaq və bəxş etmək üçün irəliyə atılır. Bu ona əlavə enerji, zənginlik, fəallıq və yaradıcılıq bəxş edir; ona elə gəlir ki, cavanlaşaraq yeni həyata qədəm qoymuşdur.

Bu sübhdür! O sənə kainatın sirlərini görmək, ondakı ecazkarlığı aşkara çıxarmaq üçün göz verir. Halbuki digər vaxtlar sən bu ecazkarlıq və sirləri aşkara çıxarmağa qadir deyilsən.

Günün bu erkən saatlarında oyanıb işləyən şəxs yaxşı bilir ki, səhər tezdən iki-üç saat işləmək nəticə etibarı ilə, yəni məhsuldarlıq baxımından digər vaxtda saatlarla işləməyə bərabərdir. Bu əvəzsiz saatlara sahib olmaqla sənin arasında yuxu şeytanı dayanır; əgər ilk günlərdə ona müqavimət göstərib üstün gələ bilsən, tezdən oyanmaq sənin üçün iltizama çevrilir. Bu iltizam Ramazanın ilk çətin günlərində oruc iltizamını xatırladır. Əgər bunun öhdəsindən gələ bilsən, bioloji vərdiş qazanırsan və tezdən oyanmaq gündəlik proqramının imtina edə bilməyəcəyin hissəsinə çevrilir.

Budur gözlərini açmışsan və hələ də yatağındasan. Budur şeytan sənin başını yastığa sıxaraq deyir:

“Gözlərini yum, əzizim, yuxuya təslim ol, belə tezdən şirin yuxuna haram qatma! Bu ki rahatlanmağın, dərindən yatmağın üçün ən şirin andır! Rahatlıqla yat! Tələsmək lazım deyil!”

Şeytan bu sözləri qulağımıza hey təkrarlayır. Bəs onun tovlamalarına necə müqavimət göstərirsən? Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu vəziyyəti izah edərək şeytana qalib gəlməyin yolunu bizə göstərir:

“Şeytan sizdən biri yatdığı vaxt boynunun arxasına üç düyün vurar. Hər düyümü atdığında atdığı yerə vuraraq deyər: “Sənə uzun gecə olsun! Uzan yat!” Həmin kəs ayılıb Allahı zikr edərsə, düyünlərin biri çözülər. Dəstəmaz alarsa, ikincisi çözülər. Namaz qılarsa, bütün düyünlər çözülər. Bununla da fəal şəkildə, yaxşı əhval-ruhiyyədə səhərə çıxar. Əks halda, səhərini tənbəllik və pis əhvalla açar”[7].

Sübh namazını qılmaq üçün tezdən yatmış şəxslərin üzünə heç diqqətlə baxmışsınızmı? Onların üzünü gecəni oyaq qalan, daha sonra yatıb səhər namazını “qaçıran” şəxslərin üzü ilə müqayisə edin. Əgər bunu etsəniz, insan adlanan bu heyrətamiz “qurğu”dakı bəzi sirləri öyrənmiş olacaqsınız. Allah bu sirləri ona onu yaradarkən yerləşdirmişdir. Allahın bizim üçün qoyduğu heyrətamiz qayda belə səslənir: insan adlanan “qurğu”nu yatdıqdan sonra yenidən işə salmağın ən münasib vaxtı günəş çıxmazdan əvvəl olub, sonra deyildir. Allah onu belə yaradıb və biz, bəlkə də, bunun hikmətini başa düşməyəcəyik. İnsandakı sirləri onu yaradan Allahdan yaxşı kim bilir ki?!

---

[7] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Buxari rəvayət etmişdir.

“Məgər yaradan (sizin gizli saxladığınız hər şeyi) bilmir?! O, (hər şeyi) incəliyinə qədər biləndir, (hər şeydən) xəbərdardır!” (əl-Mülk, 14).

Yaradıcısının qoyduğu “proqram”a uyğun olaraq, təbiət sənin üçün yatağından qalxmışdır. Məqsədi hələ sübh tezdən ətrafda cərəyan edən gözəllikləri sənə göstərməkdir. Təbiət istəyir ki, sən yatmayasan, oyanıb işləyəsən, istehsal edəsən, yer üzünü abadlaşdırasan. Bu ilahi nemətin dəyərini əskiltmə, yeni günə başlamaq üçün Allahın sən və başqalarının ixtiyarına verdiyi bu enerjini hədər etmə. Qürub vaxtı göz qapaqları bağlanan, sübh çağının ilk işartısında isə açılan gülləri, səhər tezdən cikkildəyib səmada qanad çalan, ruzi dalınca uçan quşları görmürsənmi? İnəklər, qoyunlar, keçilər, toyuqlar – bir sözlə, Allahın yer üzündə yaratdığı hər canlı yenidən həyata başlamaq üçün dan yeri söküləndən ayıqdır.

Qatarını qaçırmadan həyata yetiş, meyvəsini topla, çünki qatar bir daha qayıtmayacaqdır.

# Səbirdəki həzz

İşə və ya harasa maşınımızla gedərkən çox vaxt mənzil başına çatmaq haqqında düşünürük. Əsas diqqətimizi buna verir, icazəli sürət həddində, bəzən isə ondan artıq sürətlə mənzilbaşına tələsirik. Görməli olduğumuz işlərin zehnimizdə "kəllə-kələyə gəlməsi"nin, əsəblərin tarım çəkilməsinin əyani sübutudur bu!

Əgər maşın sürməkdən həzz almaq fikrinə düşsək, necə olsun? Bunun üçün evdən bir qədər tez çıxmalıyıq. Beləliklə, təmkin və rahatlıqla maşın sürməyə vaxt qazanırıq. Bu da imkan verir ki, getdiyimiz yolun ətrafına nəzər salaq, əvvəlki günlər görə bilmədiklərimizi görək, maşın sürməkdən, diqqətlə baxıb düşünməkdən həzz alaq, ötən vaxt və qalan yol barəsində düşünməklə əsəblərimizi tarıma çəkmədən ləzzətlə maşın sürək.

Əlavə vaxt tapmaqla səfərini ağır yük olmaqdan çıxarıb, səni və yanındakıları əyləndirən vasitəyə çevirirsən. Namazınla da bu cür et.

Bunun üçün səndən vaxtla qısa müddətli sülh bağlamaq tələb olunur. Bu müqavilə sənə dözümlü olmaqda kömək edir, beləliklə, səbir ləzzətə çevrilir. Məgər sən iftar edənədək oruc tutmağın, sağalanadək xəstə qalmağın, bilet alanadək cərgədə dayanmağın, müvəffəqiyyətli məzun olanadək təhsil almağın çətinliyinə səbir göstərməyin həzzini yaşamamışsan?!

Gücün çatan bir şeydən özünü məhrum edib səbir göstərməklə həzz almağı heç sınaqdan keçirmişsənmi? İmkanın yetdiyi halda, ya prinsipial olduğun, ya da özünə söz verdiyin üçün, yaxud yanındakı imkansız şəxslərə ehtiramən şokolad, paltar və sair almaqdan im-

tina etdiyində hansı hissləri keçirdiyini xatırlayırsanmı? Bu, dözüm və səbrin insana verdiyi həzdir. Namaz da belədir:

"Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbirlə davam et..." (Taha, 132).

Namaza səbir göstərməyin Allahın səni cəzalandırması və imtahana çəkməsi mənasına gəlmir. Namaza səbir göstərmək arzusunda olduğun həzzə nail olmaq üçün dözməyə oxşayır. Bir şeyin verdiyi həzz nə qədər çoxdursa, onu əldə etmək üçün bir o qədər də əziyyət çəkib dözüm göstərməlisən. Pıçıldamaq, qayğı və kədərini unutmaq üçün səni yaradan Allahın qarşısında dayanmaq və bu səmimi görüşdən günahlardan təmizlənərək yeni doğulmuş körpə kimi ayrılmaq – bundan böyük həzz vardırmı?!

## Namaz səbir məktəbidir

Qərb ədəbiyyatında səbir məziyyəti haqqında, demək olar ki, heç danışılmır, – bu məni heyrətə gətirir. Onlar insandakı başlıca məziyyətlər haqqında danışarkən səbir mövzusuna yer ayırmırlar. Bu deyilənləri Qərb ədəbiyyatını məndən yaxşı bilənlər də təsdiqləyəcəkdir. Onlar cəsarət, dürüstlük, əzmkarlıq, zəhmət, comərdlik, mürüvvət, şücaət, düzgünlük, səmimiyyət, sevgi, ədalət, bərabərlik, azadlıq, demokratiya, təvazökarlıq, yoxsullar və möhtaclara kömək və digər məziyyətlərdən söz salırlar, amma, qəribədir, nədənsə, səbir haqqında danışmağı ağıllarına gətirmirlər.

Quranda "səbir" sözü və törəmələrinin neçə dəfə işləndiyini araşdırdıqda qarşıma 103 rəqəmi çıxır. Hədislərdə isə bu söz yüzlərlə yerdə işlədilib.

"Qəribədir" ona görə deyirəm ki, Qərb mədəniyyəti kəşf və ixtiraları ilə özünü bütün dünyaya qəbul etdirmişdir. Və bizə məlumdur ki, ixtiraçının ilk "silah"ı səbirdir; yenini üzə çıxarmaq, başqalarının aciz qaldığı şeylərə nail olmaq üçün gecə-gündüz çalışmalı, sabahları dirigözlü açmalı, səbir və təmkin tələb edən təcrübələr aparmalıdır. O, layihələndirmə, israr, təkid, inad, çalışqanlıq, səbir olmazsa, kəşf edə, icadlara imza ata bilərmi? Bəlkə də, onlar bu icad və kəşfləri ona görə ediblər ki, səbir, təmkin, israr onların təbiətində mövcuddur, odur ki ədəbiyyatlarında bunu göstərməyi lazımlı bilməyiblər.

İslamın üç mühüm ibadətinə: namaz, oruc və həccə nəzər salsaq, görəcəyik ki, onların hər biri, sanki, səbir öyrətmək, səbirli insanlar yetişdirmək üçün planlaşdırı-

lıb. Ola bilsin, soruşasan: Oruc və həcci başa düşdüm, amma namazın səbirlə nə əlaqəsi var axı?

Təsəvvür et ki, səbri öyrədən təlim kursuna yazılmışsan. Kursda sənə hansı proqramla dərs keçiləcəyini təxmin edirsən?

Əgər namazı namaz edən daxili itaətkarlıqdırsa – "xüşu"dursa – peyğəmbərimizin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dediyi kimi, insan "xüşu" sayəsində namazda nə dediyinin (oxuduğunun) fərqinə varır, – səbir olmazsa, bu itaətkarlıq baş verərmi?

Namazda surə və ayələri, "təsbih" və "təkbir"ləri[8] "nə dediyinin fərqinə varmayacağın" şəkildə oxuduğunda ticarətin – asan, qazancın isə az olacaqdır. Amma bunları sözbəsöz, aramla oxusan, lazımi yerlərdə dayanıb düşünsən, yəni nə dediyinin fərqinə varsan, ticarətin çətin olsa da, qazancında karlı çıxacaqsan.

Məsələn, "Allah daha böyükdür" (***Allahu əkbər***) ifadəsini təkrarən dedikdən sonra xəyalındakı boşluğu doldurmaq üçün ayaq saxlayırsan: Allah kimdən, nədən böyükdür? Bu iş səbir tələb edir, özü də çox səbir tələb edir.

Eləcə də "Böyük (və ya: Uca) rəbbimi (bütün nöqsanlardan) uzaq hesab edirəm" (***Subhanə rabbiyəl-azim (a`lə***) "təsbih"lərini təkrarən dedikdən daha sonra xəyalındakı boşluğu doldurmaq üçün ayaq saxlayırsan: Allahı nə ilə və nədən uzaq (xali) hesab edirəm? Bu iş səbir tələb edir, özü də çox səbir tələb edir.

Həmçinin namazında "Allahın adı ilə" (***Bismilləh***), "Mərhəmətli" (***ər-Rahmən***) və "Rəhimli" (***ər-Rahim***) sözlərini Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* oxuduğu şəkildə uzadaraq oxusan, mənası və məzmun fərqlərini

[8] "Subhanə rabbiyəl-azim", "Subhanə rabbiyəl-a`lə" və "Allahu əkbər" sözləri nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

başa düşəcəksən, – bu da səbir tələb edir, özü də çox səbir tələb edir.

"Ət-təhiyyətu lilləhi vəs-saləvətut-tayyibətu" sözlərini[9] fasilə ilə tələffüz edir və hər dəfə fasilə verdiyində Allahdan cavab almağın həzzini yaşayırsan. Daha sonra Peyğəmbərə salam göndərib bir anlığa dayanır, salamına salamla cavab verilmənin həzzini hiss edirsən. Bundan sonra Allahın əməlisaleh bəndələrinə (***alə ibədilləhis-salihin***) salam göndərirsən və bu salama görə savab qazanacağını bilməyin sənə həzz verir. Bütün bunlar səbir tələb edir, özü də çox səbir tələb edir.

Namazında hər hərəkət, hər oxunuş, hər ayə arasında dayanırsan, Allah qatında qəbul edilsin deyə hər birini ciddiyyətlə, doğru qaydada, ehtiramla icra edirsən. Bu da öz növbəsində səbir tələb edir, özü də çox səbir tələb edir.

Hər bir uğur və nailiyyətinə nəzər salsan, bütün bunları səbirlə əldə etdiyini görərsən. Uğursuzluq və məğlubiyyətlərinə, günah və səhvlərinə gəlincə, onlara səbirsizliyin səbəb olmuşdur.

Həyat təcrübəsində müvəffəqiyyətin heyrətamiz məktəbi səbirdir! Səbir təcrübəsində müvəffəqiyyət qazanmağın heyrətamiz məktəbi isə namazdır!

Bolluğa düşüb naz-nemətə qərq olduğunda səbirli davransan, lovğalıq və təkəbbür səni bürüməzsə, dünya və axirətdə xeyir qazanacaqsan.

Yox, çətinliyə düşüb yoxluğa (darlığa) səbir göstərsən, ümidsizliyə qapılmasan, bunun dünya və axirətdə sənə xeyri toxunacaqdır.

Bir yaxşılıq etmək qərarına gəlib çətinliyi və yükünə dözsən (səbir göstərsən), tərəddüdə düşüb zəiflik

[9] Tərcüməsi: "Salamlar Allahadır, xoş xeyir-dualar da".

etməsən, bu əməlin dünya və axirətdə sənə xeyri olacaqdır.

Şeytan səni günah işləməyə təşviq etdiyində səbir göstərib tovlamalarına aldanmasan, bu sənin dünyan və axirətin üçün xeyirlidir.

Bir işdə və ya imtahanlarda müvəffəqiyyətsizliyə düçar olduğunda səbir göstərib, israrla yenidən cəhd etsən, dünya və axirətdə xeyir qazanacaqsan.

Sənə yamanlıq edildiyində səbirli hərəkət edib qəzəbini boğsan, pislik edənin təqsirindən keçsən, bu dünyan və axirətin üçün xeyirli olacaqdır.

Nəhayət, soruşuruq: Bu dünyada elə faydalı iş varmı ki, onda səbrə ehtiyac olmasın? Dünyada ibadət, xüsusən namaz məktəbi qədər bizə səbir aşılayan ikinci məktəb vardırmı?

Peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Bu ümmətin məhrum olacağı ilk şey daxili mütilikdir – "xüşu"dur".

Biz namazımızda "xüşu"dan məhrum olduqda, həm də səbirdən məhrum oluruq. Səbir də ki yox oldu, bu ümmətin mədəniyyəti yox olacaqdır.

Allah Təala səma ilə əlaqəmizi – "xüşu"muzu yer üzündə uğur qazanmağın şərti olaraq göstərmişdir:

"Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)

O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)" (əl-Muminun, 1-2).

Hər namazdan sonra özünə aşağıdakı sualı ver: Namazımı səbirlə qıldımmı?

# Nə üçün namaz qılırıq?

Namaz nə üçündür? Təkcə səbir üçünmü?

Qəribə hərəkətlər etmək, dəfələrlə təkrarladığımız sözləri bir daha təkrarlamaq üçün nəyə görə hər gün bir-iki saatımızı hədər edirik? Olmazmı ki, bu vaxtı başqalarına kömək etmək və ya faydalı xeyriyyə işləri görmək üçün ayıraq? Namaz olmasın, başqa iş olsun!?

Təsəvvür edin ki, dünyadakı mobil və qeyri-mobil telefonlar, simli-simsiz bütün rabitə qovşaqları sıradan çıxmış, kosmik və yerüstü stansiyalar fəaliyyətini dayandırmış, internet kəsilmiş, quru, hava və su nəqliyyatının işi iflic olmuşdur. Görəsən, bu halda dünya necə olardı? Siyasi-ictimai, mədəni, iqtisadi xaos, tənəzzül baş verərdi...

Bizimlə yaradıcımız arasında namazın oynadığı rol bundan ibarətdir. Onsuz bir gün qala bilərikmi? Allahla bizi birləşdirən “qaynar” xətt kəsilsə, nə baş verər? Elə isə Allahın bizə verdiyi möcüzəvi “rabitə cihazı”nı yenidən icad etməliyik.

Namazın “yığılıb quraşdırıldığı” belə mütərəqqi texnologiyadan yaxşısını tapa bilərsənmi? Qeyri-adi funksiyalar, nadir konstruksiya, seçmə, dəqiq sözlər, səciyyəvi və ifadəli hərəkətlər – bütün bunlar namaz “cihazı”nda mövcuddur.

# Namaz bizi yenidən proqramlaşdırır

Günlər, illər keçdikcə dalğalar sahildəki qayaları oyub dağıdır. Həyat da belədir: namazın bizdə yaratdığı güc və saflıq "qayalar"ı vaxt ötdükcə vərdiş və təkrarla oyulur. Dünyanın kəsilməz "dalğalar"ı bizi saatbasaat, günbəgün, ilbəil dəyişdirib proqramlaşdırmağa çalışır. Zamanla dəyişdiyimizi, bizim üçün hazırlanmış ilahi proqramın orijinal nüsxəsindən uzaqlaşdığımızı hiss etmirik. Virussuz "parlaq disk" orijinal proqramın işləməsini bəzən səmavi (orijinal) "disk"də yazılanlardan uzaqlaşdırıb dəyişdirə bilir:

"Paltar əskilib yırtıldığı kimi, iman da könlünüzdə köhnəlir. Allahdan könlünüzdə imanı yeniləməsini diləyin"[10].

Allahın lütfü sayəsində biz, müsəlmanlar başqa din və xalqlardan fərqli olaraq, imanımızın "proqram diski"nin orijinalını qoruyub saxlaya bilmişik. Bu "disk"in sayəsində biz nəfsimizi "format" və "təmir" edə, ondakı "viruslar"ı, yəni mənəvi sapqınlıq və xəstəlikləri aradan qaldıra bilirik.

Bu "disk"də bizim üçün Quran proqramı qorunub saxlanmışdır. Nazil olduğu kimi, dəyişilmədən, təhrif və dəyişikliyə uğramadan! Həmçinin bu "disk"də, başqa dinlərdən fərqli olaraq, Peyğəmbərin əməli və sözlü namaz "proqram"ı mövcuddur. Və Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onu bizə aşağıdakı yeddi kəlmə ilə xülasə etmişdir:

---

[10] Hədisi Abdullah ibn Əmr rəvayət etmişdir. Əlbaniyə görə, hədis səhihdir.

"Necə namaz qıldığımı görürsünüzsə, elə də namaz qılın"[11].

Görəsən, namaz olmasaydı, bizi Allahla qovuşduran başqa vasitə ixtira edə bilərdikmi? Görəsən, insan oğlunun icad etdiyi bu kommunikasiya vasitəsi hansı formada olardı? Özünüzü çox fikirləşib yormayın. Bunu bizdən başqaları artıq ediblər.

Tövratı və İncili araşdırsanız, Həzrəti Musa və ya Həzrəti İsanın necə namaz qılmağı haqqında təfsilatlı məlumat tapa bilməzsiniz. Əgər belə olsaydı, davamçıları onların namaz formasını mənimsəyər, dədə-babalarından miras aldıqları ibadət formasını isə bu gün icra etməzdilər.

Onlar da ibadət edirlər, amma möhtac olduqları şey vardır. Nədir bu şey? Şübhə yox ki, onlar ibadət etdikləri vaxt bir müsəlmanın namaz qılarkən aldığı ləzzətə möhtacdırlar. Həqiqətən, bu ləzzəti heç nə əvəz etmir. Müsəlman ona görə ləzzət alır ki, peyğəmbərinin Pak Allahdan birbaşa öyrəndiyi namazı qıldığını hiss edir.

Tövrat və İncildə bu iki peyğəmbərin necə namaz qılmaları haqqında məlumat yoxdur. İncildə ancaq o mövcuddur ki, şagirdlərindən biri Həzrəti İsaya deyibmiş: "(Vəftizçi) İohann şagirdlərinə nəyi öyrədibsə, sən də bizə onu öyrət ki, namaz qılaq." İsa da onlara belə cavab verir: "Namaz qıldığınız vaxt bu sözləri deyin." Daha sonra onlara 35 kəlməlik dua öyrədir (Bu, Luka İncilinə görədir. Matta İncilində isə bu rəqəm 42-dir. Bax: Matta, VI/9-13; Luka, XI/2-4).

Xristian və yəhudilərdəki oruc ibadəti haqqında da eyni şeyləri demək olar. Orucun şərtləri, qayda-

[11] Hədisi Malik ibn əl-Hüveyris əl-Leysi rəvayət etmişdir. Əlbaniyə görə, hədis səhihdir.

ları, olar-olmazları, müddəti və vaxtı qrupdan-qrupa, ölkədən-ölkəyə dəyişilir.

Çox vaxt görürsən ki, bəzi müsəlmanlar namazdakı xırda məsələlərlə əlaqəli mübahisələr üzündən bir-birinə əsəbiləşirlər: məsələn, hər “təkbir”də, yoxsa ancaq “giriş təkbiri”ndə əllər qaldırılmalıdır? Ayaqüstü dayanarkən əllər göbəkdə, yoxsa altında yaxud bir qədər yuxarıda bağlanmalıdırmı? Bu kimi xırda məsələlər onları mübahisə və ədavətə sürükləyir. Mən isə, inanın ki, özümü xoşbəxt sanıram! Bəli, düz eşitdiniz: özümü xoşbəxt hiss edirəm. Təsəvvür edirsinizmi, namazın forması peyğəmbərimizdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə bütün xırdalıqları və təfərrüatı ilə gəlib çatmışdır. Bu xırdalıq və təfərrüat səhabələrin Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* rəvayət etdikləri uzun-uzadı hədislərdə mövcuddur. Yəni, Peyğəmbərin namaz forması o dərəcədə təfərrüatla bizə gəlib çatıb ki, onun bəzi xırdalıqları ətrafında mübahisələr yaranıb. İslamın bütün hökmləri səmadan yerə nazil olmuşdur. Bircə namaz istisnadır: Aləmlərin rəbbi Allah elə etmişdir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səmaya qalxıb namazın orijinal variantını Ondan təslim alsın, daha sonra yer üzünə, müsəlmanlara hədiyyə aparsın.

Elə bir hədiyyə ki, səmadan gəlmişdir, əsrarəngizdir, mənbə və rəvayətlərimizi doldurmuş xəzinədən ibarətdir, özü də bəzi təfərrüatlarda ixtilaf yaradacaq dərəcədədir. Necə etibarlı peyğəmbərdir ki, orada, səmada rəbbindən birbaşa təslim aldığı namazı olduğu kimi bizə çatdırıb. Özü də bəşər tarixinə məlum ən heyrətamiz və asan ünsiyyət vasitəsini bütün xırdalıq və təfərrüatı ilə çatdırıb. Bu vasitə səmanın üst təbəqələrini yararaq bizi Allaha qovuşdurur.

Siz Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* merac gecəsində Allahdan öyrəndiyi namaz formasına sahib olmağınızın qiymətini dərk edirsinizmi? Elə bir namaz formasına ki, əsasları və bəzi kiçik nüansları üzərinə bütün müsəlman məzhəbləri həmrəydir!

Namaz qılan iki şəxs təsəvvür edin. Birincisi fərqinə varır ki, namazdan əvvəl, ərzində və sonra təkrarladığı sözlər, etdiyi hərəkətlər, vaxtı gözləmək – bütün bunları etibarlı Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Allahdan aldığı şəkildə, böyük diqqət və qayğı ilə bizə çatdırmışdır. İkincisi isə ibadət edərkən bilir ki, bəşər övladının icad etdiyi "rabitə" formasını yamsılayır. Belə ki başqası Allahla əlaqə vasitəsi icad etmək üçün əlləşmiş və indi onun qıldığı "namaz"ı icad etmişdir. Siz, yəqin ki, onların arasındakı fərqi yaxşı başa düşürsünüz.

Təsəvvür edirsinizmi, bir müsəlman namaz qılarkən "xətt"in o başındakına səsinin çatdığına əmin olduğu üçün nə qədər xoş hisslər keçirir. O, səhv etməyən ilahi "cihaz"dan istifadə edərək Allahla rabitə yaradır. Bu cihazı Aləmlərin rəbbi Allah layihələndirib və ona hədiyyə edib: bu cür təmizlən, bu cür istiqamət götür, bu cür hazırlaş, bu cür başla, bu cür təkrarla, bu cür hərəkət et, bu cür başa çatdır...

Bundan əlavə, siz islamda Sünnənin mövcudluğunun əhəmiyyətini başa düşürsünüzmü? O Sünnənin ki, həyatımızdakı hər bir xırda məsələni özündə birləşdirir. Çünki Sünnə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatındakı hər şeyi təsvir edir.

Sünnənin qədir-qiymətini o kimsələr bilir ki, onlar başqa dinlərin belə bir təcrübədən məhrum qalmağının nə ilə nəticələndiyini yaxşı başa düşürlər. Doğrusu, həmin dinlərin təsirində qalaraq, şüursuzca Sünnədən

imtina edib Quranla kifayətlənməyə çağırış edənlərə çox təəccüblənirəm.

Gör onlar islamı necə bir xəzinədən, necə bir məziyyətdən, necə bir təhlükəsiz "rabitə"dən təcrid etmək istəyirlər. Sanki, Allah Təala Qurandakı onlarla ayəni Sünnəyə aid etməyib, bizi ondan israrla yapışmağa, Peyğəmbəri özümüzə nümunə götürməyə heç çağırmayıb?!

"...Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin..." (əl-Həşr, 7);

"Allaha və Peyğəmbərə itaət edin..." (əl-Maidə, 92).

Allah bildirir ki, Peyğəmbərə itaət etməyimiz Ona itaət etməyimizə bərabərdir:

"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur..." ( ən-Nisa, 80).

Peyğəmbərin sünnəsi ilə əlaqəmizi təsdiqləyən Allah Sünnəni bizim üçün "gözəl örnək" adlandırır:

"Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!" (əl-Əhzab, 21).

Sünnənin əhəmiyyəti elə bundadır. Namazın və onu bütün tərəfləri ilə olduğu şəkildə qılmağımızın əhəmiyyəti elə bundadır. O, qısa müddət ərzində sürətlə aktivləşən mükəmməl ilahi proqramın orijinal versiyasıdır. Bu proqramla biz gündə beş dəfə özümüzü "format" edirik. Bu say gecə və gündüz saatlarında həyat "kompüter"imizə düşmüş virusları yox etməyə kifayət edir. Bu proqram, bir tərəfdən, bizi elə bir möhkəm divarla təmin edir ki, onun sayəsində ətrafımızdakı sapqınlıq "viruslar"ından qorunuruq. Digər tərəfdən isə o, həyatımızın hər sahəsində alovlanan günah "meşələr"indəki yanğını söndürür.

“(Günahlar işləyib) yanırsınız, yanırsınız. Sübh namazını qıldığınızda (bu günahları) yuyur. Sonra bir daha (günahlar işləyib) yanırsınız, yanırsınız. Günorta namazını qıldığınızda (bu günahları) yuyur. Sonra bir daha (günahlar işləyib) yanırsınız, yanırsınız. İkindi namazını qıldığınızda (bu günahları) yuyur. Sonra bir daha (günahlar işləyib) yanırsınız, yanırsınız. axşam namazını qıldığınızda (bu günahları) yuyur. Sonra bir daha (günahlar işləyib) yanırsınız, yanırsınız. Yatsı namazını qıldığınızda (bu günahları) yuyur. Daha sonra yatırsınız və oyananadək sizə (günah) yazılmır”[12].

Bir dəfə gənc yapon həkim məndən soruşmuşdu: “Müsəlmanların hər gün beş dəfə namaz qılmağı doğrudurmu?” Təsdiqlədiyimdə etiraza oxşar həyəcanla soruşmuşdu: “Bunu necə edə bilirsiniz? Bu ki çoxdur!” Ona demişdim: “Sən həkimsən, xəstələri qəbul və müalicə edirsən. Hər gün əlini neçə dəfə yuyursan?” “30... 50... dəfə”, – deyərək üzümə baxdı. Gözlərindən oxudum ki, nə demək istədiyimi başa düşüb.

“Dur namaz qıldır. Heç şübhəsiz, namazda şəfa vardır”[13].

Həyat “viruslar”la: tovlama, yoldan çıxarma, bəşəri zəiflik, sapqınlıq və şeytani vəsvəsə ilə doludur. Bunları su ilə deyil, namazla təmizləmək mümkündür. Su bədənimizi çöldən təmizləyir, namaz isə bizi daxilən pak edən vasitədir. Əgər namaz qılan şəxs hiss etsə ki, namazını necə başlayıbsa elə də bitirmişdir, daxilində heç bir şey dəyişməmişdir və ya günahlarından təmizlənməmişdir, sanki, dünyaya yenidən gəlməmişdir, deməli, namazdakı “format” diskindən düzgün şəkildə

[12] Hədisi Abdullah ibn Məsud rəvayət etmişdir. Əlbaniyə görə, hədis səhihdir.

[13] Hədisi Əbu Hüreyrəyə istinadən İbn Macə rəvayət etmişdir.

istifadə etməyib; "virus"lar hələ də onun daxilini bulandırır və o, namazdan sonra günahlarla dolu əvvəlki həyatına geri qayıdır.

Əgər namaz qılan şəxslə qılmayan şəxsin həyatını müqayisə etsək, görəcəyik ki, sonuncu hər bir çətinlikdə, müsibət və sınaqda karına gəlib imdad diləyəcək mühüm silahdan özünü məhrum etmişdir. Namaz qılan, təbii ki, doğru-dürüst namaz qılan şəxs isə yollar nə qədər qapqaranlıq olsa da, siması nur saçaraq ona istiqamət verəcəkdir. Sınaqlara nə qədər tuş gəlsə də, siz onun iri gözlərindəki rəhmət və təvazökarlığı, mülayimliyi görüb heyrətə qərq olacaqsınız. Namaz qılan və qılmayan şəxslərin üzünə baxdığınızda birincilərin gözlərində hey əks olunan rəhmət sezəcəksiniz. Namaz qılanların üzündəki səcdə əlamətindən bəhs edən ayə də bu mətləbdən xəbər verir:

"...Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir..." (əl-Fəth, 29).

Bu – doğrusunu Allah bilir, – bəzi insanların alnında gördüyünüz qara iz deyildir. Əgər belə olsaydı, onda ayədə "alınlarında olan səcdə izidir" sözü işlədilərdi. Ayədə nəzərdə tutulan şey üzdəki parlaqlıqdır, xoşagələn iman suyudur. Bu parlaqlıq ancaq namaz qılan şəxsin nəsibinə düşür. Mömin öz fərasəti ilə namaz qılan şəxslərin üzündəki bu əlaməti görə bilir.

Məqsəd və vaxtından asılı olmayaraq, bizə vacib edilən bütün ibadət növləri, əslində, özümüzü yenidən proqramlaşdırmaq üçündür.

Oruc nəfs "kompüter"imizə uzun müddətə yüklənən proqram olsa da, aktivlik müddəti çox çəkir. Onun yüklənməsi bütöv bir ay davam edir, amma aktivliyi bir ilə bəsdir. İl boyu "virus"larla ağırlaşmış şəhvətimizi,

şeytanın tovlamaları qarşısında insan oğlunun zəif nöqtəsi sayıla biləcək gözümüzü, doğrunu səhvlə, halalı haramla, yaxşını pislə, haqqı batillə qarışıq salmış dilimizi, daxilimizdəki mərhəmət, haqq, ədalət, xoşgümanlıq, qənaət, təvazökarlıq, səbir, xeyirxahlıq, şükür, toxumlarını öldürən müxtəlif şeytani xəstəliklərin bulaşdığı könlümüzü oruc sayəsində yenidən proqramlaşdırırıq.

Həcc haqqında da eyni şeyləri demək mümkündür. Amma həccin təsiri daha böyük və çox çəkəndir. Qəbul edilmiş həccin mükafatı cənnətdir. Allah kimin həccini qəbul edərsə, peyğəmbərimizin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dediyi kimi, günahlardan təmizlənib anadangəlmə olar.

Həyat şeytanlarının hücumları bir-birini əvəzlədikdə köməyimizə gündəlik namazların bir-birini əvəzləməsi gəlir: əvvəlcə, sübh namazını qılırsan, günorta namazını qılmaq üçün bir gündüzün yarısı qədər gözləyirsən. Amma növbəti möhlət daha qısadır. Gündüzün ikinci yarısının tən ortasında ikindi, axırında axşam namazını qılırsan. Axşam namazından bir saat və bir qədər çox sonra növbə yatsı namazına çatır. Daha sonra yatmağa gedirsən.

Bu, namazın özünəməxsusluğudur. Namaz vaxtlarının bir-birinə yaxın olmağı və gündə beş dəfə onu təkrar etməyimizin hikmətinə dair bəzi təxminlərdir bu dediklərimiz. Siz namaz kimi, dünyanın silah zavodlarından dəqiq nişan alıb atdığınız, hədəfi tam dəqiqliyi ilə vuran, sahibinə qələbə çalmağa zəmanət verən, gözlənilən nəticəni gerçəkləşdirən ikinci bir “silah” tapa bilərsinizmi?

# Namaz və həyat ritmi

İnsan qışda istilik, yayda sərinlik, xəstələndiyində dərman, acdığında yemək, susuz qaldıqda su, səs-küydə sakitlik, qorxduğunda əmin-amanlıq axtarır...

Əgər həyatın təkəri sürətlə fırlanırsa – elektron və avtomatlaşdırma əsrində bu təkər daha sürətlə fırlanır – və namazlarımız bizi həyat təkərinin dəmir dişlərindən qoruyan sığınacaq rolunu oynayırsa, onda namazın bizə təqdim etdiyi əks-təkər daha güclü, həm də aram və sakit olmalıdır.

Namazın ritmini yüksək templə həyat ritminə uyğunlaşdırmağın nə olduğunu heç təsəvvürünüzə gətirirsinizmi?

Belə olarsa, namaz, çox insanda olduğu kimi, həyatın mexaniki yüklərindən birinə çevriləcəkdir; bizdən əlavə vaxt, zəhmət, hərəkət və əsəb gərginliyi tələb etdiyi üçün, başqa mexaniki işlərdə olduğu kimi, ondan da yaxamızı tez qurtarmağa, onu ən qısa vaxt ərzində qılıb başa vurmağa çalışacağıq. Nəticə ürəkaçan olmadığından bu əlavə mexaniki "vəzifə"dən bəlkə də, birdəfəlik imtina etməyə cəhd göstərəcəyik, – indiki dövrdə bir çox müsəlmanın başına gələn də elə budur. Axı həyatımızda bu kimi "basırıq vəzifələr"ə yer yoxdur.

Bilirəm ki, başlanğıcda bizə heç də asan olmayacaq... Yavaşıya bilmərik axı... İşlər, vəzifələr, məsuliyyət, görüşlər, proqramlar, iclaslar, ziyarətlər, qarşılamalar, təhsil və qərarlar tökülüb qalıb bizi gözləyir axı!

Namaz "səma"sında uçmağa hazırlaşarkən bu cür düşünürüksə, namaz "gəmi"mizlə orbitə çıxa bilməyəcəyik; gəmimiz startdan əvvəl od tutub yanacaqdır:

"Qayıt namaz qıl, sən ki namazı qılmamışsan"[14].

Bu səbəbdən, namaz sözlərinin alçaq səslə deyildiyi gündüz namazlarındakı "gizlilik" günün bu aktiv hissəsində həyatın yüksələn ritmi ilə tərs mütənasiblik əmələ gətirir. Səs-küyün artması, günəş işığı və istiliyinin çoxalması, hərəkətin intensivləşməsi, iş və zəhmətin gərginləşməsi – bütün bunlar həyatın yüksələn ritmini təşkil edir.

Axşam namazına gəlincə, gecənin susqunluğu və sakitliyi, qaranlıq və "gizliliy"inə tərs mütənasib olmağı təbiidir. Hərəkətin "təkər"i yavaşıyır, işin tempi aşağı düşür, həyat "dəyirman"ı dayanır və biz yaranmış bu boşluğu müəyyən qədər doldurmaq, könlümüzün dərinliklərində yenidən balans yaratmaq, daxilimizdə həyat ritmi əmsalını qorumaq üçün namazımızı hündür səslə qılırıq. Bunu həm də ona görə edirik ki, yenidən ehtiyacın yarandığı bu zaman kəsiyində bizdə səs, hərəkət və forma tempi tənzimlənsin, psixoloji həmahənglik təmin edilsin.

Günümüzü yatsı namazı ilə başa vururuq. Bizi dörd uzun rükət gözləyir. Onların ikisini hündür səslə qılmağımız gecənin səssizliyi və "gizliliy"i ilə əkslik əmələ gətirir; sanki, gündüz geri qayıtmış və bizi səsimizlə doldurub, Allaha tərəf hayqırmağımız üçün lazımi "fəza" ilə təmin etmişdir. Sonra ikirükətlik sünnə namazı qılırıq. Bundan sonra bir və ya daha artıq rükəti olan vitr namazı gəlir. Sonuncunu bir, üç, beş və daha çox rükət qıla bilərik. Belə ixtiyarilik bir çox ibadət üçün səciyyəvidir. İxtiyarilik namazı uzatmaq üçün "elastik" rüsxəti ifadə edir. Gündüz "kir"inə bulaşdığını hiss etdiyindən qorxursan ki, gecə şeytanlarının səni tovla-

[14] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Buxari rəvayət etmişdir.

masına imkan yaranar, odur ki, namazını uzadır, güc və müdafiə əldə edirsən.

Göründüyü kimi, namazlarımızda "vacib"lər çoxaldıqca sünnələr də çoxalır və əksinə. Bu bizə hər namazdakı rükət sayının məişət vəziyyətimizin dəyişilməsi ilə mütənasib olduğunu müəyyən qədər izah edir. Həmçinin bu, gündüz və gecə, ötəri böhranlar zamanı Allahla rabitəyə olan ehtiyacımızın səviyyəsi ilə şərtləşir.

# Növbənövlük: ilk mədəni məktəb

Mənim kimi siz də özünüzə bu sualı vermişsinizmi: Nə üçün namazlarımız davamlılıq müddəti, rükətlərinin sayı, hərəkətləri və vaxtları, adları və növləri baxımından bu qədər cürbəcürdür? Nə üçün digər bir çox dinlərdə olduğu kimi, forması, vaxtı, davamlılıq müddəti baxımından eyni deyillər? Bu cürbəcürlük, "qəlizlik", "çətinlik", "qarışıqlıq" nə üçündür? Sübh, günorta, ikindi, axşam və yatsı namazlarında rükət sayı nəyə görə fərqlidir? Vacib, sünnə və vitr namazlarında, əvvəlki və sonrakı sünnə namazlarında, "müəkkəd" olan və olmayan sünnə namazlarında, gündüz və gecə qılınan namazlarda, qiraəti alçaq səslə və hündürdən oxunan namazlarda, camaatla və təkbaşına qılınan namazlarda nə üçün bu cür müxtəliflik vardır? Bu, mürəkkəb və yuxarı səviyyəli dərs materialını xatırladır. Namaz qılan şəxsdən namaz qılmağı bilməsi üçün bu materialı bütövlükdə mənimsəməsi tələb olunur. Bunda balacalar, savadsızlar, bacarıqsızlar, nadanlar üçün çətinləşdirmə yoxdur ki? Məgər islam oxumağı və yazmağı bacarmayan savadsız bir xalqa göndərilməyib?

Bu cür suallara cavab axtaran insan öz məhdud ağlı ilə Ali İlahi Hikməti qavraya bilməz. Amma müsəlman olduğumuza görə bizdən tələb olunur ki, Allahın bizim üçün murad etdiyi şeylərdəki hikmətlər haqqında fikirləşib mühakimə yürüdək, hamısını olmasa da, bəzisini aşkara çıxaraq.

Bizimlə birlikdə dünya da soruşur: Necə oldu ki, islam ərəbləri məktub oxumağa adam tapa bilmədiyimiz bir xalqdan dilçilik, qrammatika, lüğətşünaslıq, ritori-

ka (bəlağət), tənqid, təfsir, qiraət, hədisşünaslıq, fiqh, sirət, ricalşünaslıq, tarix, coğrafiya, fəlsəfə, məntiq, tibb, astronomiya, hesab, riyaziyyat... elmlərini təsis edən bir millətə çevirdi? Özü də bunu 60-90 ildən artıq olmayan bir müddət ərzində, həm də dövrümüzün kompüter inqilabında olduğu kimi rekord sürətlə etdi?

Bəşər tarixinin eynisinə şahidi olmadığı İslam sivilizasiyasının bu qədər heyrətamiz sürətlə meydana gəlməsində namazın rolu vardır.

Namaz hərəkətləri, qiraət formaları və üslubları, namaz vaxtları və formaları, rükət sayı və rükətlərin növlərindəki bu cür mürəkkəb müxtəliflik (cürbəcürlük) ilk məktəbdir. Bu məktəbdə biz uşaq beyninin hüceyrələrini çoxaltmaq, onu düşünməyə, əzbərləməyə, təhlil və icad etməyə, yaradıcılığa hazırlamaq üçün məşq edirik. Namaz elə məktəbdir ki, övladlarımızın beyni orada düşüncələrini tənzimləməyi, məsələləri təsnif etməyi, mövzuları qruplara ayırmağı, məlumatları təhlildən keçirməyi, bilik və mədəniyyət təsis etməyi öyrənir.

İslam bu cür təlim mexanizmi sayəsində o savadsızları (ərəbləri – ***mütərcim***) imperiya deyil, – çünki elə imperiyalar olmuşdur ki, ancaq savaşlar, işğal və qətliamlarla tarixə düşmüşdür (monqol-tatarlar və s.) – təfəkkür və mədəniyyətin, elm və əxlaqın bütövləşdiyi sivilizasiya nümayəndələrinə çevirmişdir.

Qərbdə uşaqlar məktəbə beş yaşında gedirlər. Əksər ərəb ölkələrində bu rəqəm altıdır. İslam məktəbinə gəlincə, uşaqların burada şagird olmağı üçün yeddi yaşına çatmaqları lazımdır. Bu o yaşdır ki, hədisdə bizdən məhz bu yaşda uşaqlara namaz qılmağı əmr etmək tələb olunub.

Belə cürbəcürlüyü olan namaz o mənaya gəlir ki, hər bir müsəlman erkən yaşlarda elm, təfəkkür, mədəniyyət və quruculuq məktəbinə getməlidir. Bu məktəb məsuliyyət, qavrama, əzbərləmə, hazırlaşma, iştirak, uğur, üstünlük və yaradıcılıq üçün planlaşdırma deməkdir. Bundan sonra savadsızlığa, nadanlığa, tənbəlliyə, süstlüyə, qətiyyətsizliyə, ənənəvi cəhalətə təslim olmağa yer yoxdur. Sən müsəlmansan, deməli, öyrənənsən. Sən müsəlmansan, deməli, mədənisən.

İslam məktəbində oxuyub öyrənməli və tətbiq etməli olduğun ilk fənn namaz fənnidir. Onun sayını, vaxtlarını, adlarını, formalarını, növlərini, hərəkət və sözlərini (surələri, dua və zikrləri), olar-olmazlarını, şərtlərini yadda saxlamağın lazımdır. Namaz dərslərini öyrənib məktəbdən məzun olduqdan sonra praktika keçməlisən ki, əsl müsəlmana çevriləsən. Amma bu gün məktəb və universitetlərimizdə bunun əksi baş verir: təlim-təhsil və öyrənmə praktikada sınaqdan keçirilmir, diplom ancaq iş və ruzi axtarmaq vasitəsi rolunu oynayır.

İslam məktəbində namaz fənni balaca müsəlmanı Quran (qiraət, təcvid və əzbər) və hədislə birlikdə başqa fənləri də öyrənməyə sövq edir. Məktəbli digər islam biliklərini öyrənməli, lazım gələnini qavrayıb yadda saxlamalı, əzbərləməlidir. Bu, həyat elmlərini mənimsəyib sirlərini aşkara çıxarmağın başlanğıcıdır.

Namaz müsəlman üçün mədəniyyət, elm və sivilizasiya deməkdir. Əks halda, namaz qılınan evdə yetişmiş tələbələrin namazsız ailələrdə böyüyüb boya-başa çatan tələbələrdən daha yaxşı oxumağı tendensiyasını nə ilə izah edəsən?

Amma namazdakı bu cürbəcürlüyün mədəni funksiyası ilə yanaşı başqa funksiyası da vardır: daxili mütilik (***xüşu***).

# Daxili itaətkarlıqda növbənövlüyün rolu

Təkrar, mexanikilik və yeknəsəqliyin olduğu hər şey bizdə zehni ayıqlığın itirilməsi, düşüncələrdən uzaqlaşma, dalğınlıq, bəlkə də, yuxu ilə nəticələnir.

Heç müşahidə etmişsinizmi: geniş və göz işlədikcə uzanan əsas yollarda avtomobilinizi idarə etdiyinizdə sizi süstlük, yorğunluq, ola bilsin, diqqətsizlik bürüyür: yolun yeknəsəq görünüşü dəyişilmir, eyni sürətlə hərəkət edirsiniz. Daxili mütiliyin, Allaha varmaq üçün namaza dalıb, ondakı mənalar haqqında düşünməyin ilk düşməni vərdiş və adətə təslim olmaq, bu ibadətdə bizə verilən imkanlarda dəyişiklikdən düzgün istifadə etməmək, bir-birini əvəz edən müxtəlif döngələri olan canlı, ikinci dərəcəli yollar əvəzinə donuq və darıxdırıcı ana yolla getməkdə israr göstərməkdir.

Beş vaxt namazdakı rükətlərin say müxtəlifliyi, vaxtlarının, oxunan dua və surələrin bir-birindən fərqlənməsi, bədənin müxtəlif vəziyyətlər alması, ayrı-ayrı hərəkətlər, fiziki hərəkətlərin dəyişilməsinə uyğun olaraq qiraətin də dəyişilməsi – bütün bunlar və sadalamadığımız digər növbənövlük təzahürləri bizi namazda dalğınlıq və diqqətsizlik ehtimallarından qoruyur, könlümüzü yeknəsəqlik və ətalətdən uzaq tutur, oxuduğumuzu daha şüurlu şəkildə oxumağımıza, daxilən daha çox mütilik göstərməyimizə, bu başlıca gündəlik ibadətimizi icra edərkən Allahla əlaqəni daha çox hiss etməyimizə səbəb olur. Bu ibadət beyin üçün əla praktik məşqdir, onu çoxlu dərslərə hazırlayır, bəşər mədəniyyətinin qurulmağa başlandığı platforma halına gətirir.

Belə nadir növbənövlüyü olan namaz dərsi asan dərs deyildir. İnsanın formalaşması, mədəniyyətlərin təsis edilməsi, dövlətlərin qurulması nə vaxtdan asan və adi iş sayılıb?!

Görəsən, dinimizin ikinci əsasındakı belə heyrətamiz növbənövlük və yeddi yaşına çatdığında müsəlman uşağın öyrənməli olduğu bu çətin dərs üzündənmi Allah Təala əziz peyğəmbərini öz dərgahına çağırmış, bu çətin və mühüm dərsi ona birbaşa öyrətmişdir? Halbuki islamın digər dərsləri ona dolayı yolla – mələk Cəbrayıl vasitəsilə öyrədilirdi.

Növbənövlük elastiklikdir, başqalarını qəbul etmək vasitəsidir. Peyğəmbər məktəbi bizə elastiklik və növbənövlüyə dair unudulmaz dərslər öyrətmişdir. Biz bu elastiklik və növbənövlüyə namazlarda, xüsusən nafilə namazlarında rast gəlirik. Əslində bu elastiklik islamın mö`tədil və tolerant təbiətini, dövr və mühitə uyğunlaşa bildiyini göstərir.

# Vəziyyət və hərəkətlərin əvəzlənməsi – nə üçün?

Namazdakı hərəkətlərin müxtəlifliyi boşu-boşuna deyildir. Əks halda, ya oturaraq, ya ayaqüstü duraraq, ya uzanaraq, ya da dirsəklənərək, xəstə və halsız şəxslərdə olduğu kimi, digər hərəkətlərə ehtiyac qalmadan namazımızı qılardıq.

Namaz hərəkətləri dəyişikliyi təmin edib, bizi təkrar, yeknəsəqlik və dalğınlıq təhlükəsindən qoruyur. Bununla belə özümüzə sual veririk: Namazda qiraət nəyə görə bədənin vəziyyətinə uyğun olaraq dəyişir? Nə üçün hər hərəkətə xas ayrıca qiraət mövcuddur? Nə üçün səcdədə deyil, məhz rükuda "subhənə rabbiyəl-azim" deyirik? Bəs nə üçün səcdədə "subhənə rabiyyəl-a`lə" deyilir? Nəyə görə ayaqüstə Quran mətnlərini, oturduqda isə hədis mətnlərini (ət-təhiyyətu lilləh...) oxuyuruq? Nə üçün və nə üçün?

Namazda vəziyyətimizin dəyişilməsi üz tutub danışdığımız rəbbimiz qarşısında ayıq-sayıq olmağımızı təmin edir. Sanki, qiraəti müşayiət edən bu dəyişkən vəziyyət oxuduqlarımızı qavramağımız, hərəkət və əməllərimizin də dodaqlarımızdan çıxanları təsdiqləməsi üçündür. Bununla da, sözümüz əməlimizlə bütövləşir və biz dediklərimizə tam yəqinliklə inanırıq.

Namaz hərəkətlərindəki ilahi hikməti bütünlükdə üzə çıxara bilməsək də, bu hərəkətlərə namazdakı hərəkət "cizgi"sini söz "cizgi"si ilə paralel tutmaq xasdır. Bu paralelik Allaha nə dərəcədə dürüst niyyət və səmimi qəlblə üz tutduğumuzun əsaslandırılması üçün mühümdür.

Namazda təkcə hərəkətlər deyil, həm də hərəkətsizliyimiz başqalarının diqqətini çəkir. Namaz boyu qiblə istiqamətində dayanmağımız, davamlı şəkildə səcdə yerinə baxmağımız, sağa-sola boylanmamaq üçün təmkin göstərməyimiz, səbəb nə olursa olsun, namaz vaxtı bizimlə danışan şəxsə nəzər yetirməyib cavab verməməyimiz, qiblə ilə aramızdakı boşluğu heç kəsə keçmək icazəsi vermədiyimiz "qadağan zonası"na çevirməyimiz – bütün bunlar ətrafımızdakı insanlar üçün gözlənilməzdir. Nəticədə, onlar fərqinə varırlar ki, biz namazda xüsusi vəziyyət içərisindəyik, başqalarının və dünya işlərinin müdaxiləsinə yol vermədiyimiz vəziyyət içərisində!

# Azan və on möcüzəsi

Allahu Əkbər! Allahu Əkbər! Allahu Əkbər! Allahu Əkbər!

Əşhədu əllə iləhə illəllah! Əşhədu əllə iləhə illəllah!

Əşhədu ənnə Muhəmmədən rasulullah! Əşhədu ənnə Muhəmmədən rasulullah!

Həyyə aləzzəkət! Həyyə aləzzəkət!..

Bundan əvvəl bu cür azan eşitmişsinizmi? Mən də eşitməmişəm... Bu azan sözlərini mən kəşf etmişəm. Məqsəd özümü və sizi Bilalın ilk dəfə oxuduğu azan sözləri haqqında bizi düşünməkdən məhrum edən vərdiş və adətkərdəlik yarğanından dartıb çıxarmaqdır.

Azan, eləcə də iqamə ifrat adətkərdəliyin qurbanına çevrilmişdir. Halbuki məzmun və formalarında elə möcüzələr var ki! Biz bu möcüzələrin, ən azından, onunu sizə açıb göstərməyə çalışacağıq. İnsan zəkasının, ən azından, şəxsi bacarığın edə bildiyidir bu.

***Birinci.*** Heç özümüzə belə bir sual vermişikmi: İslamın beş əsasından nə üçün məhz namazdan əvvəl bu cür "elan" verilir? Azan islamın bu mühüm əsasını – namazı icra etməzdən əvvəl elan etdiyimiz səsli çağırış deyildirmi? Nə üçün oruc üçün azan vermirik?

Nəyə görə namaz üçün iqamə verir, amma oruc və zəkat üçün yuxarıda göstərdiyim şəkildə azan və ya iqamə vermirik?

Təxminlərimiz bu işdəki ilahi hikməti izah edə bilmir. Amma ilk baxışdan sezə bilirik ki, azanın çağırış funksiyası vardır. Yəni, azan namaz qılan şəxsə xatırladır ki, vacib namaz insanın başqalarından təcrid olunaraq icra etdiyi fərdi əməl deyildir; əksinə, birinci dərəcədə,

kollektiv, müştərək və ümumi işdir. Və azan namaza kollektivlik bəxş edir, bu "müştərək iş"in icraçılarını toplaşıb eyni yerdə və vaxtda, bir şəxsin arxasında namaz qılmağa çağırır. Azan təsdiqləyir ki, namazın rolu bəndəni Allahla əlaqələndirməklə məhdudlaşmır, həm də Məhəmməd ümmətinin üzvlərinin toplaşması və çiyin-çiyinə verməsini, bir-birini başa düşüb sevməsini təmin edir. Bu səbəbdən sünnə və ya nafilə namazlar üçün azan, yaxud iqamə tələb olunmur. Çünki bu namazlar adətən təkbaşına qılınır.

Bu namazın mədəni tərəfidir. Biz bu barədə "Camaat namazı mədəniyyətin sirridir" paraqrafında ətraflı danışacağıq.

***İkinci.*** Azan və iqamənin yaranma tarixçəsi çox maraqlıdır. Bu tarixçə azan və iqaməni vəhy dərəcəsinə yaxınlaşdırmışdır, amma vasitə və şəxslərin müxtəlifliyinə görə vəhy deyildir. Vasitə olaraq azan və iqamənin sözləri ayıqlıqda deyil, yuxuda tapılmışdır. Özü də bu yuxunu Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyil, səhabələr görmüşdür.

Bir gecədə iki səhabə eyni məzmunlu yuxu görmüşdür. Hər ikisinin yuxuda eşitdiyi azan sözləri eyni idi. Amma bu əhvalatda ən mühüm və daha çox diqqət çəkən məqam budur ki, həmin iki səhabədən biri ikinci Raşidi xəlifə Ömər ibn əl-Xəttab *(Allah ondan razı qalsın!)* idi.

Azanın yaranma tarixçəsinin bu cür məxsusiliyi namazın meydana gəlməsindəki əsrarəngizliyə uyğundur. Belə ki islam Quran və Sünnə olaraq vəhy yolu ilə nazil olmuşdur. Namaz müstəsnadır. Peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* namazı Aləmlərin rəbbi Allahdan bütün təfsilatı ilə təhvil almaq üçün müqəddəs və xüsusi dəvətlə səmaya səfər etmişdir. Amma Allah namazla əlaqəli azanı ona səmada təslim etməmişdir.

Azan Etibarlı Peyğəmbərə Allah tərəfindən səhabə yolu ilə ötürülmüşdür.

***Üçüncü.*** Azan mahiyyət və məzmunu etibarı ilə qısa hazırlıq namazı olub, möminləri sonrakı böyük namaza hazırlayır. Uşaq dünyaya gəldikdə qulağına azan oxumaq sünnədir; biz körpəni sanki bu qısa hazırlıq namazı ilə ömrü boyu davam edəcək böyük namaza hazırlayırıq. Azan hər yeni doğulmuş uşağın qulağına bu sözləri pıçıldayır: "Ey insan, həyata gəldin, elə isə bu həyatdan getdiyində kəsiləcək namaza, ibadət və mənəvi rabitəyə başla. Həmin vaxt sən Allahla uzun axirət səfərinə çıxacaqsan və bu səfər dünya səfərindən çox çəkəcəkdir".

Həyatımız bütün xırdalıqları ilə, bir növ, namazı xatırladır, amma üsul və vasitələr fərqlidir. Quranda deyilir ki, beşikdən qəbirədək bütün həyatımız Allaha etdiyimiz ibadətdən başqa bir şey deyildir:

"Mən insanları və cinləri ancaq mənə ibadət etsinlər deyə yaratmışam" (əz-Zariyat, 56).

Sən oxuyub təhsil alırsan, deməli, namazdasan; özün və ailənin qayğısına qalmaq üçün işləyirsən, deməli, namazdasan; namaz qılır, insanlara və cəmiyyətə xidmət edirsən; yaşamaq və güclənmək üçün yeyirsən, namaz qılırsan; namaz qılır və sağlamlığının qeydinə qalırsan... Həyatımız A-dan Z-yə qədər ibadət və namaz deməkdir.

Azanın sözlərinə diqqət yetirsən, onun səni müfəssəl namaza hazırlayan müxtəsər namazdan ibarət olduğunu görəcəksən.

***Dördüncü.*** Fərz et ki, ömründə heç azan eşitməyibsən və "Allahu Əkbər" sözünü ilk dəfədir eşidirsən. Əslində, bu söz azandan daha qədimdir; müsəlmanlar onunla Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* namazı Allah-

dan təhvil aldığı Merac gecəsində tanış olmuşdular. Bu ifadənin mənası və qrammatik forması haqqında düşün. O, sintaktik baxımdan tamamlanmamış birləşmədir. Bununla da, o, xəyalən və real olaraq təsəvvürünə gətirdiyin bütün ehtimallara açıqdır: Allah böyükdür! Nədən? Məni Ondan yayındıran dünyadan böyükdür, əlimdə tutduğum bu pullardan böyükdür, həyatın mənə gətirdiyi qəm-qüssədən böyükdür, üzüzə gəldiyim düşməndən böyükdür, mənə zülm edən qoluzorlulardan, azğınlardan böyükdür və sair.

"Allahu Əkbər" azanı xülasə edən ifadə olub, islama xas bu heyrətamiz çağırışın əsasını əmələ gətirir. Bir sözlə, azan islamı yığcam ifadə edən ibarədir. Biz müsəlmanıq, çünki təslimçiliyimizi, itaətkarlığımızı car çəkir, təslim və tabe olduğumuz, hər şeydən böyük Allahın mövcudluğunu etiraf edirik. "Allahu Əkbər" islamın yığcam ifadəsidir (Allahu Əkbər = islam).

***Beşinci.*** Azanın qrammatik üslubu o dövrdə yaşayan ərəblər və qeyri-ərəblər üçün yeni idi. Azan indiki dövrdə cümlə və ifadələrimiz arasında işlətdiyimiz əlaqələndirici komponentlərin (və, doğrudan da, artıq və s.) birləşdirmədiyi ayrı-ayrı cümlələrdən ibarətdir. Bu bizə mobil telefonlarımız vasitəsilə bir-birimizə ötürdüyümüz mesajların üslubunu xatırlatmır ki?! Azan bu qısa, birbaşa və aydın sözlərlə yeni çağırışın mahiyyətini uğrunda bütlərini və ənənəvi inanclarını tərk etmiş ərəblər üçün yığcamlaşdırmışdır.

***Altıncı.*** Ən heyrətamiz olanı budur ki, qısa namaz (azan) özünün aydın qrammatik üslubu sayəsində böyük namazın ən mühüm komponenti ilə – "Fatihə" ilə həmahənglik əmələ gətirir. Qısa və aydın ifadələrdən ibarət "Fatihə" surəsində də müasir ərəb dilində cümlələr arasında işlədilən bağlayıcılardan istifadə olunmayıb.

Fikrimcə, məsələ adi bəşər dilinə həvalə olunsaydı, "Fatihə"nin dili aşağıdakı kimi olardı:

"Aləmlərin rəbbi", "Mərhəmətli və Rəhimli", "Din gününün sahibi" **olan** "Allaha şükür olsun" – **deməklə (Ona sarı) ucalırıq: Budur, ey rəbbimiz, gəlmişik və təsdiqləyirik ki:** "Ancaq Sənə ibadət edir və (hər bir işimizdə) ancaq Səndən kömək istəyirik". **Sənə üz tutmuşuq və sənə yalvarırıq ki:** "Bizi doğru yola yönəlt"[15].

***Yeddinci.*** İbadətlərimiz arasındakı yerinə görə azanın öz ədəb-ərkanı vardır. Məsələn, biz Peyğəmbərin sünnəsinə uyğun olaraq, azan sözlərini müəzzindən sonra təkrarlayırıq.

İnteraktiv kompüter sistemləri və müasir digər qurğular, cihazlar haqqında eşitmişik. Bundan on dörd əsr, yəni hələ insanla ətraf mühit arasında interaktiv sistem və ya kompüter kəşf edilməzdən əvvəl Peyğəmbərin təsis etdiyi kimi, bizimlə azanın əlaqəsi gedib-qayıdan dalğaların interaktiv əlaqəsini xatırladır. Müəzzinin ağzından çıxan ifadələri təkrarlamaq eyni sədalı ifadələr yaradır.

***Səkkizinci.*** Azan və namaz arasındakı bu heyrətamiz linqvistik harmoniyanın göstəricilərindən biri də hər bir azan ibarəsinin iki dəfə təkrarlanmasının yaratdığı ikili linqvistik tərkibdir. Bu ikilik, hər şeydən əvvəl, azanın özünəməxsus linqvistik identikliyini gücləndirir. Heyrətamizdir ki, bu ikilik namazın ümumi strukturu ilə azan arasındakı harmoniyaya harmoniya qatır.

"İki" rəqəmi islamın ibadət sistemində geniş istifadə olunmur. İbadət və zikrlərdə adətən "üç", "yeddi", "on", "iyirmi yeddi", "otuz üç", "doxsan doqquz", "yüz" sayları

[15] Yuxarıda qalın şriftlə verilmiş sözlər "Fatihə" surəsinin ərəbcə mətnində mövcud deyildir – ***tərcüməçinin qeydi.***

yayılmışdır. Amma azan ifadələri iki dəfə təkrar edilir. Azan bu ikilik sayəsində "ehram" təkbiri gətirərkən hər iki əlimizi qaldırdığımız, hər iki rükətdən sonra oturduğumuz, hər rükətdə iki dəfə səcdəyə getdiyimiz, namazın axırında iki dəfə salam verdiyimiz vaxt namazımızın quruluşu ilə harmoniya yaradır. Bir daha deyirik: azan sözlərini təkrarlamaqla uca real səslə qısa namazı təkrarlamış oluruq.

***Doqquzuncu.*** Azandakı ifadələr, heç fikir vermişsinizmi, neytral dil vahidləri olub, müəyyən əvəzliklə, birinci, ikinci və üçüncü şəxslərdə, tək və cəmdə işlədilmir. Amma kəlmeyi-şəhadət istisnadır. Çünki kəlmeyi-şəhadətdə fərdi məsuliyyət ifadə olunub və birinci şəxsin dili ilə təkrar edildiyi üçün məsuliyyət təsdiqlənmiş olur. Hətta "həyyə" (tələsmək) feli tək və cəm, müzəkkər və müənnəs əvəzliyə aid deyildir. Bu cür neytral linqvistik üslub nadir dil hadisəsi olub, adətən, zikr və salavatların dilinə xasdır. Lakin o özünün bu neytrallığı ilə namazın sütunu sayılan "Fatihə" surəsinin üslubuna uyğundur. "Fatihə" surəsinin ilk yarısına bu cür nadir üslub xas deyildirmi? Belə ki həmin ilk yarıda qrammatik zaman yoxdur, danışıb yazarkən tez-tez müraciət etdiyimiz üç əvəzlik heç işlədilməmişdir.

***Onuncu.*** Bəlkə də, bəzilərimiz namaza verdiyi diqqəti azana vermir və onu ikinci dərəcəli iş hesab edir. Bu üzdən namazdan qabaq azan verməyə laqeyd yanaşırlar. Amma öz missiyasını doğru-dürüst icra edən, bizi əziz tutan, Quranda "möminlərə qarşı şəfqəti və rəhmdil" olaraq təsvir edilən peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* başqa şey deyir:

“Azan verməyən və (camaat) namazı qılmayan elə üç nəfər yoxdur ki, şeytan onları özünə tabe etməsin”[16].

Abdullah ibn Əbdürrəhman ibn əbu Sə`səə rəvayət edir ki, atasına Əbu Səid əl-Xudri deyibmiş: “Görürəm ki, qoyunları və səhranı çox xoşlayırsan. Qoyunlarınla və ya səhranda olduğunda namaz üçün azan versən, uca səslə azan ver. Müəzzinin səsini eşidən elə bir insan, cin və ya başqa şey yoxdur ki, Qiyamət günü buna şahidlik etməsin”[17].

Əgər azan sadəcə xəbərdarlıq vasitəsidirsə, onda qoyun və səhranın, cansız əşyaların ona nə ehtiyacı var?! Onların yanında azan verməyən şəxsi şeytan özünə necə tabe edir? Peyğəmbərin bu mübarək göstərişləri ilk müsəlmanlar üçün çıraq olmuş, onlara ibadət həyatında azan və iqamənin oynadığı rolun əhəmiyyətini öyrətmişdir. Sən də bu ibadəti əlindən qaçırma.

Bu gün məndən soruşsalar ki, namazın neçə forması var, cavab verərəm ki, gizli, aşkar və uca səslə oxunan üç namaz vardır. Sonuncu ilə azanı nəzərdə tuturam. Bu üç namazın hər birinin həyatımızı tənzimləmədə, işlərimizi yaxşılaşdırmada öz fərqli və mühüm rolu vardır.

Azan yığcam investisiya layihəsi olub nəhəng, kollektivçi investisiya layihəsinə – namaza zəmin hazırlayır.

---

[16] Hədisi Əbu Dərdaya istinadən İmam Əhməd rəvayət etmişdir.
[17] Hədisi İmam Buxari rəvayət etmişdir.

# İki dəstəmaz

“Çətin olmasaydı, ümmətimə hər namaz vaxtı dəstəmaz almağı, hər dəstəmazla yanaşı misvakla dişləri təmizləməyi əmr edərdim”[18].

Bu hədislə əlaqədar olaraq, özümə sual verirəm ki, nə üçün hər namazda? Madam ki dəstəmazlı və təmizik – bu Sünnədəndir – bəs nə üçün Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yenidən dəstəmaz almağımızı təmənna edir? Əgər bir də dəstəmaz alsaq, suyu israf etmərikmi? Nə fikirləşirsən? Bu tövsiyə böyük göllər və ya Niaqara şəlaləsi ölkəsində deyil, suyun nadirən tapıldığı səhrada edilmişdir.

Hər üç müqəddəs kitabı oxumuş, hədis mənbələri ilə tanış olmuşam. İslam qədər etiqadı, ibadət və mədəniyyəti təmizliklə, qüsl və dəstəmazla birlikdə götürən ikinci dinə rast gəlməmişəm. Heç bir peyğəmbər Həzrəti Məhəmməddə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* olduğu kimi, öz xalqına təmizliyi, bəzənməyi, görünüşdə gözəl olmağı tövsiyə etməmişdir. Amma müsəlmanlar hara, islamın təlimlərinə əməl etmək hara?!

Təkrar dəstəmaz almağa təkid təkcə ona görə deyildir ki, təmizlik sağlamlıq və mədənilikdir – bu, şəriətin məqsədlərindən biridir; əksinə, ona görədir ki, bu yerdə dəstəmazla ifadə edilən təmizlik həm də daxili – mənəvi təmizliklə əlaqəlidir. Sənin xarici təmizliyin, əvvəl-axır, daxili təmizliyinin səmərəsi və inikasıdır.

[18] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Əhməd rəvayət etmişdir. Əlbaniyə görə hədis səhihdir.

Bəli, daxili paklığın xarici təmizliyində öz əksini tapmalıdır (bəzi məzhəblərə görə qeybət dəstəmazı pozur[19]).

Bu məntiqə əsasən deyə bilərik ki, iki növ dəstəmaz vardır: daxili və xarici. Birincisi daha mühümdür; o olmazsa, ikincisinin faydası yoxdur. Natəmizlik çalasında boğulan necə dəstəmaz ala bilər? Xarici əzalarını təmizləyərkən əmin olmalısan ki, daxili əzalarını da təmizləmişsən. İkincisi su və ya təyəmmümlə baş vermir; bunun üçün daxilində toplanmış nəfs kirlərindən: həsəd və paxıllıqdan, qəzəb və qeybətdən, təkəbbür və yalandan, fırıldaq və nankorluqdan, acıdillikdən, bədgümanlıq və asilikdən... təmizlənməlisən.

Bu kirlərdən, heç olmazsa, mərhələlər üzrə təmizlənmək üçün səmimi qəlbdən niyyət et. Səmimi olsan, üzünü, qəlbini, ruhunu, sözlərini Allah üçün xilas edəcəksən. O Allah ki, qarşısında dayanıb səslənirsən qəbul edir, kömək istəyirsən eşidir, bağışlanma diləyirsən, bağışlayır.

Bir şəxs Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanına gəlib dedi: "Filankəs gecələri namaz qılır, amma səhər olduğunda oğurluq edir." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurdu: "Dedikləri (namazı) onu ondan (oğurluqdan) çəkindirəcəkdir"[20].

"Bir gün Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!* – səhabələrindən) soruşdu:

– Müflis kimdir, bilirsinizmi?

(Səhabələr:)

– Bizcə, müflis pulu və malı olmayandır, – deyə cavab verdilər.

---

[19] Yəni, mənəvi kirlik xarici təmizliyi korlayır – ***tərcüməçinin qeydi.***

[20] Hədis Əbu Hüreyrəyə istinadla "Mişkat əl-məsabih" kitabında mövcuddur. Əlbaniyə görə səhihdir.

Peyğəmbər dedi:

– Ümmətimdən müflis o kəsdir ki, Qiyamət günü namazla, zəkat və orucla gələr. Gəlməyinə gələr, amma ona-buna söymüş, iftira atmış, başqasının malını qəsb etmiş, kiminsə qanını tökmüş, kiməsə də əl qaldırmışdır. Odur ki yaxşı əməllərindən ona-buna verilər. Mühakiməsi başa çatmadan yaxşı əməlləri qurtararsa, haqq sahiblərinin günahları ilə yüklənər, sonra da cəhənnəmə vasil edilər[21].

Gör aramızda nə qədər müflis var. Əksər insanın əməlləri ilə ibadəti çoxdan bir-birindən üzülüşüb. Onları rüku edib səcdəyə gedən görərsən, alınlarında da səcdə izi vardır. Amma elə ki onlarla ünsiyyətdə oldun, əməlləri və davranışlarında eyni izə rast gəlməyəcəksən.

"...Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər..." (əl-Ənkəbut, 45).

Müsəlmanlardakı ibadətlə əməlin qopuqluğu təmayülü dünyada islamın həqiqi məzmununu təhrif edən ən təhlükəli məsələyə çevrilmişdir. Vəhyi insanlara çatdıran Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Quranı Quran əsasında ömür sürməkdən ayrı tutmamışdır.

Əbu Əbdürrəhman əs-Süləmi rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Osmana, İbn Məsud və Übeyy ibn Kə`bə hər dəfə on ayə oxuduqda onlar bu ayələrdə göstərilənlərə əməl etmədikcə digər ayələrə keçməzdilər: "Biz Quranı və əməli birlikdə öyrənmişik"[22].

Digər dinlərdə olmayan islam ayinlərinin əzəmətini hiss etməyimizi korşaldan öldürücü vərdiş bizə ha-

---

[21] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Müslim rəvayət etmişdir.

[22] Qürtubi təfsiri, I cild, səh. 39.

kim kəsildimi, ibadətlərimizi, namazımızı yenidən kəşf etməliyik.

İlk dəfə eşidir və edirmiş kimi dəstəmaz almağı təcrübədən keçirmişsənmi? Bunu təcrübədən keçir və özündən soruş: nəyi kəşf etdim? Əgər bir az fikirləşsən, kəşf edəcəksən ki, dəstəmaz da mahiyyət etibarı ilə namaz kimidir, həyatın nizamıdır.

Əvvəla, o təmizlikdir, – bununla ziyalılar seçilib tanınırlar. İkincisi, qayğı, dəqiqlik və davamiyyətdir, – bununla uğurlular seçilib tanınırlar. Üçüncüsü, nizam-intizamdır, səliqə-sahmandır, görüşə riayətdir, şərtlərə əməldir, – bununla mədəni insanlar seçilib tanınarlar. Dördüncüsü, beşincisi, ...onuncusu, özünüyoxlamadır, iki dəstəmaz arası fasilədə bulaşmış həyat kirlərindən nəfsi təmizləməkdir, – bununla möminlər mömin olmayanlardan, müttəqilər də müttəqi olmayanlardan, Allahı tanıyanlar tanımayanlardan fərqlənirlər. Hətta birincilərin simaları ikincilərinkindən seçilir. Yəni, dəstəmaz alanların çöhrəsində müşahidə etdiyimiz "əlamətlər" dəstəmaz almayanlarda olmur.

Bu vəziyyətdə təyəmmüm qəlbə göndərilən elektron mesajı xatırladır: ey qəlb, Allahla görüşə hazırlaş, bu görüşə əngəl olacaq hər şeydən xilas ol. Allah ki səndə gizli olan hər şeydən xəbərdardır. O, aşkar olanı da, gizlini də biləndir! Dəstəmaz da bu mənada qəlbə eyni göstəriş və eyhamları fərqli formada daşıyan məktuba oxşayır.

Ərəb dilində "dəstəmaz" sözü (vuduun) "işıq" sözündən (dəv`un) törəmişdir. Çünki dəstəmaz qəlbə və üzə işıq saçır. Üzdəki işıq daxili, yəni nəfs və qəlb işığının inikasıdır.

Çalış həmişə dəstəmazlı ol. Dəstəmazlı ikən işinə getdiyində, sanki, havada uçduğunu hiss edəcəksən; in-

sanlara salam verdiyində, elə biləcəksən ki, mələklərlə əl verib görüşürsən; bir işlə məşğul olduğunda hiss edəcəksən ki, uğur qazanacağına inanırsan; başını yastığa qoyduğunda hiss edəcəksən ki, sanki, əmanəti layiqi ilə yerinə yetirib Bağışlayan, Rəhimli Allahın hüzuruna çıxmaq üçün son nəfəsini verirsən.

# Camaat namazı: mədəniyyətdəki sirr

Özünüzə nə vaxt isə bu sualı vermişsinizmi: "Mədəniyyət nədir? O, cihazdırmı, zavoddurmu, kompüterdirmi, raketdirmi, dəniz və ya hava donanmasıdırmı, kosmik gəmidirmi, nüvə bombasıdırmı?" Bütün bunlar mədəniyyətin səmərəsidir, amma mədəniyyət özü aşağıdakı "toxum"lardan ibarətdir: təmizlik, dəqiqlik, ustalıq, görüşlərə əməl etmək, sistemləşdirmə, nizam-intizam, dürüstlük və etibarlılıq, komanda işi, tolerantlıq, təvazökarlıq və başqalarını qəbul etmək, ixtisaslaşma, fərdi məsuliyyət, səbir, cəfakeşlik, əzmkarlıq, ədalət və bərabərlik.

Bir dəfə də olsun, özünüzdən soruşmuşsunuzmu: "Camaat namazı nə üçündür? Nəyə görə gündə beş dəfə evimizdən, dükanımızdan, iş yerimizdən namaz qılmaq üçün çıxırıq? Hətta vaxtında çıxmalıyıq ki, gecikməyək, camaat namazını qaçırmayaq". Mənim kimi siz də öz-özünüzə soruşubsunuzmu ki, nə üçün hər dəfə məscidə gedəndə bəzənib-düzənirik? Nə üçün əvvəlcədən təmizlənirik? Nə üçün dəstəmaz alırıq? Görəsən, məsələ təkcə Allahın evinə ehtiram və Onun qarşısında dayanmağımızı təmin edən təmizlik məsələsidirmi? Yoxsa, məsələ paklıq və təmizliyin, bəzənib-düzənməyin, ardıcıllığın dini funksiyaları ilə yanaşı, mədəni funksiyaları ilə əlaqəlidir?

Görüşlərə gecikməmək məsələsinə gəlincə, camaat namazı müsəlman fərdi mədəniyyət məşəlini daşımağa hazırlayan ən yaxşı məktəbdir. Camaat namazına sadəcə beş dəqiqə gecikmək o deməkdir ki, onu əldən

vermişsən və ondakı savabı tələb etməyə hüququn qalmamışdır. Hər dəfəsində beş kərə təkrarlanan bu dərs kifayətdir ki, müsəlman olanlardan ibrət götürsün, dəqiqənin qiymətini bilsin, başqaları ilə görüşlərə vaxtında gəlmədikdə nələri itirəcəyinin fərqinə varsın.

Hələ gənc yaşlarımda ustadım Əlbani ilə *(Allah rəhmət etsin!)* mübahisəm düşmüşdü. Eyni məsciddə bir namazı bir neçə dəfə camaatla qılmağın icazəli olmağı fikrini müdafiə edirdim. Demişdim: "Gecikənlərə nə üçün də imam seçib ikinci bir camaatla namaz qılmaq icazəsi verilməsin? Eyni şeyi üçüncü, dördüncü... camaat üçün də demək mümkündür...".

Ustad Əlbani rəsmi imamı olan məsciddə bir namazın bir neçə camaatla qılınmağını qəti şəkildə rədd edirdi. Təəssüf ki, həmin vaxt bunun hikmətini dərk edə bilməmişdim. Sonralar başa düşdüm ki, bir məsciddə bir neçə camaatla namaz qılmaq məscid xaricində bir neçə camaata, cərəyana, qrupa bölünmənin, qəlblərin ixtilafının ifadəsidir. Bir camaatla namaz qılmaq eyni vaxta, eyni qəlbə, eyni cərgəyə, eyni ümmətə davamlı və praktik şəkildə əməl etməkdir.

Paklıq, təmizlik və bəzənib-düzənmək bizi məscidə daxil olmağa, Allahın hüzurunda dayanmağa hazırlayır. Bütün bunlar, keçmişdə olduğu kimi, bizi cəhalət girdabından, savadsızlıq zülmətindən, əbəs kirlərdən, gecikmə, laqeydlik və biveclik özbaşınalığından xilas edib mədəniyyət bağçasına daxil edir. Bu bağçanın qapıları təkcə paltar və bədənlərində deyil, həm də məscidlərində, evləri və ofislərində, məktəb və xəstəxanalarında, küçələrində – bir sözlə, həyatın bütün sahələrində mədəniliyin başlıca şərtlərinə: təmizlik, xoş görünüş, səliqə-sahmana əməl etməyənlərin üzünə bağlıdır.

Budur indi məsciddəyik. İslamın ibadət evlərinə verdiyi bu yeni ad – məscid (hərf. səcdəyə gedilən yer) hey bizə bəndənin rəbbinə ən yaxın olduğu vəziyyəti – səcdəni xatırladır. Səcdə başın, alın və burunun torpaq səviyyəsində olmağı deməkdir. Səcdə əyilmə və bükülmənin ən son həddidir; başın nə qədər çox əyilsə, Allah üçün torpağa düşüb nə qədər çox kiçilsən, bir o qədər Ona yaxınlaşarsan, dərəcən də bir o qədər artar.

Möminlər gündəlik olaraq Allah qarşısında gecə-gündüz hər bir-iki saatdan bir bu cür təvazökarlıq göstərdiklərində, yəni Uca Rəbbin buyurduğu kimi, "Ona ibadət etməyi özlərinə ar bilmədiklərində" təvazökarlıq, – təbii ki, namazlarını daxili mütiliklə qılsalar – şəxsi davranışa çevrilər, təkəbbür və ixtilafa yer qalmaz. Onlar Allah Təalanın təsvir etdiyi kimidirlər: "Onlar möminlərə qarşı mülayimdirlər" (əl-Maidə, 54). Bu cür bəndələr haqqında Allah Təala peyğəmbərinə buyurmuşdur: "...möminləri qanadın altına al (iman gətirənlərə qarşı təvazökar olub yumşaq davran)" (əl-Hicr, 88). Belə olduqda biz mədəniyyətin regional sularına daxil olmaq üçün ilk addımımızı atmış oluruq.

Məscidə daxil olduğumuzda xatırlayırıq ki, səcdə məktəbinə, deməli, təvazökarlıq, itaət, sınıb-bükülmə, mülayimlik məktəbinə daxil olmuşuq! Həmçinin bizi bir yerə toplayan, barışdıran, qəlblərimizi birləşdirən, daxilimizdəki kin və nifrəti yox edən məkana qədəm basmışıq! Burada bütün müxtəlifliklər, kin-küdurət yox olur, böyüklər və kiçiklər, güclülər və zəiflər, hakimlər və məmurlar, varlılar və kasıblar, zalımlar və məzlumlar eyni cərgədə dayanır.

"(Namazda) cərgə-cərgə dayanın. Mələklər (Allahın hüzurunda) necə cərgədə dayanırsa, siz də elə dayanın. Çiyinlərinizi yanaşı tutun, boş yer buraxmayın, (cərgəni

düzəltmək üçün) əlinizdən çəkən qardaşlarınızla mehriban davranın, şeytan üçün boş yer buraxmayın. Kim cərgəni birləşdirərsə, Allah da onu (lütfünə) qovuşdurar; yox, yarımçıq buraxıb kəsərsə, Allah da onu kəsib atar”[23].

Bu hədisi çox eşitmişik, çox yerdə oxumuşuq. Bəlkə də, hər cümə xütbəsində, namaza başlayarkən məscid imamı bu hədisi bizə xatırlatmışdır. Amma aramızda, görəsən, kim bu hədisin hər sözü barəsində fikirləşib, məzmununa səyahət edib. Əgər belə olsaydı, bilərdik ki, hədis cərgələrin düzəldilməsinə dair adi qaydanı ifadə etmir; əksinə, o, nəfsləri düzəltmənin düsturudur, kimsənin təşəxxüs satmadığı bərabər mədəni cəmiyyət qurmanın nizamnaməsidir.

“Cərgə-cərgə dayanın. ...Çiyinlərinizi yanaşı tutun”. Nə üçün? Cərgədə dayanıb çiyinləri yanaşı tutmağa nə səbəbdən bu qədər əhəmiyyət verilir? Cavab sadədir: çünki mədəniyyət bundan başlanır. Bu, mədəniyyət “toxumlar”ından biridir.

***Əvvəla***, sən öz əksini namazda tapmış kollektiv görüşə dəvət edilmişsən. Çünki mədəniyyət fərdi deyil, kollektiv (camaat) iş olub, komanda ruhunu hiss etmək, xudbinlikdən əl çəkməkdir. Mədəniyyət, hər şeydən əvvəl, kollektiv deməkdir.

***İkincisi,*** sən gündə bir deyil, beş dəfə qardaşlarınla görüşə dəvət edilmişsən. Belə olanda dəqiqlik, iltizam, görüşə vaxtında gəlmək imtina edə bilməyəcəyin xüsusiyyətə çevriləcəkdir. Mədəniyyət dəqiqlikdir, özümüzün, başqalarının vaxtına riayət və hörmət etməkdir.

***Üçüncüsü,*** sən camaatın digər fərdləri ilə görüşdə səfləri birləşdirməyə dəvət edilmişsən. Çünki səf bağ-

[23] Hədisi Abdullah ibn Əmrə rəvayət etmişdir. Əlbaniyə görə səhihdir.

lamağınızdakı səliqə-sahman və nizam-intizam hiss və düşüncələrinizdəki səliqə-sahmanın, nizam-intizamın, işinizdəki bacarığın, könüllərinizin bir olmağının ifadəsidir. Bütün bunlardan əməkdaşlığa əsaslanan mükəmməl, uğurlu mədəni cəmiyyət meydana çıxır. Çünki mədəniyyət kollektiv əməkdir, inteqrasiyadır (bütövləşmədir), nizam-intizamdır, səliqə-sahmandır, ustalıqdır, səbirdir, təvazökarlıqdır, tolerantlıqdır, başqalarını qəbul etməkdir, yollar, məqsədlər, könüllər və ruhların kəsişməsidir. Üçüncü, dördüncü, beşinci, ...onuncu.

Allah və peyğəmbəri bu qaydanın zəifliyimiz, süstlüyümüz və digər mənəvi xəstəliklərimizin əlində oyuncağa çevrilməsini istəmir. Bu qayda birbaşa səma ilə əlaqəlidir. Buna görə də aramızdan kimsə ondan imtina etmək, onu dəyişdirmək və ya təhrif etmək haqqında düşünmür: ey Allah qarşısında dayananlar! Sizin yer üzündə qıldığınız namazdakı bu səflər orada, səmada mələklərin bağladıqları səflərin eynisidir. Hədisdəki "Mələklər (Allahın hüzurunda) necə cərgədə dayanırsa, siz də elə dayanın" sözlərini xatırlayaq. Bu, yer üzündə mədəniyyətin şərtləri və ünsürləri ilə səmada baş verənlərin heyrətamiz rabitəsidir. Hədisdə yığcam şəkildə deyilir ki, həqiqi ibadət həqiqi mədəniyyət deməkdir; səmada necədirsə, yer üzündə də elə olmalıdır.

Bundan əlavə, sən başqa bir şərtə əməl etməyə dəvət olunursan: "boş yer buraxmayın, ...şeytan üçün boş yer buraxmayın". Bu cəhət mədəniyyət qurmada fərdə dürüstlük və məsuliyyət aşılayır. Hər birimiz ümmətdəki boşluqları bilirik və hərəmizin öz ixtisası var. Hər kəs rolu, işi və bacarığı daxilində bu mədəniyyətin yaradılmasında iştirak etməlidir. Boşluğu doldurmada

məsuliyyətdən boyun qaçırmaq meydanı şeytana buraxmaqdır. Bu da öz növbəsində xəyanətdir, qoyub getməkdir, ümmət yarada biləcək "bina"nı sarsıtmaqdır. Mədəniyyət ixtisaslaşmadır, fərdi məsuliyyətdir, həmrəylikdir, qurub-yaratmadır.

Allah Təala bu yer üzü qaydasını səma ilə əlaqələndirir: Ey bəndə, ehtiyat et: əgər burada səf tutsan, Allah da orada səni tutar, yox, burada səfləri pozsan (kəsib atsan), Allah da orada səni kəsib atar. "Kim cərgəni birləşdirərsə, Allah da onu (lütfünə) qovuşdurar; yox, yarımçıq buraxıb kəsərsə, Allah da onu kəsib atar". Yer üzündəki mədəniyyət şərtlərinin səmada baş verənlərlə əlaqəsi qədər aydın olan ikinci əlaqə vardırmı?! Bu, ibadət şərtləri ilə mədəniyyət şərtlərinin əlaqəsidir.

Həmçinin Allah səni sərtlikdən əl çəkməyə, namazdakı (cəmiyyət və həyatdakı) qardaşlarınla mülayim davranmağa çağırır: "(cərgəni düzəltmək üçün) əlinizdən çəkən qardaşlarınızla mehriban davranın". Namazda qardaşlarımız bizə cərgələri düzəltməyə, səflərdəki boşluqları doldurmağa kömək etdiyində çiyinlərimizi yanaşı tutmağımız könlümüz və xarakterimizə sirayət edəcəkdir. Bu vaxt başqaları ilə sərt davranmamalı, fikirləri, hətta əqidəsi ilə bizdən fərqlənənlərə qarşı kobudluq etməməli, təzyiq göstərməməli, radikallığa yol verməməliyik. Həzrəti Aişə *(Allah ondan razı qalsın!)* deyir ki, Peyğəmbərin davranışları *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu cür olmuşdur:

"...nə bir qadına, nə də xidmətçiyə əl qaldırmışdı. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əli ilə heç nəyi vurmamışdı. Onun əli ancaq Allah üçün cihadda qalxardı O, iki şeyi seçmək qarşısında qalsaydı, ən asanını seçərdi. Təbii ki, həmin şey günah əməl deyildisə. Yox, əgər günah əməl olsaydı, dərhal ondan kənar durardı.

Peyğəmbər nəfsi üçün, ona edilən şeylər (əziyyət və zülmlər) üçün intiqam almazdı. Amma Qüdrətli və Böyük Allahın qadağaları pozulardısa, alardı”[24].

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* istəyirdi ki, təvazökar olaq, amma təkəbbürə qapılmışıq; istəyirdi ki, mülayim təbiətli olaq, amma xasiyyətimiz sərtdir; istəyirdi ki, mötədil və tolerant davranaq, amma radikallaşmışıq; istəyirdi ki, ortaq dil tapıb bir-birimizə yaxın olaq, amma bir-birimizdən uzaqlaşıb ixtilafa düşmüşük; istəyirdi ki, birləşib güclənək, amma parçalanıb zəifləmişik.

Sünnilər və şiələr bir çox məsələdə fikir ayrılığına düşmüşlər, amma onlar heç vaxt namazın əsasları, sayı, hərəkətləri və vaxtı ətrafında fərqli düşünməmişlər. Səbəb namazın camaatla qılınmasıdır.

Kollektiv quruluş bir çox ibadət növünü təhrifdən qorumuşdur. Müsəlmanlar Quran mətni ətrafında fikir ayrılığına düşməyiblər, çünki islam bu mətnin hər gün üç dəfə, yəni qiraəti səsli olan üç namazda camaatla oxunmasını təmin etmişdir. Hər bir ölkə, şəhər, kənd, məscid, və evdə imam namaz qıldırarkən surələri oxuyur, arxa dayananlar da onun qiraətini təsdiqləyirlər. Müsəlmanların arasındakı fikir ayrılıqları Quran təfsirinə görədir. Çünki təfsir kollektiv iş (təcrübə, icra) deyildir. Onlar namazın forması məsələsində fərqli düşünmürlər, çünki namaz məscidlərdə hər gün beş dəfə təsdiqlənən kollektiv ibadətdir. Həmçinin həcc və əsasları ətrafında ixtilaf mövcud deyildir. Çünki həcc də camaatın nəzarəti və təsdiqi ilə icra edilən kollektiv ibadətdir. Müsəlmanlar həclə əlaqəli ikinci, üçüncü dərəcəli bəzi məsələlərdə ixtilafa düşmüşlər.

---

[24] Əlbani hədisi səhih hesab etmişdir.

İndiki dövrdə dünyanın mədəni və geridə qalmış xalqlarına nəzər salsaq, hər ikisinə xas xüsusiyyətləri təxmin edə bilərik. Mədəni xalqlar təvazökarlıq göstərmiş, tolerant davranmış, birləşmiş, ixtisaslaşmış, bir komanda, bir ürək və tək əl olaraq, əzmkarlıq və iradə ilə, cəfakeşlik göstərərək vətənlərinin qurulmasında əllərindən gələni etmişlər. Təkəbbürlülük, lovğalıq, sərtlik, lənglik, qətiyyətsizlik, laqeydlik, parçalanma isə geridə qalan xalqlara xasdır; hərə öz yolu ilə gedir, iki nəfəri ancaq döyüş və ya fitnə alovu birləşdirir. Bütün bunlar, təəssüf ki, əksər ölkələr və məsələlərdə müsəlmanlar üçün səciyyəvi deyildirmi?

Əgər hər birimiz aşağıdakı hədisi qarşısına qoyub düşünsə, ondan çıxarılacaq dərsləri özünə, ailəsi və ətrafındakılara tətbiq edəcəkdir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu hədisdə camaat namazına diqqəti çəkərkən bunun səbəbini də izah etmişdir: birlik, güc və həmrəylik. Əks halda, sürüdən ayrı düşən və qurdlara yem olan qoyunları xatırladacağıq. İndiki dünyamızda ətrafımızı bürüyən canavarlar necə də çoxdur.

"Kənddə və səhrada camaat namazı qılmayan elə üç nəfər yoxdur ki, şeytan onlara ağalıq etməsin. Camaata bağlı qal, çünki canavar ancaq sürüdən ayrı düşmüş qoyunu yeyir"[25].

Təkcə bədənlər deyil, həm də qəlblər camaat namazında cəm olursa, bunun sonrakı həyatımıza, düşüncə və əməllərimizə təsiri labüddür; camaatla bir olacağıq, camaatla qəbul edəcək və ya etməyəcəyik, üstünlük verəcək, yaxud verməyəcəyik, camaatla düşünəcək, işləyəcək, qurub-yaradacaq, kədərlənəcək və sevinəcəyik. Məhz bunun sayəsində müsəlmanlar

---

[25] Hədisi Əbu Dərdaya istinadən Əbu Davud rəvayət etmişdir.

Cahiliyyət qaranlığından xilas olub islam mədəniyyəti və əxlaqına, düşüncə və elminə, vahid vətən və ümmətə sahib olmuşdular. Onlar camaat və cənnəti birləşdirə bildiklərində yer üzü və səmanı vəhdətdə götürməyi bacarmışdılar.

"Camaatla olun! Nəbadə parçalanasınız! Şeytan tək nəfərlə birlikdədir, amma iki nəfərdən uzaqdır. Kim cənnət rahatlığını arzulayırsa, camaatdan ayrılmasın"[26].

Mədəniyyət toplaşmaqdır, bütövləşməkdir, birlikdir, ustalıqdır, dəqiqlikdir, təvazökarlıqdır, mülayimlikdir, tolerantlıqdır, yaxınlaşmadır, cəfakeşlikdir, iradə və səbirdir.

---

[26] Hədisi Ömər ibn əl-Xəttab rəvayət etmişdir. Əlbaniyə görə səhihdir.

# Cümə xütbəsi: inkişaf sessiyası

Oksford məscidlərinin birində imam xütbəni ingilis dilində söyləyib ərəb dilində bir kəlmə də olsun kəsmədiyi üçün namaz qılmağa gələnlər haray-həşir salmışdılar: “İmamın xütbəsi doğru deyil! Çünki ərəb dilindən başqa dildə oxuyub xütbəsini! Xütbə ərəb dilində deyilsə, cümə namazı bütünlükdə qeyri-məqbuldur!”

Burada, İngiltərədə biz bu cür hadisə qarşısında təəccüb keçiririk. Bu təəccübdə həm də heyranlıq və təqdir vardır. Bəli, ərəbcə danışmayan, amma biz ərəblərin öz dilimizə bəsləmədiyi hörmət və sevgini ərəb dilinə bəsləyən qardaşlarımıza heyranlıqla baxır, onların bu mövqeyini təqdir edirik. Onların dilimizə ehtiramı bizdə xəcalət yaradır, dilimizə olan laqeydliyimiz qarşısında bizi utandırır və bizi sövq edir ki, onu yenidən kəşf edək, ondakı müqəddəsliyi kəşf edək, onun qədir-qiymətini bilək.

Qardaşlarımızdakı bu müsbət keyfiyyət bizi özümüzü müqəssir hesab etməyimizə səbəb olur və biz ana dilimiz qarşısındakı müqəddəs borcu xatırlayırıq. Amma tablonun başqa üzü də vardır.

Cümə xütbəsinin ərəbcə verilməsini həmin qardaşlarımızın israrla istəmələrinin şahidi olduğumuz bu dövrdə bir daha əmin oluruq ki, bəzi müsəlmanlar nöqsanlı fəhm səbəbi ilə cümə xütbəsinin canlı və başlıca rolunu dərk etməyiblər. Həmçinin bu bizə izah edir ki, müsəlmanlar dinlə həyatı bir-birindən ayırmışlar: xütbəni Quran və Peyğəmbərin dilində oxuyursan, amma orada nə deyib-demədiyin maraqlı deyildir;

beş vaxt namazını qıl, amma eybi yoxdur oğurluq et, kələk gəl, yalan danış, zina et; təki donuz et yemə, ətin halallığına fikir ver, amma başqa günahları etsən də olar. Müsəlmanlar, bir tərəfdən, islamı səhv başa düşdüklərindən, digər tərəfdən isə diqqəti əsaslara deyil, ikinci dərəcəli məsələlərə verdiklərindən Qərbdə islam haqqında təhrif olunmuş təsəvvürlər meydana çıxmışdır. Müsəlmanların islamdan xəbərsiz qalmaları bu dinə qarşı insafsızlıqdır! Müsəlmanların təqsirindən islamın başına o qədər bəla gəlib ki!

Həmin qardaşlarımız imama şərt qoyurlar ki, xütbə başa düşdükləri əcnəbi və ya yerli dildə deyil, ərəb dilində olsun. Adətən bu xütbə bir neçə ayə və hədisdən artıq olmur. Elə də olur ki, imam xütbəsinə hər xütbədə təkrar-təkrar dediyi rəvayət və ya hekayətlər, hikmətli sözlər əlavə edir, bəzən isə etmir. İnsanlar da cümə ibadətindən necə daxil olmuşdularsa, elə də çıxırlar: nə dəyişiklik var, nə də fəhm. Heç ibrət götürüb faydalanmayıblar da! Bununla da, cümə xütbəsinin ruhunu öldürmüşük, ondan yerdə ancaq qrammatik "bədən" qalıb.

Bu mühüm həftəlik izahatı mənasından qoparır, sırf morfoloji-mexaniki ayinə çeviririk. Həmçinin bir çox müsəlman ibadətlə həyatı bir-birindən ayırdığı üçün edilən ibadət praktik məzmun kəsb etmir. Onlar həm namaz qılır, həm də oğurluq edirlər, həm oruc tutur, həm də yalan danışırlar, həm həccə gedir, həm də cibə girirlər, zülm və qeybət edirlər, vərdişə çevirdikləri hər bir günahı işləyirlər. Bununla da, dinlə dünyanı bir-birindən ayırdıqlarını bir daha isbat etmiş olurlar.

Hətta onlardan biri savadsızlığına baxmayaraq sənə halal ətin şərtlərinə əməl etmək zərurəti haqqında məruzə oxuyur. Halbuki sənin bu barədə olan

təsəvvürlərin onunkundan fərqli olub daha doğrudur. Buna baxmayaraq, həmin şəxs gizlində cibgirlik edir, fırıldaq gəlir, aldadır, yalan danışır, oğurluq edir, əziyyət verir, yalana ortaq olur, qanunlara kəf gəlir, ola bilsin, uyuşdurucu maddə də qəbul edir. Bütün bunlardan sonra iki ayağını bir başmağa dirəyir ki, bəs mən əsl müsəlmanam. Düzdür, halal ət anlayışında şərtlərə (səhv-doğru – fərqi yoxdur) əməl etməmək insanı islamdan çıxarmır.

Bir çox müsəlmana belə bir səhv təsəvvür hakim kəsilib: namaz qıl, daha sonra istədiyini et. Xütbəndə istədiyini danış, mühüm olanı xütbə mətninin ərəbcə oxunmasıdır. Həyatda və insanlarla münasibətlərində istədiyini et, əsas budur ki, haram ət yemirsən. Halal ət haqqında qısır və məhəlli təsəvvürdür bu!

Çoxları islam cəmiyyəti və inkişafında cümə xütbəsinin oynadığı başlıca roldan xəbərsizdirlər. Onlara görə, xütbə ilə birlikdə cümə namazı sadəcə vacib ayindir, icra edilməlidir. Budur onu yerinə yetirmiş və rahat olmuşlar: məlum vaxtda məlum namaza yetişmiş, xütbəyə qulaq asmış, imamın arxasında düz cərgələrdə dayanmış, namazı qılmış, bununla da, işləri bitdi sanmışlar.

Belə bir vəziyyət qarşısında soruşmağa dəyər: Cümə xütbəsi oxuyana diqqətlə qulaq asmaq, xütbə vaxtı susub danışmamaq, sakitliyə riayət etmək təkcə ədəbərkandandırmı, təkcə imama ehtiram üçündürmü? Belə olsa, cümə xütbəsi dini-fiziki mərasimə, məzmunca əhəmiyyətsiz idmana çevrilməzdimi?

Namaz – ibadət, xütbə isə iş planıdır. Xütbə cümə namazının ayrılmaz üzvi hissəsidir. Bəzi hədislərdə deyilir ki, xütbəni qaçıran, sanki, cümə namazını qaçırmışdır:

“Mələklər cümə günü məscidlərin qapılarını kəsdirərlər. İnsanlara yerlərinə görə (savab) yazarlar: Filankəs bu saatda gəldi, filankəs imam xütbə oxuyarkən gəldi, filankəs də ancaq namaza çatdı, cüməyə yetişə bilmədi, çünki xütbəyə yetişməmişdir”[27].

Bu səbəbdən imam xütbəsini namaz qılanların mədəni səviyyəsini, yaşadıqları sosial-elmi və mədəni mühiti, maraqlarını nəzərə alaraq tərtib etməlidir. Təbii ki, imam namaz qılanların xütbədən nə isə öyrənmələrini istəyirsə! İşçi və fəhlələrə oxunan xütbə ziyalılara oxunan xütbədən fərqlənməlidir. Məktəb şagirdlərinə, universitet tələbələri və müəllimlərinə, islamı yenicə qəbul edənlərə uyğun xütbə seçmək çox zəruri məsələdir.

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xütbələrində ayələrə yerli-yersiz müraciət etməzdi. İndiki dövrdə bir çox imamın xütbəsi təkrar bir neçə ayə və ya hədisdən ibarətdir. Onlar bu ayə və hədisləri yerinə görə işlətmirlər. Biz ayələri yerinə və vaxtına görə işlətmədikdə günah edirik, çünki bu, namaz qılanlara mənfi təsir göstərir, onların ayə və hədislərə olan sevgisi etiraz və saqınma ilə əvəzlənir. Bəlkə də, bu hal bütün Quran üçün baş verir.

Xütbənin məzmunu onun oxunduğu dildən əhəmiyyətlidir! Bunu nə vaxt başa düşəcəyik? Halal ət islamın başlıca əbədiyaşar əxlaq təlimlərini tənzimləyən deyil, onların daxilində nəzərdən keçirilən məsələyə nə vaxt çevriləcəkdir? Həyatımız ibadətimizin ifadəsi halına nə vaxt gələcəkdir?

Peyğəmbərimizin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dediyi kimi, əgər Allah Təala hər yüz ilin başında müsəlmanlara dini yeniləyən birisini göndərirsə, onda cümə moizəçisinin

[27] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Əhməd rəvayət etmişdir.

rolu hər cümə günü onlara dinlərinin hökmlərini bir daha izah etməkdən ibarətdir. Bəli, o, müsəlmanların üzləşdikləri problem və hadisələrin həftəlik izahını verməklə onların həyat və inkişaf ilə ayaqlaşmalarını təmin edir, – bu, dinin hökmlərinə yeni gözlə baxmaqdır!

Hər bir müəssisənin təlim-inkişaf proqramı vardır və işçilər ona əməl etməlidirlər. Cümə xütbəsi də müsəlman üçün həyatda icbari təlim-inkişaf və təlimat proqramıdır. Cümə xütbəsi islam və həyat müəssisələri arasında həftəlik rəsmi, elmi, praktik, mədəni, təlim və tərbiyəvi rabitədir.

# Buradan başlayaq

Bizimlə məsciddə namaz qılan dini qardaşımı axtarırdım. Xəbər verdilər ki, daha bizimlə namaz qılmır, başqa məscidə gedir. Çünki bu məsciddə namaz qılan başqa müsəlmanla araları bərk dəyib.

Bu yaxınlarda çoxdandır görmədiyim din qardaşımla rastlaşdım. Soruşdum ki, nədənsə onu son vaxtlar məscidimizdə görmürəm. Dedi ki, insanın iyrənc sudan (spermadan – ***mütərcim***) yarandığını söyləyən moizəçinin minbərə qalxdığı məsciddə namaz qılmaq istəmir: "Necə yəni insan iyrənc sudan yaranıb? O, spermanı nəyə görə iyrənc hesab etməlidir axı?"

Bu yaxınlarda məscidə gedərkən yolda dostumla rastlaşdım. Yol boyu söhbət etdik, məscidə çatdığımızda mənimlə sağollaşdı. Heyrətimi gizlədə bilmədim: "Bizimlə namaz qılmırsanmı?" Başını yelləyərək dedi: "Sələfilərin olduğu məsciddə namaz qılmıram".

Özüm-özümə dedim: "Təsəvvür et ki, islam ümməti üç dəstəyə bölünüb: üçdə biri küsdüyü şəxsin olduğu məsciddə namaz qılmır; üçdə biri səhvə yol vermiş imamı və ya moizəçini bağışlamır; son üçdə biri də görüş və ictihadda əks düşdüyü şəxslə eyni məscidi bölüşmək istəmir. Elə zənn edirsiniz ki, belə ümmət nə vaxt isə dünyanı idarə edə bilər? Qoy o, əvvəlcə özünü idarə etsin, sonra dünyanı fikirləşər".

Məscid əxlaqına, məsciddə camaat namazının şərtləri və ədəb-ərkanına nələr etmədik! Məscidlər islamı, islam mədəniyyətini, islam əxlaqını yayan çoxsaylı orduların yaranmasında böyük rol oynamışdı. Bu orduların əsgər və sərkərdələri məscidlərdə yetişmişdilər. Bu ordular

əvvəllər müşahidə edilməyən qısa zaman kəsiyində böyük işlər görmüşdülər!

2012-ci ilin aprel ayında "Müasir dəvətçi" Akademiyasının təşkil etdiyi sessiyaya dəvət almışdım. Sessiya "Gənclərlə ünsiyyət və islamın mötədil missiyasının çatdırılması üçün Əzhər universitetinin bilik və əxlaqda seçilən məzunlarının müəyyənləşdirilməsi" məqsədilə Qahirə şəhərində təşkil edilmişdi.

İyirmi ilə yaxındır Britaniya Akkreditasiya Şurasının müfəttişi işləyirəm. Bu yaxınlarda Şuranın fəaliyyəti Britaniya xaricindəki universitet və institutları da əhatə etdi. Bu o demək idi ki, ingilis mədəni təcrübəsi həmin universitetlərə daşınacaqdı. "Müasir dəvətçi" Akademiyasına təklif etdim ki, Beynəlxalq İslam Akkreditasiya Şurası təsis edilsin. Məqsəd Misirdən başlayaraq müxtəlif ərəb-müsəlman ölkələrində bu yeni şuranın şərtlərinə cavab verəcək mədəni mərkəzlər yaratmaq idi. Bu mərkəzlər təkcə universitet və təlim-tərbiyə müəssisələrini deyil, həm də irili-xırdalı bütün dövlət qurumlarını, şirkətləri, komitələri, hökumət idarələrini, küçə və kiçik məhəllələri, yaşayış binalarını, xəstəxanaları, poliklinikaları, məktəb və institutları, klubları, satış anbarlarını, məscid və kilsələri, ümumi və uşaq parklarını, ümumi ayaqyolularını, tikinti emalatxanalarını və sairi əhatə etməli idi. Onu da təklif etdim ki, "Müasir dəvətçi" Akademiyasının sessiyasında iştirak edən, Misirin müxtəlif yerlərindən olan əlli tələbə bu ideyanın nüvəsini əmələ gətirsin. Bunun üçün adı çəkilmiş şuraya tabe yerli özəklər yaradılmalı idi. Bu özəklər yerləşdikləri ərazilərin müəssisələri arasında dini-mədəni rəqabət yaradacaqdı. Rəqabət də öz növbəsində həmin müəssisələrin məlum şurada akkreditə olunması ilə nəticələnəcəkdi. Beləliklə, da-

vamlı rəqabət nəticəsində akkreditə olunmaq üçün şuraya müraciət etməmiş qurumlar özlərinin təcrid edildiyinin fərqinə varacaqdılar.

Misirdə həyatın müxtəlif sahələrinə təsir gücü çoxaldıqca bu mərkəzlərin sayı aydan-aya, ildən-ilə artacaqdı. On-iyirmi il sonra Misir bu proqram sayəsində professionallıq, nizam-intizam, səliqə-sahman, təmizlik, xoş görünüş, istehsal və iş yerlərində ümumi təhlükəsizlik səviyyəsi, təhsil və təlim-tərbiyə baxımından Avropa ölkələri sırasında dayanacaqdı. Bu da vəziyyət etibarı ilə Misiri itirilmiş dini dəyərlərə qaytaracaqdı. Misir dini dəyərləri, dini dəyərlər də Misiri ayaqda saxlayacaqdı.

25 Yanvar İnqilabından sonra bir-birini əvəz edən təəssüfedici hadisələr səbəbi ilə ideya kağız üzərində qalıb. Bu da öz növbəsində bizi vadar edir ki, cari mərhələ üçün başqa variant haqqında düşünək: Bu böyük kampaniya islam dövləti strukturunun ən kiçik mədəni elementi sayılan məscid camaatından nə üçün də başlanmasın? Axı məscidlər hər küçədə, hər məhəllədə, hər kənddə mövcuddur.

Hər bir məscid başda imam və cavanlı-qocalı əsas köməkçiləri olmaqla, əsas vəzifəni icra etməklə yanaşı, camaat namazı haqqında danışarkən toxunduğumuz on mədəni əsasdan çıxış edərək ətrafdakı qurumların məhəlli akkreditasiya şurasına çevrilə bilər.

Britaniya Akkreditasiya Şurasının akkreditə edəcəyi qurumlardan (universitetlər və dövlətin hər bir işlək müəssisəsini əhatə edir) tələb etdiyi şərtlər aşağıdakılardır:

1. Qurumun daxili və xarici görünüşü
2. Təmizlik, sağlam ekoloji şərait, işçilərin, qurumun xidmətlərindən istifadə edənlərin təhlükəsizliyi

3. Verilən xidmətlərin keyfiyyətini təmin etmək üçün qurumun, ofis və otaqların hazırlıq və yararlılıq səviyyəsi

4. İşçi və istifadəçilərin hər biri üçün zəruri sığorta

5. Qurumu idarəetmədə və qarşıya qoyulmuş məqsədləri reallaşdırmada rəhbərliyin müvəffəqiyyət səviyyəsi

6. İşçilərin bacarıq səviyyəsi və sertifikatlarının dərəcəsi, münasib təcrübə

7. İşçilər üçün mütəmadi təlim kurslarının keçirilməsi

8. Ədalətli və bərabər məvacib sistemi, işçilərin aidiyyəti orqanla məvacib müqavilələrinin olmağı

9. Stimullaşdırma, işçilərin fərdi təşəbbüslərə təşviq edilməsi, bacarıqların artırılması mexanizminin mövcudluğu

10. İşçi və istifadəçilərin müasir və dəqiq üsullarla qeydiyyatının aparılması mexanizminin mövcudluğu

11. Müəssisədə bütün nizamnamə və fəaliyyət planlarının saxlanması, hər bir işçiyə bu məsələdə düşən vəzifənin yazılı şəkildə göstərilməsi

12. Müəssisənin bütün nəşrləri və elanlarının mötəbərliyi

13. Müəssisənin əhaliyə təqdim etdiyi xidmət və təcrübənin, sertifikatların mötəbərliyi

14. Ünsiyyət dili, yazılı və şifahi müraciət üslubunun mədəniliyi

15. Müdiriyyətin işçilər və istifadəçilərlə kontaktı, nə dərəcədə onların fikirlərini nəzərə alıb, istəklərini yerinə yetirməsi

16. Müəssisə tərəfindən işçi və istifadəçilərə, xüsusən onlardan ehtiyacı olanlara güzəştlərin edilməsi

17. İşçi və istifadəçilər arasında bərabərliyin təmini, irqi-dini və məzhəb ayrı-seçkiliyinə yol verməmək

18. Müəssisənin fəaliyyəti və xidmətlərinin illik yaxşılaşdırılmasında kənar arbitrlərin iştirakı

19. Hər rübün (mərhələnin, ilin...) sonunda nəticələrin qiymətləndirilməsi.

Bütün bunlar Britaniya Akkreditasiya Şurası müfəttişinin istənilən müəssisəyə baş çəkərkən portfelində daşıdığı qovluqların xülasəsidir. Əslində, bunlar camaat namazının çağırdığı və formalaşdırdığı mədəniyyətin on əsasından kənara çıxmır. Mümkündür ki, camaat namazından irəli gələn kampaniya (fəaliyyət) bu əsasları qəbul etməklə itirilmiş mədəniyyəti geri qaytara bilsin.

Bu kampaniyanın müxtəlif məscidlərdə başlanması mümkündür. Hər kəs bu on əsasa söykənərək özü üçün müəssisələrin akkreditə olunması qaydaları qoyur. Çox keçmir ki, bu məscidlərin heyətləri vahid qayda və şərtləri müəyyən etmək, vahid şura yaratmaq üçün görüşürlər. Daha sonra dövlət miqyasında Milli Akkreditasiya Şurasının əsas qanununun işlənib hazırlanması üçün bu qaydalar inkişaf etdirilib genişləndirilir.

Məscidi bu səviyyəyə çatdırmaq üçün imam ərazidəki digər imamlarla birlikdə plan hazırlamalıdır. Məqsəd camaat namazının həqiqi vəzifəsini dərk edən, ümumiyyətlə, namazın insan həyatı və cəmiyyətin islahında oynadığı rolu başa düşən namaz qılanlar kollektivi – camaat yaratmaqdır. Bəlkə də, ilk, yəni təsisçi camaat ərazidəki digər məscidlərin camaatlarını əhatə edən daha böyük camaatın nüvəsini əmələ gətirəcəkdir. Beləliklə, makrocamaat – Ali Akkreditasiya Şurası yarananadək bu proses davam etdirilməlidir.

Bu kampaniya, məsələn, Misirdən və ya digər islam ölkəsindən başlanmaqla bütün Müsəlman dünyasına yayıla bilər.

Əgər yaxşı planlaşdırılarsa, bu cür şura Müsəlman dünyasını bir neçə onillik ərzində əvvəlki mədəni səviyyəsinə çatdıra, ərəb-islam dünyasında sağlam dini-mədəni təfəkkürü yenidən dirildə bilər. Bunun islamın praktik tərəfini dirçəltməklə, namazdan başlayaraq ibadətləri həyatla əlaqələndirməklə, islamın həqiqi mədəni "sima"sını dünyada tanıtmaqla baş verməsi mümkündür.

# Namazdakı beş cizgi

“Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər ... namaza yaxınlaşmayın...” (ən-Nisa, 43).

Dəfələrlə oxusaq da, ayədən lazımi nəticə çıxarmamışıq.

Əgər küçədə bir nəfərin başını yellədərək, əl-qol ataraq öz-özünə danışdığını görsəniz, əvvəlcə, elə güman edərsiniz ki, qulaqlıqdan, yaxud yaxınaötürmə cihazından istifadə edərək mobil telefonla danışır. Yaxınlaşdıqda qulaqlıq və telefon görməsəniz, “dəlildir”, “sərxoşdur” – deməkdən başqa seçiminiz qalmayacaqdır. Sizcə, dediyimdə ifrata varmıram ki?

Bu, bir çox namaz qılanın düşdüyü vəziyyəti xatırladır. Amma bu iki vəziyyət arasında mühüm fərq vardır. Birinci misaldakı şəxsə nəzər salsanız, yanında kiminsə olmadığını, öz-özünə danışdığını görərsiniz. Danışarkən əlində telefon tutmayıb və kiməsə xitabən danışmır, yaxud Quranın ifadəsi ilə desək, nə dediyini özü də bilmir.

Danışarkən demək istədiklərimizin üz cizgiləri və jestlərimizdə ifadə olunması, danışdığımız şəxsin yanımızda olmağı başqa şeydir, başqası ilə danışdığımızı kənardakılara göstərmədən, nitqimizlə nəyisə nəzərdə tutmadan ağzımızı hərəkət etdirməyimiz isə tam başqa şey! Sonuncu vəziyyət əcaib, xəstə və təhlükəli vəziyyətdir.

Əslində, onların danışığı məzmunlu sözləri sürətlə sadalamaqdan ibarətdir. Amma mimika və jestlərsiz bu danışıq məzmunsuz görünür. Üslub, üz ifadəsi, danışıq

tonu, mənaya uyğun tonun seçilməsi – bütün bunlar söhbətimizi mənalı edir.

Təcrübə üçün mobil telefonunuzla dostunuza zəng edin. Həyat yoldaşınız və ya ailə üzvlərindən birinə deyin ki, danışdığınız vaxt üz cizgilərinizin, səs tonunuzun, üslubunuzun necə və neçə dəfə dəyişildiyini qeyd etsin.

Mimika, səs tonu və tembri, jestlər və bədənin vəziyyəti adi danışıq vaxtı mükalimənin məcrasına uyğun olaraq dəfələrlə dəyişilə bilir. Sual, cavab, təhlil, israr, istək, ümid, ümidsizlik, etiraz, təəccüb, təsdiq, inkar, məzəmmət, xəbərdarlıq, xahiş, yalvarma, tərif, istəmə, qorxu, hökm, əminlik, istisna, tərəddüd, təkrarlama... motivləri jest və mimikaya, danışıq tonu və tembrinə təsir edir. Əgər belə deyilsə, onda robotdan fərqimiz yoxdur.

Namaz qıldığınızda robot, sərxoş və ya dəli olmadığınızı yoxlayıbsınızmı? Əminsiniz ki, telefonla dostunuz, müəlliminiz və ya müdirinizlə əlaqə yaratdığınız kimi, namazda da qarşı tərəflə rabitə qurmuşsunuz? Özünüzlə danışmadığınıza əminsinizmi? Xəttin digər başında tərəf-müqabilinizin olduğunu ağlınızdan keçirmişsinizmi? İnsanlar sizi robot və ya dəli olmaqda ittiham etmirlər ki?

Əgər belə olmadığına əminsinizsə, xəttin digər başında Allahın olduğuna, sizə qulaq asdığına, xatırladığınızda sizi də xatırladığına, soruşduqda cavab verdiyinə iman gətirmişsinizsə, bunu sizə baxan və ya danışığınıza qulaq asan şəxsə nə isbatlaya bilər? Həmçinin siz səsinizin tembrini eşidən, qəlbinizdəki döyüntüləri bilən, daxilinizdəkilərə bələd olan Allaha necə isbatlayacaqsınız ki, öz-özünüzə deyil, Onunla danışırsınız?

“Həqiqətən, möminlər nicat tapmışlar!

O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər!" (əl-Muminun, 1-2);

"Onlar öz namazlarından qafildirlər;

Onlar (namazlarında) riyakarlıq edərlər" (əl-Maun, 4-5).

Allahla rabitənin – sözlü olmasa da – istənilən anı rabitə yaratmadan təkrarladığımız fazalardan yaxşıdır. Allah dilinizə deyil, qəlbinizə baxır. Qəlbin Allahla sözlər olmadan bir anlığına danışması içdən gəlməyən sözlərlə Ona ömür boyu üz tutmaqdan yaxşıdır. Əgər, həqiqətən, Allaha yetişmək, Onunla rabitə yaradaraq özümüzü yenidən proqramlaşdırmaq, xoşbəxtliyə gedən yolda Onun nuru və lütfünü əldə etmək, namazın savabı ilə mənəvi kir və günahlardan təmizlənmək istəyiriksə:

"Gündüzün iki başında və gecənin bəzi saatlarında namaz qıl. Həqiqətən, yaxşı əməllər pis işləri yuyub aparır" (Hud, 114).

Namaz orqanizmi möhkəmlədən idman deyildir, amma onda fiziki hərəkətlər vardır. Namaz Allahla rabitədə keçirdiyimiz adi vaxt deyildir, amma onu qılmaq üçün vaxt tələb olunur. Namaz dodaqlarımız və dilimizi hərəkətə gətirən sözlər deyildir, amma sözlər onun bir hissəsidir. Bəndənin qıldığı namaz bir-birini tamamlayan beş cizgidə paylanıb. Bu cizgilər bir-birindən ayrı deyildir. Əgər Allahla həqiqi rabitə yaratmaq istəyiriksə, həmin cizgiləri vəhdətdə götürməliyik. Bu cizgilər namazın əsasları arasında xatırlanmır, amma onların bir parçasıdır. Onlar olmazsa, namaz da olmaz:

**Zaman cizgisi**. Məni, yaxud özünüzü inandırmağa çalışmayın ki, günorta və ya əsr namazını beş-altı dəqiqədən artıq müddətə qılırsınız. Namaza ayırdığınız vaxt bu namazda Allahla "əlaqə"nin yaranıb-yaranmadı-

ğını isbatlayan əsas cəhətdir. Bəlkə də, zaman cizgisində ən mühüm hissə ayələri, yaxud sözləri bir-birindən ayıran fasilələrdir. Belə olan təqdirdə sözlər dildə "tıxac" yaratmır, basırıq salmır. Sözlərdən həzz al, balı ağzında "oynatdığın" kimi, sözləri də "oynat". Namaz qıldığında hər bir söz, ifadə və cümlədə bir anlıq ayaq saxla, sükuta dal, xəyalında götür-qoy et, məzmununu göz önündə canlandır, "dad"ından ləzzət al və əmin ol ki, onlardan qopuq deyilsən, mənalarını qavrayırsan. Namazın ilk yarısını sakitliyə ayır, sükuta dal, ikinci yarısında isə səmimiyyətlə, aramla Allaha yalvar. Bu yalvarışın bir mənbəyi var, yalvarış sözləri ondan meydana gəlir, – bu qəlbdir! Yalvarışın bir qibləsi var – bu Allahdır!

**Dil cizgisi**. Peyğəmbərin bizə sünnə qoyub getdiyi sözləri dilimizlə oxuyur, hər söz və mənaya uyğun səs tonu, vurğu, melodik çalar, aşağı və yuxarı tembr seçirik. Beləliklə, bu sadalananlar arasında lazımi həmahənglik baş verir. Bu həmahənglik isə namazda daxili mütiliyə (***xüşu***) səbəb olur.

**Bədən cizgisi**. Görünüşümüz, üz və mimikamız söylədiklərimizi təsdiqləyən inikasdır. Dilimiz tərpənməsə də, qəlbən tələffüz etdiyimiz sözlər bədən, çöhrə və gözlərdə əks olunur. Nitq qabiliyyətini itirmiş şəxsin necə namaz qıldığını görmüşsünüzmü? O, dilini "kompensasiya" etmək üçün ifadə bacarığını gözləri, üzü və bədəni ilə göstərir. Danışıq qüsuru olan şəxsdən necə namaz qıldığını öyrənin. Öyrənin ki, namazınız, hər şeydən əvvəl, danışmağı bacarmayan şəxsin namazı kimi olsun. Bundan sonra ona (namazınıza – ***mütərcim***) Allahın sizə bəxş etdiyi nitq və fəsahət qatın.

**Qəlb cizgisi**. Qəlbimiz dilimizə gətirdiyimiz sözlərlə döyünür, biri digərini təsdiqləyir. Dil aranda, düşüncəmiz isə yaylaqda ola bilməz. Kaş bu iki ciz-

ginin vəhdəti bədəndəki titrəmə, bənizdəki solğunluq, səsdəki tərəddüd və gözdəki yaşla ifadə olunardı.

**Əməl cizgisi**. Gündəlik həyatımız dil və qəlb cizgilərini təsdiqləsin deyə namaz qılarkən məqsədyönlü və əzmkar olmalıyıq. Belə ki əməlimiz sözümüzü təsdiqləməli, həyatımız namazda təkrarladığımız sözlərin təcəssümü olmalıdır. Namaz gündəlik işlərdən, Allah və insanlarla münasibətdən qopuq formal ayin olmamalıdır. Dəstəmazımızı "iki dəstəmaz"a çevirdiyimiz kimi, namazımızı da iki namaz etməliyik: xarici və daxili. Xatırlayaq ki, ayə və hədislərdə namaz əməllə, tətbiqlə, "əmr bil-məruf nəhy ənil-münkər" (yaxşılığa çağırma, pislikdən çəkindirmə) vəzifəsi ilə birlikdə göstərilir:

"Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə..." (Loğman, 17);

"Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi..." (Məryəm, 59).

"Əgər qıldığı namaz insanı əxlaqsızlıq və şərdən çəkindirmirsə, Allahdan da uzaqlaşdırar"[28].

Üzün yox imiş kimi bədəninlə namaz qıl...

Dilin yox imiş kimi üz cizgilərinlə namaz qıl...

Bədənin yox imiş kimi dilinlə namaz qıl...

Qəlbinin döyüntüləri ilə son döyüntülərmiş kimi namaz qıl...

Son namazını qılırmışsan kimi namazını uzat.

Təsəvvür edin ki, bir şəxsə uzaq ölkədən möhtəşəm tamaşaya baxması üçün dəvətnamə gəlir. Ən yaxşı paltarını geyinir, uzaq səfərə çıxmaq üçün vaxtından və pulundan sərf edir. Dəvət olunduğu yerə çatır, dəvətnaməni göstərdikdən sonra ona zala daxil olmağa

---

[28] Hədisi Abdullah ibn Abbasa istinadən "Şərh kitab əş-şihab" kitabında Səfarini Hənbəli rəvayət etmişdir.

icazə verirlər. Böyük zalda başqaları kimi o da lojasında əyləşib tamaşanın başlanmasını gözləyir.

Bir neçə dəqiqə keçmir həmin şəxs lojasında yuxuya gedir. Budur pərdələr qalxır, tamaşa başlanır... Yuxuda ikən xidmətçilərin səsinə oyanır: tələb edirlər ki, lojaları təmizləyirlər, çıxıb getsin. Sən demə, yuxuda ikən tamaşa başlayıb qurtarmış, qonaqlar da dağılışıblarmış. Zalda ancaq bizim dostumuz qalıbmış.

Bu vəziyyət ilahi dəvətlə namaz qılmağı planlaşdıran şəxsin halına oxşayır. Dəstəmaz alır, məscidə gedir, oraya çatmaq üçün vaxtından, bəlkə də, pulundan sərf edir, məsciddə az-çox vaxt keçirir, bütün bunlardan sonra namazından ondakı mənəvi səyahət və müşahidədən həzz almadan, ondakı ali məzmunla iç-içə olmadan, rəbbi ilə əlaqəni hiss etmədən, ümid etdiyi savabı qazanmadan ayrılır.

Hədisdə deyilir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* iki müsəlmanı bir-birinə qardaş edibmiş. Biri (döyüşdə) öldürülür, digəri isə bir həftədən sonra dünyasını dəyişir. Müsəlmanlar dua edirlər: "Ey Allah, onu bağışla və dostuna qovuşdur." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurur: "Onun namazı hara, bununku hara?! Onun əməli hara, bununku hara?! Onların arasında yerlə göy qədər məsafə vardır"[29].

Allah, Allah! Əgər birhəftəlik namaz əməl işləyən müsəlmanı yerlə göy qədər məsafəyə qaldırırsa, onda bir namazın bu məsafədəki payı nə qədərdir?

Fikir verin: hədisdə təkcə namazdan deyil, həm də əməldən söz açılır: "Onun əməli hara, bununku hara?!" Bu bizə öyrədir ki, namaz və əməl bir-biri ilə üzvi surətdə bağlıdır, onları bir-birindən ayırmaq olmaz.

---

[29] Hədisi Übeyd ibn Xalid əs-Süləmiyə istinadən Əbu Davud rəvayət etmişdir. Əlbaniyə görə hədis səhihdir.

Hər namazdan sonra özünə bu sualı ver: “Namazım məni hansı məsafəyədək qaldırdı? Göylərin üstünəmi? Ayamı? Buludlaramı? Evimin tavanınamı? Başımdan bir qarış yuxarıyamı? Bəlkə, iki barmaq yuxarıya?”

Hər namazdan sonra dəyişdiyinə əmin olmadıqca məsciddən çıxma.

# Bir nömrəli qırmızı açar: “Allah böyükdür!”

“Allah böyükdür!” ifadəsi (***təkbir***) özünəməxsus olub, bizi Yer kürəsindən uzaqlara aparan heyrətamiz enerjiyə sahibdir. Lakin “təkbirətülehram”ın özünəməxsusluğu daha çoxdur. Bu, “ehram” təkbiridir, yəni “qorunan, toxunulmaz” zaman kəsiyinə daxil olmaqdır. Zəvvarlar da həccə başlayarkən “ehram” zonasına bu cür girirlər.

Biri sənə: “Düşmən zəifdir”, – deyib sussa, nə fikirləşərsən? Özün-özünə deyəcəksən: “Bəs sonra? Nə üçün cümləni tamamlamadı?” Və ya belə deyəcəksən: “Bəlkə də, ona görə tamamlamadı ki, nəyisə yadına saldı. Ya da nə səbəbdənsə cümləni dəyişməyi düşündü. Yaxud nitqinə nə isə olub, odur ki cümləsini tamamlamadı...”. Bütün bu yozumları ona görə edirsən ki, cümlənin ardının gəlməsini gözləyirdin. Sənə görə, cümlə aşağıdakı formaların birində tamamlana bilərdi: düşmən sənə qalib gəlməyəcək qədər zəifdir; düşmən bizə hücum etməyəcək qədər zəifdir; düşmən güman etdiyimizdən zəifdir; düşmən üz-üzə gəldiyimiz ən zəif düşməndir... Oxşar digər cümlələrdə müqayisə dərəcəsindəki “zəif” (***əd`afu***) sifətindən sonra “dan/dən” (***min***) bağlayıcısı işlədilir. Ərəb dilində sifətin müqayisə (həm də üstünlük) dərəcəsi “əf`alu” modeli ilə düzəlir. Bu cür sifətlərdən sonra ya “dan/dən” bağlayıcısı, ya da izafətin ikinci tərəfinin (***mudaf ileyh***) işlədilməsi bir qaydadır. Məsələn, düşmən ...dan/dən zəifdir; (ən zəif) zəif düşmən və sair. Amma islamın təqdim etdiyi heyrətamiz “Allah böyükdür” (***Allahu***

***əkbər***) ifadəsində nə dan/dən bağlayıcısı, nə də izafətin ikinci tərəfi sayılan işim işlədilmişdir!!!

Allah bu ifadəni bizim üçün "açıq" buraxıb. Əgər ondan sonra "dan/dən" bağlayıcısı və ya izafətin ikinci tərəfi rolunu oynayan isim işlədilsəydi, təxəyyülə qapı açan xüsusiyyətini itirər, qapalı ibarəyə çevrilərdi. Və biz özümüzə "nədən böyükdür?" sualını verərək təxmin və düşüncələrə dalmazdıq.

"Allah böyükdür" cümləsi forma baxımından bir çox ehtimala yer buraxacaq qədər açıqdır. Bu da öz növbəsində həmin sözü təkrarlayan şəxsin düşüncələrində (dilində deyil!) onlarla, yüzlərlə, minlərlə ehtimala yer açır. Məsələn, Allah səndən böyükdür, ey şeytan, ey zalım, ey pul, ey qüssə, ey dərd, ey qayğı, ey sevinc, ey məni Onunla söhbətdən yayındıracaq hər şey!

Bu ifadədə sifətin adi dərəcəsi deyil, müqayisə dərəcəsi işlədilmişdir. Madam ki biz, ərəblər onun həqiqi mənasını düzgün başa düşməyib təkrar və vərdişin qurbanına çevrilmişik, onda tərcüməçilərin bu məsələdə yanlışa yol vermələri heç təəccüblü deyildir. Məsələn, ingilis dilinə bu sözü gah "great" (böyük), gah da "the greatest" (ən böyük) olaraq tərcümə edirlər. Halbuki tərcümə "greater" (daha böyük) kimi olmalı idi. Belə səhv tərcümələr həmin ifadənin açıq məzmununu təhrif edir, onu təkrarlanan adi ifadəyə çevirir.

Müəzzin və namaz imamlarının çoxuna fikir verin: onlar oxunuşda hər iki təkbiri birləşdirirlər. Onların qiraətində birinci təkbirin sonuna "u" artırılır və iki təkbir bir ifadə kimi eşidilir: Allahu əkbərul-lahu əkbər! Onlar bu cür birləşdirmə ilə birinci təkbirin ayrıca qrammatik vahid olma xüsusiyyətini təhrif edirlər. Beləliklə, qulaq asanlar üçün təkbir həqiqi formadan uzaqlaşır. Çünki ayrıca qrammatik vahid kimi deyilən

“Allahu əkbər” bizi bir qədər pauza verib düşünməyə sövq edir: Allah böyükdür! Nədən?

Hər iki təkbirin bu cür birləşdirilməsi vərdiş nəticəsində mənadan uzaqlaşmağımızın təzahürüdür. Bununla da, onu adi ifadəyə çevirmişik və onda onu digər ifadələrdən fərqləndirən “açıqlıq” xüsusiyyəti qalmayıb. Elə isə biz bu ifadəni “Allah böyükdür və ya Allah ən böyükdür” kimi tərcümə edən mütərcimləri də qınamamalıyıq.

İndi isə özünüzü ilk dəfə azan eşidən Mədinə sakinlərinin arasında təsəvvür edin. Onlar bu yeni formanı, yəni “Allahu əkbər” formasını eşidərkən nə hiss etmişdilər? Allah böyükdür!.. Allah böyükdür!.. Allah böyükdür!.. Allah böyükdür!.. Təkrarən dörd dəfə deyilən bu ifadə onlarda cümlənin davamını eşitmək marağı yaratmışdı. Çünki ənənəvi dil biliklərinə görə cümlənin ardı gəlməli idi.

“Allah böyükdür” düyməsi qırmızı və qırmızı olmayan düymələr arasında ilk qırmızı düymədir. Sən kosmik “namaz” gəmisini yuxarılara uçurmaq üçün ondan istifadə etməklə digər düymələri də işə salırsan.

# Qiraət və tilavət arasında

Bir dəfə dostum məndən soruşmuşdu: "Namazda nə oxuyacağımızı əvvəlcədən nə üçün planlaşdırmırıq? Məsələn, namazda oxuduğumuz "Boşanan qadınlar üç dəfə (heyz görüb təmizlənincəyə qədər başqa ərə getməyib) gözləməlidirlər" ayəsi Allahla əlaqə qurmağımıza, qarşısında itaətkarlıqla dayanmağımıza necə kömək edə bilər axı?!"

Allahın ayələrini oxumağa başladığınızda fərqinə varmalısınız ki, oxuduğunuz adi insan sözü olmayıb, ilahi kəlamdır. Siz ayələri tilavətlə oxuyursunuz. Tilavət ancaq Qurana xas qiraət formasıdır.

İslam gəlməmişdən əvvəl ərəblərə tilavət sözünün quransayağı mənası məlum deyildi. Tilavət sözünün törədiyi "tələ" kökünü onlar "ardınca gəlmək" mənasında işlədirdilər. Məsələn deyirdilər: dəxalə aləynə raculun və tələhu əxaru, yəni yanımıza bir kişi daxil oldu, onun da ardınca başqası gəldi. Quranda isə bu söz "qiraətdə ardıcıllıq" mənasında işlədilir. Yəni, ayələr əvvəlcə Allahdan meydana çıxıb, sonra onları mələk Cəbrayıl, daha sonra Həzrəti Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* oxuyub. İndiki dövrdə kimsə ayələri oxuduqda qiraətdə ardıcıllıq baxımından Peyğəmbərdən sonradır. Peyğəmbər isə mələk Cəbrayıldan, mələk Cəbrayıl isə Allah Təaladan sonradır. Tilavətin mənası bu deməkdir.

Tilavət – Allahla aramızda davam edən silsilə, yaxud əvəzlənmə əməliyyatıdır. Nəticə etibarı ilə biz ayələri oxuyarkən Allahla aramızdakı isti, səmimi və yaxın rabitəni hiss edirik. Bu rabitə müqəddəs dövrələrdən ibarətdir. Hər qare bir dövrəni təmsil edir. Ayələri

oxuyarkən bu möhtərəm silsilənin harasında qərar tutduğunuzu hiss etməyə çalışın.

İlahi kəlamın sonrakı nəsillərə dəqiqliklə çatdırılmasında təcvid qaydalarının böyük rolu vardır. Təcvid bizə bu möhtərəm silsilədə əvvəlkilərin ardınca getməyi öyrədir. O, qovuşma (***idğam***), uzatma (***müdd***) və qısaltma (***qəsr***), ayırma (***fəsl***) və birləşdirmə (***vəsl***), fasilə (***vəqf***) qaydaları əsasında bizə həmin silsiləni dəqiqliklə davam etdirməyi öyrədir. Belə ki tilavətimiz əslinə uyğun "nüsxə"ni xatırladır. Söhbət mələk Cəbrayılın Allahdan təslim aldığı əsil nüsxədən gedir. Mələk Cəbrayıl onu olduğu şəkildə Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)*, o da bizə çatdırmışdır.

Təcvid qaydalarına əməl etdikdə tilavətimizə qiraətimizlə müqayisədə daha çox vaxt ayırırıq. Bu da öz növbəsində Allahın ayələri ilə bütövləşməyimizi təmin edir. Beləliklə, ayələrin yanından tələsik ötüb keçmir, dodaq və dil hərəkətlərimizi düşüncəmizlə vəhdətdə götürürük. Misal olaraq, "ən-Nas" surəsini əvvəlcə adi şəkildə, daha sonra tilavətlə oxuyun. Görəcəksiniz ki, tilavətiniz qiraətinizdən uzun çəkir.

Namazda Allah kəlamını bacardığınız qədər tilavətlə oxuyun. Tilavət insana məsuliyyət yükləyir. Bu məsuliyyətdə daha çox qorxu, ehtiram, mütilik, bununla yanaşı, Allahın sözlərini mələk Cəbrayılın çatdırdığı şəkildə mühafizə etmək istəyi ifadə olunmuşdur.

# Qurani-Kərimin yeni dili

Qiraətinlə tilavət səviyyəsinə çatdıqda dərk edəcəksən ki, oxuduğun ayələrin dili adi, ənənəvi və bəşəri deyildir. Ayələri ilk dəfə Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* eşitdiklərində müsəlmanları ən çox "silkələyən" cəhət Quran dilinin gözəlliyi, bəlağət və fəsahət cazibəsi, semantikliyi, açıq-aydın məzmunu, ifadə dəqiqliyi, harmoniyası deyildi. Bütün bunların öz yeri vardı, amma onları başqa şey ovsunlamışdı. Ərəblər bundan əvvəl belə bir şeyin şahidi olmamışdılar. Öz dillərinə, üslublarının fəsahətinə, poeziyalarına arxayın idilər, lakin gördükləri şey onları çaşbaş buraxmışdı. Bu şey – Quran dilinin yeniliyi, hər bir ərəbin, hətta Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* danışdığı dildən fərqlənməsi idi.

Ərəblər islam gəlməmişdən əvvəl Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dilinə bələd idilər. Onun dili onların dilindən fərqli deyildi. Amma bir səhər oynadıqlarında gördülər ki, o, özünün və onların dilindən bütünlükdə fərqlənən bir dildə danışır. Bu onları sarsıdan dil zərbəsi idi. Bu dil öz ifadə imkanları və vasitələrinə, məzmun və formasına görə onların dilindən fərqlənirdi. Yeni dil öz heyrətamiz ecazkarlığı ilə yanaşı, ərəb dilinin qaydalarına əsaslanan, zaman keçdikcə əlavələrin edildiyi təmiz ərəb dili idi.

Bir tərəfdən, dilin mövcud əsas qaydalarına söykənmək, digər tərəfdən isə qrammatik ənənəni əksər hallarda rədd etmək – bu iki məsələnin qovşağında kifayət qədər ecazkarlıq vardır. Allahın sözlərini namazda təkrar edərkən məhz bu ecazkarlıq nəticəsində

titrəyib əsirik. Həmçinin bu ecazkarlıq imkan vermişdi ki, Quranın hər fəsli "surə" adlandırılsın. "Surə" sözü həmin dövrdə ərəblər üçün yeni olub, Allahın kitabındakı hər bir fəslin qorunduğunu, "qala"sının alınmasının qeyri-mümkünlüyünü ifadə edirdi. Allah Təala öz kəlamını təhrif və təbdildən möhkəm divarlarla (ərəbcə: ***əsvar***) qorumuşdu. İlahi kəlam divarlarla əhatələnmiş möhkəm qala – surə[30] idi! Bu səbəbdən həmin "qala"nın ehtiva etdiyi cümlələr, yaxud söz birləşmələri və sözlər ərəblərə o vaxtadək məlum olmayan "ayə" sözü ilə adlandırılmışdı. Bu, fərqli və özünəməxsus adlandırma olub, Quranın möcüzəviliyini, Qiyamətədək təhrif və təbdilə meydan oxuduğunu göstərir[31].

---

[30] Ərəb dilində "surə" sözü divarla əhatələnmiş yer – qala deməkdir. Müəllif buna işarə edir – ***tərcüməçinin qeydi.***

[31] Ətraflı məlumat üçün bax: Ə. B. Sai. Möcüzə: Quranın qrammatik möcüzəviliyinə yeni baxış. Vaşinqton, 2012, "Birinci fəsl"in ön sözü.

# “Açıq” dil və “yaşıl ərazi”

Eşitməyə adət etdiyimiz, fərqinə varmadan təkrarladığımız o qədər söz, ifadə var ki, bizə adi gəlir. Əslində, belə deyildir. Bir az düşünüb, yaddaşımızı vərdişdən kənar tutsaq, bunun şahidi olacağıq. Aşağıdakı hədisə nəzər salaq:

“Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ruku və səcdəsində deyərdi: “Subbuhun, Quddusun, Rabbul-mələikəti vər-ruh”[32].

“Subbuhun” sözü də “subhən” sözü kimi yeni olub, islamdan əvvəl ərəblərə məlum deyildi. Hər ikisi “açıq” sözlərdir, onlardan sonra gözümüzün önündə “yaşıl ərazi” uzanır. Yəni, bu sözü eşitdikdən sonra xəyalımızdakı boşluğu doldurmaq üçün düşünməyə başlayırıq. Allahı hər cür bəşəri keyfiyyətdən uzaq tutmaq üçün, “Allah böyükdür” ifadəsində olduğu kimi, təsəvvürlərimiz bir-birini əvəz edir.

“Subhən” sözü ərəb dilində “fu`lən” modelində işlədilmiş ismi-məsdərdir. “Subbuhun” sözü kimi bu söz də barəsində danışdığımız kimsəni ucaltmaq, istənilən xüsusiyyətdən xali hesab etmək mənasını verir. Biz “Subhənə rabbi...” dediyimizdə “Rəbbimi xali hesab edirəm (uzaq tuturam)” demiş sayılırıq. Amma nədən və nə kimi xüsusiyyətdən xali hesab edirəm? Bax bu, rüku və səcdələrdəki “təsbih”lərdə qeyd olunmayıb, açıq buraxılıb. Hər iki ibarə qrammatik baxımdan tamamlanmayıb və xəyali boşluqla müşayiət olunur. Bu boşluq imkan verir ki, onu bir çox versiya ilə dolduraq. Bu ibarələr də “Allah böyükdür” cümləsi

---

[32] Hədisi Həzrəti Aişəyə istinadən İmam Müslim rəvayət etmişdir.

kimidir. Əks halda, aşağıdakı nümunələrdə göstərildiyi kimi, bağlı, tamamlanmış formaya sahib olardılar: “Uca (və ya: Əzəmətli) rəbbim nöqsanlardan uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim eyiblərdən uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim yorğunluqdan uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim zalımlıqdan uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim səhvlərdən uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim zəiflikdən uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim yuxudan uzaqdır; Uca (və ya: Əzəmətli) rəbbim xəstəlikdən uzaqdır və sair”.

Qrammatik cəhətdən tamamlanmayan, deməli, geniş “yaşıl sahələr”ə, müxtəlif versiyalara açıq ibarələr namazda çoxdur. Qəribədir ki, bu cür ibarələr qrammatik baxımdan tamamlanmış, amma müxtəlif qrammatik səbəblərdən fərqli versiyalara açıq ibarələrlə yanaşı işlədilir. Belə ifadələr “Fatihə” və digər surələrdə, “Təhiyyat” və “Sələvati-ibrahimiyyə” dualarında çoxluq təşkil edir. Bu barədə sonrakı paraqraflarda danışılacaqdır.

İkirükətlik namazda qrammatik baxımdan tamamlanmayan otuz üç ifadə mövcuddur. Bu isə ehtimallarımızla doldura, məzmununu qavramaq üçün lazımi vaxt əldə edə biləcəyimiz 33 “yaşıl boşluq” deməkdir. Bu rəqəm “Fatihə” surəsinə, “Təhiyyat”, “Sələvati-ibrahimiyyə” dualarına, oxuduğumuz digər surə və dualara, zikrlərə şamil olunmur. İki rükətdəki həmin ifadələrə daxildir:

11 Allah böyükdür (...dan/dən böyükdür); 2 Allah Ona şükür edəni eşidir (...a/ə, ya/yə görə şükür edəni); 2 Rəbbimiz, Sənə şükür olsun (...a/ə, ya/yə görə şükür olsun); 6 Əzəmətli rəbbim uzaqdır (...dan/dən uzaqdır); 12 Uca rəbbim uzaqdır (...dan/dən uzaqdır).

Qrammatik cəhətdən tamamlanmayan açıq ifadələrin bu qədər çox olmağı göstərir ki, fərqlilikləri tapmaq,

daxili itaəti (***xüşu***) artırmaq, deyilənləri qavramaq, Səma ilə rabitə yaratmaq baxımından təxəyyül çox mühüm amildir.

"Qrammatik cəhətdən tamamlanan açıq ibarələr"i "qrammatik cəhətdən tamamlanmayan açıq ibarələr"dən fərqləndirmək çox əhəmiyyətlidir. Qrammatik cəhətdən tamamlanmayan hər bir ifadə həm də açıq ifadədir, amma bunun əksini demək doğru deyildir.

"Allah Ona şükür edəni eşidir", "Rəbbimiz, Sənə şükür olsun", "Əzəmətli rəbbim uzaqdır" kimi ifadələr qrammatik cəhətdən tam deyildir və onlardan sonra "yaşıl üfüqi sahələr" mövcuddur. Bu cümlələr özlərindən sonra gələn "boşluqlar"ı dolduran əlavə versiyalara açıqdır. "Fatihə" surəsindəki ifadə və söz-formalar isə qrammatik baxımdan tamdır, bu üzdən onları tamamlayacaq üfüqi "əlavələr"ə ehtiyac yoxdur. Bununla belə, onlar da yozuma açıqdır. Yozum ehtimalına görə onlar açıq ifadələrdir; qrammatik cəhətdən tam olsalar da, şaquli əlavələrə də (dərinliyə sarı) yox demirlər. Belə açıq ifadə və ya söz-formalar bir neçə mərtəbəli binanı xatırladır. Bu mərtəbələr bir-birinin üstündə olub, ayrı-ayrı xüsusiyyətlərə sahibdir.

## “Fatihə” surəsinin rolu və qiraət

Bu böyük surənin təkcə Quranın deyil, həm də namazın “açar”ı olduğunu bilirsinizmi? “Fatihə”, qüdsi hədisdə deyildiyi kimi, namazın özüdür. Uca Allah buyurur: “Namazı (“Fatihə”ni) qulumla aramda yarıbayarı böldüm. Bir yarısı Mənim, digər yarısı qulumundur. Quluma dilədiyi düşər. Qul: “Aləmlərin rəbbi Allaha həmd olsun!” – dedikdə Allah buyurar: “Qulum mənə həmd etdi.” (Qul:) “Mərhəmətli və Rəhimliyə”, – dedikdə (Allah) buyurar: “Qulum Məni təriflədi.” (Qul:) “Din gününün sahibinə”, – dedikdə (Allah) buyurar: “Qulum Məni uca tutdu.” (Qul:) “Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik”, – dedikdə (Allah) buyurar: “Bu, qulumla Mənim aramdadır. Quluma dilədiyi düşər.” (Qul:) “Bizi düz yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!” – dedikdə (Allah) buyurar: “Bu, qulumundur. Quluma dilədiyi düşər”[33].

İbn Kəsir yazır: “Onun (“Fatihə”nin – ***mütərcim***) “səb`i-məsani” (təkrarlanan yeddi) adlandırılması doğrudur. Çünki o, namazda təkrarən deyilir, hər rükətdə oxunur”.

Təsəvvür edirsinizmi, bu surə ibadət edənlər və ibadət olunan arasında bağlanmış müqəddəs müqaviləni xatırladır. Müqaviləyə görə, birinci tərəf ikinci tərəfə zəmanət verir ki, Ona davamlı şəkildə şükür və həmd edəcək (Həmd Allahadır), Onun rəbb olduğunu (Aləmlərin rəbbinə), əzəli-əbədi mərhəmətini (Mərhəmətli və

---

[33] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Müslim rəvayət etmişdir.

Rəhimli olana), Qiyamət gününün hakim və sahibi olduğunu (Din gününün sahibinə) təsdiqləyəcək, Ona təslim olub ibadət etməyi, Ona şərik qoşmamağı qəbul edəcəkdir (Ancaq Sənə ibadət edirik). İkinci tərəf isə bunun müqabilində birinci tərəfə aşağıdakıları zəmanət verir: hər bir işində (Ancaq Səndən kömək diləyirik) ona kömək edəcək, bu dünyada onu nemət verilmiş kəslərin yoluna – "Düz yola" yönəldəcək, onu "Qəzəbə düçar olmuşların", həmçinin ibadət və tövhiddən saparaq "azmışların" yolundan uzaq tutacaqdır.

"Fatihə" surəsini oxuyarkən onun adi sözlərdən ibarət olmamağının fərqinə varıbsınızmı? "Fatihə"nin dili adi ərəb dilinə, hətta Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* danışdığı dilə, yəni hədislərin dilinə oxşamır.

Əgər sizə desək ki, 29 sözdən ibarət "Fatihə"də Quran nazil olmazdan əvvəlki ərəb dilinə, hətta Peyğəmbərin hədis dilinə yad 58 qrammatik hadisə mövcuddur, təbii ki, bu sizə qəribə gələcəkdir[34].

Namazda "Fatihə"ni oxuyarkən bütün bunları yadına sal. Məzmunundakı ruhu hiss etmək üçün bir anlıq təsəvvürünə gətir ki, bu sözləri, sanki, sən yaratmışsan. Onu da yadından çıxarma ki, "Fatihə" bəşər sözü olmayıb, ecazkar ilahi kəlamdır. Məhz bu anda hiss edəcəksən ki, ilahi kəlam daxilindən fışqırıb axır, qəlbin onunla döyünür və sən səni düşüncələrə daldıran sözləri tələffüz edirsən, iman gətirdiyin ifadələri təkrarlayırsan.

Əgər bu imtahanda uğur qazansan, ilk yolu tutub gedəcək, "Fatihə"dəki hər sözün dəyərini, hər ibarənin

---

[34] Ətraflı məlumat üçün bax: Ə. B. Sai. Möcüzə: Quranın qrammatik möcüzəviliyinə yeni baxış. Vaşinqton, 2012, "İkinci fəsl"in əvvəli, "Fatihə" haqqında, Vaşinqton, 2016.

əzəmətini, onlardakı füsunkar və ovsunlayıcı mənaları, özünəməxsusluğu hiss edəcəksən.

"Fatihə"nin əhəmiyyəti böyükdür. Namazda istədiyin surə və ya ayəni oxuya bilərsən, amma "Fatihə"ni mütləq oxumaq lazımdır. Əgər namazda bütün Quranı oxuyub, "Fatihə"yə yer ayırmasan, namazın heçə gedər. Bəlkə də, sənə Quran oxumaq savabı yazılacaqdır, amma namaz savabından uzaq qalacaqsan!

"Kitabın "açarı"nı ("Fatihə"ni – ***mütərcim***) oxumayanın namazı qəbul deyildir"[35].

[35] Hədisi Übadə ibn Samitə istinadən İmam Buxari rəvayət etmişdir.

# Mərhəmətli və Rəhimli Allahın adı ilə!

Söhbət Qurani-Kərimin ən gözəl ayələrinin birindən gedir. Lakin vərdiş və adətkərdəlik bizə bu gözəlliyi görməyə mane olur. Biz bu ifadəni adi kompliment (sağ ol, üz istəyirəm, salamat qal və s.) kimi heç nə hiss etmədən təkrarlamağa öyrəşmişik. Gəlin özümüzdən soruşaq: Allah namazda təkrar edəcəyimiz ilk ayə olaraq nə üçün bu sözü seçib? Quran nəyə görə bu ayə ilə başlanır? Hansı səbəbdən surələrin əvvəlində bu ifadə işlənib? O nə səbəbə "Fatihə"nin bir hissəsi hesab olunur?

Quranı, surə və ayələri oxumağa, hər hansı bir işi görməyə başladıqda, "bəsmələ" deməyimiz[36] bizdə belə bir təsəvvür yarada bilər ki, bu ayənin funksiyası məhz başlanğıcda gəlmək, hər hansı bir işə başlanğıc verməkdən ibarətdir. Linqvistlər də bu cür düşünürlər. Onlar "adı ilə" birləşməsindəki ön qoşma və ismin əlaqəli olduğu həqiqi feli və ya ellips hadisəsini izah edərkən özlərini yormaq istəmirlər. Onlara görə buraxılmış fel "başlamaq"dır, yəni "Allahın adı ilə (başla)". Bununla da qrammatik bir problemi həll etdiklərini düşünürlər, amma ayənin həqiqi və mühüm mənasını nəzərdən qaçırırlar!

Məsələ hər hansı bir işi görməyə, yaxud müqəddəs mətni oxumağa "Allahın adı ilə" başlamaq məsələsi deyildir. Surələrin əvvəlində və ya gördüyümüz işlərdən

---

[36] **Bəsmələ demək**: "Mərhəmətli və Rəhimli Allahın adı ilə" mənasına gələn "bismilləhir-rahmənir-rahim" sözlərini demək – ***tərcüməçinin qeydi.***

əvvəl “bəsmələ” deməyimiz onda gizlənmiş və indi izah edəcəyimiz məqsədə görədir.

Ayə o məqsədi güdür ki, ondan sonra oxuduğumuz istənilən Quran təlimatı, buyruğu, qadağası, mükafat və cəzası, təsviri, məlumatı, öyüd-nəsihəti, xəbərdarlığı bizim dilimizdə Allahın adından səslənir.

“Rəbbin mələklərə: “Mən yer üzündə xəlifə yaradacağam” – dediyi vaxt...” ayəsindən[37] göründüyü kimi, əgər insan yer üzündə Allah Təalanın xəlifəsidirsə onda ona böyük vəzifə yüklənmişdir. Bu, onu yer üzünə xəlifə təyin edən Allahın sözlərini tilavət etmək vəzifəsidir, özü də Allah Təaladan necə nazil olmuşsa o cür – orijinal formada! O özünə və onu dinləyənlərə xatırlatmalıdır ki, bu dünyada – aşağıda yuxarıdan, yəni Səma aləmindən gəlmiş sözləri təkrar edərkən Allahın adından, Onu əsas götürərək, Onun yer üzündəki xəlifəsi olaraq bu sözləri təkrar edir.

Məhkəmədə hakim verdiyi hökmün mətnini “Xalqın adı ilə!” deyərək oxumağa başlayır. O bu sözü ona görə deyir ki, hökmü xalqın adından, yaxud onun səlahiyyətli nümayəndəsi olaraq vermişdir. Yəni, xalqı təmsil edir, hakimiyyəti xalqa aid edir, qərarlarını xalqın qanunları əsasında çıxarır.

Qohumlarından birinə ağız açdıqda deyirsən: “Səni qohumluğumuza and verirəm (qohumluq adına səndən istəyirəm)”. Bunu qohumluq əlaqələrinin imkan verdiyi səlahiyyətə əsasən deyirik.

“Fatihə”ni, yaxud başqa surəni “bəsmələ” ilə başlamaq bizə xatırladır ki, səmavi təlimatları Allahın adına, Allahın hakimiyyəti adına oxuyacağıq. Əgər bu ifadədə göstərilmiş “ilə” ön qoşmasını (bizim dilimizdə

---

[37] “əl-Bəqərə” surəsi, 30-cu ayə.

bağlayıcı – ***mütərcim***) dilçi alimlər kimi “başla” feli ilə əlaqələndirib izah etsək, özümüzü araşdırma çətinliyindən uzaq tutacağıq. Bununla da, geniş mənaya dar məzmun verəcək, bu sözün ecazkarlığını hiss edə bilməyəcəyik.

Namaza “bəsmələ” ilə başlamaq xəbərdarlıq zəngi olub bizə xatırladır ki, başlamaqda olduğumuz şey bizdən meydana çıxan avtomatik hərəkətlərdən, dilin təkrarladığı, qəlbə nüfuz etməyən, əzbərə bildiyimiz sözlərdən ibarət deyildir; əksinə, Allahla həqiqi rabitədir. Bu rabitədə Ona (Allaha – ***mütərcim***) bildirirəm ki, indi etdiyim şey Onunla aramdakı əhdin icrasıdır və mən hələ də yer üzündə onun xəlifəlik vəzifəsinə yarayıram.

Mən bu kitabımın ilk səhifəsinə “Mərhəmətli və Rəhimli Allahın adı ilə!” yazdıqda Allahın qarşısında təsdiqləyirəm ki, kitabımdakı ilk hərfdən tutmuş sonuncusuna qədər hər şey Onunla aramda bağlanmış müqaviləyə müvafiq olacaqdır. Mən Onun razılığını əsas götürəcək, Onun qaydalarına əməl edəcək, Onun qoyduğu çərçivədən kənara çıxmayacaq, Onun bu dünyada mənə verdiyi hakimiyyətin şərtlərinə bağlı qalacağam.

“Allahın adı ilə” – səninlə Allah arasında bağlanmış müqavilədir. Bu müqavilə ilə təsdiqləyirsən ki, Allahın yer üzündəki nümayəndəsisən; Onun mülkündən başqa mülk, hakimiyyətindən başqa hakimiyyət, var-dövlətindən başqa var-dövlət, daşınmaz əmlakından başqa daşınmaz əmlak, yeməyindən başqa yemək, içəcəyindən başqa içəcək yoxdur. Ey insan oğlu, Allahın namütənahi kainatda səpələdiyi milyardlarla irili-kiçili göy cisimləri arasında Yer kürəsi adlanan kiçik torpaq parçasına səmadan gələn hər şey bu kiçik ərazinin

(dünyanın – ***mütərcim***) sənə tapşırılmış işlərini onun əsl sahibinin adından idarə etməyin, bəndlərini nazil edildiyi şəkildə yerinə yetirməyin üçündür. Və səninlə Onun arasında bağlanmış müqavilənin müddəti başa çatmaq üzrədir: yola çıxmağa hazırlaşıbsanmı, Sahibin qarşısında əlində hesab dəftəri ilə dayanmağa hazırsanmı?

"Mərhəmətli və Rəhimli Allahın adı ilə" əhvalatı burada bitmir. Bu vəkalətnamə "Allahın adı ilə" sözündə başa çatmalı idi, bununla da, iş bitəcəkdi. Amma Uca Allah bu vəkalətnamə sənədinə onun ayrılmaz hissəsi sayılan bir "əlavə" də daxil edib: "Mərhəmətli və Rəhimli".

Eyni kökdən törəyən "Mərhəmətli" və "Rəhimli" sifətlərinin vahid qrammatik sintaqm əmələ gətirməsi və bu iki sifətin səninlə Allahın arasındakı vəkalətnamə sənədi kimi çıxış edən "bəsmələ"də, müsəlmanın rəbbi ilə rabitəsinin iki mühüm formasının: Quran və namazın qeyri-adi açılış hissəsində yer alması, bütün dünyaya, xüsusən, ey namaz qılan, sənə bir çox mesaj ötürür:

***Birincisi.*** Qüdsi hədisdə deyildiyi kimi, rəhməti qəzəbinə üstün gələn Allah istəyir ki, sən 113 surənin əvvəlinin təsdiqlədiyi heyrətamiz israrın eynisini göstərərək girişdə bu iki sözü söyləyəsən. Halbuki hər iki sifət eyni kökdən törəyib, amma aralarında açıq-aşkar məna fərqi vardır. Fikir ver: Allah surələrin girişini başqa ikili adlarla "bəzəməyib". Bu girişlərdə Allahın digər ad və atributlarının, məsələn, güclü və rəhimli sifətlərinin yanaşı işlənməsi mümkün idi. Quranda bir çox yerdə – ayələrin daxilində müxtəlif ilahi atributlar yanaşı işlədilir. Məsələn:

"Şübhəsiz ki, O, yenilməz qüvvət, mərhəmət sahibidir!" (əd-Duxan, 42);

“O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır” (əl-Mülk, 2).

***İkincisi.*** “Rəhimli” və “Mərhəmətli” sifətləri mühüm olub, namazın əsas hissəsini əmələ gətirdikləri, tilavətin açarı sayıldıqları üçün insan oğluna tapşırılmış vəzifəyə – xəlifəliyə olan etiqadın başlıca tərəfini təşkil edir.

***Üçüncüsü.*** Mərhəmətli və Rəhimli Allah tərəfindən yer üzünə xəlifə təyin olunmağın zəruri edir ki, bu iki ilahi atributa görə yaxşı xəlifə olmalısan, rəhmdillik mərtəbəsinə yüksələsən. Quranda “Mərhəmətli” və “Rəhimli” sözlərinin vurğulanıb, tez-tez təkrarlanması da bunu tələb edir.

Sən müsəlmansan, deməli, bütün dünya sənin simanda, dodaqlarındakı gülüşdə, ürəyinin yumşaqlığında, yaxın və uzaq olana bəslədiyin hüsn-rəğbətdə, insanları sevməyində, dost və düşmənlə tolerant davranmağında “Mərhəmətli” və “Rəhimli” sifətlərinin ifadə etdiyi keyfiyyətləri görməlidir.

Görəsən, dünya bu gün müsəlmanlara baxdığında onlarda bu keyfiyyətləri görürmü?

# Mərhəmətli və Rəhimli

Eyni kökdən – “rəhmət” kökündən törəsə də, müxtəlif formalarda (modellərdə) işlədilmiş iki söz! Dilçilik elminə görə, hər iki sifətin öz mənası, məzmunu, ifadəliliyi vardır. Ərəb dilində “Rəhman” sözü “fə`lan” modelinə əsasən düzəldilmişdir. Bu model aniliyi, indiki ana aidliyi ifadə edir. “Ğədban” (qəzəbli), “zəm`an” (susuz), “fərhan” (sevinən) və sair sözlər də bu modeldə işlədilmişdir. Bütün bu sifətlərin məzmununda anilik vardır. “Zəm`an” o kəsdir ki, bir azdan susuzluğu keçəcəkdir. “Ğədban” isə az sonra qəzəbi yatacaq şəxsdir və s.

Deməli, Mərhəmətli, yəni Rəhman o kimsədir ki, mərhəməti səmadan elə indicə – bu sözü oxuduğun anda sənə enəcəkdir. Bu sözün səmadan yerə uzanan “şaquli” mənası vardır. Bu sözü oxuyarkən hiss edirik ki, rəhmət bizə tərəf istiqamət götürüb, “təptəzə” şəkildə üzərimizə enir. Deməli, onu elə oxu ki, sanki, şəlalə kimi üstünə tökülsün və sən ilahi rəhmət sularında başdan-ayağadək yuyunursan.

“Rəhimli” (Rəhim) sözü isə “fəil” modelindədir. Ərəb dilində bu model, adətən, davamlılıq, mütəmadilik bildirir. “Kərim” – həmişə comərd olandır, “bəxil” – ömrü boyu paxıllıq edən şəxs deməkdir və s. Deməli, “Rəhim” hər yerdə və hər zaman rəhimli davranan şəxs mənasına gəlir. Onun rəhmi keçmişi, indini və gələcəyi əhatə edir. O, əzəldən əbədiyə uzanan üfüqi oxu xatırladır. O, səmadan yerə uzanan şaquli oxla – “Rəhman” oxu ilə bütövləşir[38].

---

[38] Ətraflı məlumat üçün bax: Ə. B. Sai. Möcüzə: Quranın

Bu iki sözü bir-birindən fərqləndirmək lazımdır. Peyğəmbərin onları oxuma üslubu da bunu təsdiqləyir:

"(Bir dəfə) Ənəsdən *(Allah ondan razı qalsın!)* soruşdular: "Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qiraəti necə idi?" Dedi: "Uzatmalı idi." (Bu əsnada Ənəs) "Bismilləhir-rahmənir-rahim" oxuyaraq dedi: "Bismillah"ı da, "ər-Rəhman"ı da, "ər-Rəhim"i də uzadırdı"[39].

Təcvid qaydalarına görə, uzatma şərtləri olmasa da, "Rəhman" və "Rəhim" sözlərinin uzun tələffüz edilməsi hər birinə məxsusilik qazandırır. Çünki uzatma zaman ifadə edir. Zaman isə bir sifətin sonrakı sifətdən ayrı olduğunu bildirir. Ayrılma isə məna baxımından özünəməxsusluq deməkdir.

---

qrammatik möcüzəviliyinə yeni baxış. Vaşinqton, 2012, "İkinci fəsl"in əvvəli, "Fatihə" haqqında, Vaşinqton, 2016, səh. 53.

[39] Hədisi Qətadəyə istinadən İmam Buxari rəvayət etmişdir.

# İki nömrəli qırmızı açar: "Yalnız Sənə ibadət edir, yalnız Səndən kömək istəyirik"

Dövlət idarəsinə gedərək tapdalanmış hüququnu geri qaytarmağa cəhd göstərən fağır bir şəxsin üzünü gözünüzün qarşısında canlandırın. O, idarə işçisinin yanına daxil olaraq haqqını istəyəcəkdir. Sonuncu ona bildirəcəkdir ki, istəyini yazsın, zərfə qoyub üstünə marka yapışdırsın, daha sonra poçtla göndərsin. Bütün bunlar məktubun müdirə çatması, ədalətli-ədalətsiz qərar çıxarmasına qədər olan rəsmi-bürokratik işlərdir.

Bu şəxsin vəziyyətini başqa bəxtəvər birisinin vəziyyəti ilə müqayisə edin. O, şöbə müdiri ilə bərk dostdur. Ərizələrə baxıb müsbət, yaxud mənfi qərar vermək isə müdirin əlindədir. O, ədalətli olub, insafsız deyildir, müdrikdir, heç vaxt səhv etmir...

"Ancaq Səndən kömək istəyirik" də bu kimi şeydir. Amma yenə də Allahı insanlarla müqayisə etmək olmaz. Ən yaxşı misal Allaha aiddir!

Bəzi kiçik işçilər əmr edib tələb qoyurlar ki, məhz ona müraciət edəsən, ondan istəyəsən. Hələ bu harasıdır: onlar həddi aşaraq özlərinə müəyyən titullar qazandırır və səndən tələb edirlər ki, bu titulları sadalayaraq onlara əl açasan. Onlar "Fatihə" surəsində göstərilmiş xüsusiyyətləri özlərinə aid edib elə vəziyyət yaradırlar ki, özünü onların qulu hesab edəsən. Onlar özlərini sənin rəbbin, səndən cavabdeh tərəf, maraqlarının təminatçısı kimi aparırlar. "Ancaq Sənə ibadət edirik" zehniyyətidir bu...

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Uca Allah buyurur: “Namazı (“Fatihə”ni) qulumla aramda yarıbayarı böldüm. Bir yarısı Mənim, digər yarısı qulumundur. Quluma dilədiyi düşər. Qul: “Aləmlərin rəbbi Allaha həmd olsun!” – dedikdə Allah buyurar: “Qulum mənə həmd etdi.” (Qul:) “Mərhəmətli və Rəhimliyə”, – dedikdə (Allah) buyurar: “Qulum Məni təriflədi.” (Qul:) “Din gününün sahibinə”, – dedikdə (Allah) buyurar: “Qulum Məni uca tutdu.” (Qul:) “Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik”, – dedikdə (Allah) buyurar: “Bu, qulumla Mənim aramdadır. Quluma dilədiyi düşər.” (Qul:) “Bizi düz yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!” – dedikdə (Allah) buyurar: “Bu, qulumundur. Quluma dilədiyi düşər”[40].

Budur gəlib çatdıq surənin ortasındakı ayəyə. Ayənin yarısı surənin yarısıdır. Burada tərif, təqdis və təsbih başa çatır, dua, istək və yalvarma isə başlanır. Bu məqamda Allahdan istədiyini diləyirsən: “Ancaq Səndən kömək istəyirik”.

Eyni ayədəki iki fərqli cəhətin heyrətamiz özünəməxsusluğu bizə təlqin edir ki, ayənin ikinci “Ancaq Səndən kömək istəyirik” hissəsinə keçmək üçün ilk “Ancaq sənə ibadət edir” yarısını tilavət edərkən bir anlığa dayanaq. Rəvayət olunur ki, Həzrəti Əli *(Allah ondan razı qalsın!)* demişdir: “Nə`budu” (ibadət edirik) sözünü elə oxumaq lazımdır ki, “dəl” doyuzdurularaq ondan “vav” doğulsun”[41]. Bu da onu göstərir ki, uzatmadan əvvəlki söz sonrakından ayrıdır, özünəməxsusdur.

---

[40] Hədisi Əbu Hüreyrəyə istinadən İmam Müslim rəvayət etmişdir.

[41] Şahin Abdussabur. Quranın tarixi. Qahirə: “Qələm”, 1961, səh. 175.

Sən bu iki sözü namaz qılarkən təkrar etdiyində iki fərqli mövqe qarşısında dayandığını hiss etmişsənmi? Ayənin birinci "Ancaq Sənə ibadət edirik" hissəsinin tələffüz intonasiyası ikinci "Ancaq Səndən kömək istəyirik" hissəsininki kimi deyildir. Unutma ki, sən indi müqavilədəki birinci tərəfə aid hissədən ikinci tərəfə aid hissəyə keçirsən.

"Ancaq Sənə ibadət edirik" ayəsini tələffüz etdikdə səsimizə həyatda asılı olduğumuz varlığa ehtiram və təzim intonasiyası hakim kəsilir. Lakin "Ancaq Səndən kömək istəyirik" ayəsini tələffüz etdikdə səs tonumuz alçalır, xahiş, yalvarış və ümid ifadə edir. Hiss edirsən ki, cavab, rəhmət və kömək "yağmur"u bu güclü mənbədən üzərinə yağır. Niyə də olmasın?! Qarşındakı – müraciət etdiyində eşidir. Əgər O sənə qarşı çıxsa, kimə sığınacaqsan? Yox, səninlə olsa, kim sənə qarşı çıxa bilər?!

Bu, Allah Təalanın bəndəsi ilə bölüşdüyü ayədir. Allah bu ayə ilə namaz qılan bəndəsinə ən xoş vədi vermişdir. "Bəndəmə dilədiyi verilər".

Cavab almağa ümid edərək: "Ancaq Səndən kömək istəyirik", – de. Günəşli havada insanlarla yağış duasına çıxarkən qoltuğunda çətir daşıyan şəxsin inamıdır bu!

# Bizi düz yola çıxar.
# ... kəslərin yoluna...

Üzünə tərif qapısı açıldı və sən Allaha tərif dedin, rəhmət qapıları açıldı, rəhmət istədin, istək imkanı tanındı, istədin. İndi isə Allah səndən daha böyük şeyi istəyir. Bəlkə də, həyatda Allahdan istəyə biləcəyimiz ən böyük şeydir bu! Doğru yolda olmaq! Bu yoldan sapmaq qədər qorxduğumuz ikinci bir şey varmı?

Təsəvvür edin ki, sizə heç kəsdə olmayan var-dövlət, mal-mülk, sağlamlıq, xoşbəxtlik verilib. Amma Allah bunun müqabilində sizi tövhid və hidayətdən məhrum edib. Elə isə bütün bu var-dövlətin, mal-mülkün, sağlamlığın nə faydası var?! Dünya səadətimi? Axirətdən məhrumuqsa, dünya səadətinin bir mənası yoxdur. Əbədi həyatdakı – cənnət və ya cəhənnəmdəki bir anın yanında dünyada yaşadığımız yüz, min, yüz min, milyon il nədir ki!

"Kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət, gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər..." (ən-Nur, 39).

"Qiyamət günü dünyanın ən varlı kafirini (Allahın qarşısına) gətirəcəklər. Səs eşidiləcək ki: "Onu cəhənnəmə bir dəfə daxil edib çıxarın." Həmin şəxs cəhənnəmə daxil edildikdən sonra çıxarılacaqdır. Ona sual veriləcəkdir: "Ey filankəs, heç naz-nemət içində yaşayıbsanmı?" Deyəcəkdir: "Xeyr, heç naz-nemət içində yaşamamışam." Daha sonra şiddətli bəlalara məruz qalmış mömini gətirəcəklər. Səs eşidiləcək ki: "Onu cənnətə bir dəfə salıb çıxarın." Həmin şəxsi cənnətə bir

dəfə daxil edib çıxaracaqlar. Ona sual veriləcək ki: "Ey filankəs, əzab-əziyyət nədir bilirsənmi?" Deyəcəkdir: "Xeyr, əzab-əziyyət nədir bilmirəm"[42].

"Ancaq Səndən kömək istəyirik" ayəsini oxuyarkən hiss etdiyimiz ləzzət ondan birbaşa sonra oxuduğumuz "Bizi doğru yola yönəlt" ayəsinin verdiyi ləzzətdən fərqlənir. Birinci ayədə dünyanı, ikincisində isə axirəti istəyirik. Amma ikinci ayədə də söhbətin dünya işlərindən getməsi mümkündür. "Doğru yol" açıq ifadədir; onun tövhid və hidayətlə yanaşı, müdriklik, kamillik, uzaqgörənlik bildirməsi də mümkündür. Bir insana verilmiş sağlam düşüncə qədər böyük nemət varmı? Sağlam düşünən insanlar həm kömək istəyər, həm də kömək edərlər.

Bu açıqlıq "Fatihə" surəsində təkcə "yol" sözünə aid olmayıb, həm də surənin son hissəsini əhatə edir. "Nemət bəxş etdiyin kimsələr", "qəzəbə düçar olmuşlar" və "azmışlar" kimlərdir? Ardıcıllıqla götürsək, onlar, bir çox müfəssirin dediyi kimi, müsəlmanlar, yəhudilər və xristianlardırmı? Bir hədisdə deyilir:

"Qəzəbə düçar olmuşlar" – yəhudilər, "azmışlar" isə xristianlardır"[43].

Hər üç ibarə qrammatik cəhətdən tamdır. Lakin biz bu üç ibarəni onların qarşılığı sayılan bəşər sözləri ilə müqayisə etsək, onlardakı açıqlığın mahiyyətini dərk edəcəyik.

Bu üç açıq ibarəni qapalı alternativ ibarələrlə əvəzləsək, iki üslub arasındakı fərq aşağıdakı kimi olacaqdır:

---

[42] Hədisi Ənəs ibn Malikə istinadən İbn Macə rəvayət etmişdir. Əlbaniyə görə hədis səhihdir.

[43] Hədis Ədiyy ibn Hatim ət-Tai və Əbu Zərr əl-Ğifariyə istinadən rəvayət edilmişdir. Əlbaniyə görə hədis səhihdir.

Bizə doğru yol bəxş et –
– Müsəlmanların yolunu,
Yəhudi və xristianların deyil!

Sizə Quranın ifadə üslubundakı kamillik aydın oldumu? Bu üslub "nemət bəxş etdiyin kimsələr" ibarəsinin mənasını açır və söhbətin nemət verilmiş hər kəsdən getdiyini bildirir; "qəzəbə düçar olmuşlar" ibarəsinin mənasını açır və söhbətin Allahın qəzəbinə düçar olmuş hər kəsdən getdiyini bildirir; "azmışlar" ibarəsinin mənasını açır və söhbətin doğru yoldan ayrılmış hər kəsdən getdiyini bildirir. Təbii ki, biz Peyğəmbərin ayələrə verdiyi izahı sərf-nəzər etmirik, amma Qurandakı bu üç ibarənin məzmununu qapalı və dar çərçivəyə salıb, konkret qrup insanla məhdudlaşdırmırıq.

"Bizi doğru yola yönəlt" ayəsini oxuduğumuzda bilməliyik ki, Allahın hikməti səbəbindən o da namazda oxuduğumuz digər ibarələr kimi mənaca açıqlıq ifadə edir. Belə ki biz onun məzmununu istədiyimiz qədər "açır", yer üzündəki hər bir canlıya şamil edirik. Yaxud onu dar çərçivəyə salıb ancaq özümüzə aid etmək mümkündür. Amma ayənin əmr bildirən felinə aid əvəzlik təkdə olmayıb cəmdədir: **bizi** yönəlt. Əgər belədirsə, onda bu ayəni oxuduqda hər kəsi: ata və ananızı, qardaşlarınızı, bacılarınızı, övladlarınızı, qonşuları, qohumları, tanışları, dostları, hətta bütün dünyadakıları: dost və düşməni, müsəlman olanları və olmayanları duanıza daxil edin. Allahdan hər kəsə: dosta, düşmənə, bütün bəşəriyyətə haqqı göstərməyi, onları doğru yola çıxarmağı istəmək qədər böyük dilək vardırmı?!

Unutma: Hər kəsi əhatə etməsi üçün ayədəki "bizi" əvəzliyi maneəsini yıxmaq hər kəslə arandakı nifrət baryerini yıxmağın deməkdir. Bu baryeri yıxmaqla uşaqlarına kiçik yaşlarından islama nifrət şüuru aşıla-

yan kinli-küdurətli şəxslərə qarşı qəlbində sevgi və dözümlülük bayrağını dalğalandırmış, özünü buna hazırlamış olursan! Aşağıdakı qızıl qaydanı heç vaxt unutma: Müsəlmansansa, sevənsən, tolerantsan!

"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!" (əl-Əraf, 199);

"Hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir" (əş-Şura, 40);

"Onları əfv etsəniz, (təqsirlərindən) keçsəniz və bağışlasanız (daha yaxşı olar). Çünki Allah (günahları çox) bağışlayandır, rəhm edəndir!" (ət-Təğabun, 14).

## “Fatihə” surəsində uzatma yerləri

Əgər uzatma adi dayanmadırsa, onda onun söz və ibarələrə fasilə (pauza) sayəsində özünəməxsusluq və “müstəqillik” qazandırması təbiidir. Çünki zaman fasiləsi bizə düşünmək, uzatmanın olduğu söz və ibarənin mənasını xəyalən canlandırmaq imkanı verir.

Qiraətdə tam dayanma ilə uzatma arasındakı fərqi görməyi bacarmalıyıq. Uzatma pauzanın (dayanmanın) bir forması, yaxud yarım pauzadır. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həm “Fatihə” surəsini oxumazdan əvvəl, həm də surəni oxumağa başladıqda hər ayənin sonunda qiraətinə fasilə verərdi. Bu, ayələri bir-birindən ayıran “yaşıl sahə” deməkdir. Ayələri bir-birindən ayıran uzatma fasilələrinə gəlincə, qiraətimizə daha çox daxili mütilik (***xüşu***) bəxş etmək, bizdə ayələrin mənası haqqında əyani təsəvvür yaratmaq, əvvəlki ayələr haqqında düşünüb sonrakı ayələrə hazırlaşmaq baxımından qarşımızda geniş “yaşıl sahələr” açır. “Fatihə” surəsini əmələ gətirən 29 sözdə 21 fonetik uzatma hadisəsi mövcuddur. Ayələrin sonundakı təbii fasilə yerlərinin sayı isə yeddidir. “Fatihə” surəsinə xas bu cür uzatma “yük”ünə adi danışıq və yazı dilimizdə, hətta digər surələrin çoxunda rast gəlmək mümkün deyildir.

Ancaq “Fatihə” surəsinə xas və əksər hallarda təcvid qaydalarına uyğun gəlməyən bu cür davamlı uzatma hadisəsi namaz qılan şəxsin Allah haqqında düşünməsinə, Ona təslim olmasına kömək edir.

Misal olaraq, “Kövsər” və “İxlas” surələrindəki uzatma hallarını hesablasaq, görəcəyik ki, birincidə üç

(innə, ə`taynəkə, şəniəkə)[44] , ikincidə isə dörd uzatma hadisəsi (Allah, Allah, yuləd, lləhu) mövcuddur. Birinci surədəki sözlərin sayı on, ikincisində isə on beşdir.

Əvvələ qayıdaraq bir daha xatırladıram ki, bu kitabdakı təhlil və fərziyyələr insan beyninin məhsulu olub, tənqidə açıqdır. Əgər tutarlı əks arqument vardırsa, biz onu qəbul etməyə hazırıq, – müsəlmana yaraşan da budur.

---

[44] Transkripsiyada altından xətt çəkilmiş saitlər uzun tələffüz edilən səsləri göstərir – ***tərcüməçinin qeydi***.

# Rüku və səcdələrdəki mərkəzlilik

Qırx yaşımda ilk dəfə həccə getdiyimdə bədənimi iki hissəlik parça ilə örtüb Kə`bənin ətrafında uşaq kimi dövrə vururdum. Şeytan məni tovlamağa başlamışdı: universitetdəki tələbələrin səni bu vəziyyətdə görsələr, halın necə olar? Aralarında müsəlman olanı da var, olmayanı da. Deyəcəklər: “Müəllimimizə nə baş verib? Bu şəxs qarşımıza vüqarla çıxan, addımlarını aramla atan, hərəkətlərinə fikir verən müəllimimizdirmi” Amma Allahın köməyi ilə iman və bəndəlik şüuru məndən bu vəsvəsələri uzaqlaşdırdı. Xatırladım ki, müsəlmanam!

Müsəlmanam, yəni tabeyəm, təslim olanam, zəifəm, qulam, daha doğrusu, Qüdrətli, Böyük, Əzəmətli Allahın yanında heç nəyəm. O Allahın ki, göylər və yer Onundur, dirildir və öldürür, hər şeyə qadirdir.

Sonralar ibadət vaxtı nəfsimi rəbbimə təslim edib cilovlayarkən bu iman yelləri mənə mənəvi sərinlik gətirirdi. Rükuya gedib: “Subhənə rabbiyəl-azim”, – dediyimdə, deməli, rəbbimi naqislikdən, zülmdən, zəiflikdən, yorğunluqdan, qəflətdən, mürgüdən... uzaq tutduğumda, sonra rükudan qalxıb qızıl qaydanı – “Səmiallahu limən həmidəh”i tələffüz etdiyimdə, məni yaratdığına, doğru yola yönəltdiyinə... görə Ona “Rabbənə və ləkəl-həmd” – deyə şükür etdiyimdə, daha sonra səcdəyə başımı qoyub Onu qüsur və naqislikdən bir daha uzaq bildiyimdə bu iman yelləri yenidən əsir və mən Allaha səmadakı ən yüksək cisimdən daha yaxın olduğumu hiss edirdim.

“(Bir dəfə) Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qulamı Sövbanı gördüm. Dedim: “Mənə elə əməl haq-

qında danış ki, onu edib cənnəti qazanım (hədisin digər versiyasında: Mənə Allaha ən xoş gedən əməl haqqında danış...).” Susdu. Təkrar soruşdum. Yenə susdu. Üçüncü dəfə sual etdiyimdə dedi: “Peyğəmbərdən bu barədə soruşmuşdum. Demişdi: “Allaha uzun-uzadı səcdə et. Etdiyin elə bir səcdə yoxdur ki, Allah (bu səcdəyə görə) səni bir dərəcə yüksəldib, bir günahını da silməsin”[45].

Bəzi şəxslərin namazda, hər rükət və səcdə arasında oğurluq etdiklərini təsəvvürünüzə gətirə bilirsinizmi? Qəribəsi budur ki, onlar başqalarından deyil, özlərindən oğurluq edirlər.

Bir dəfə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanındakılardan soruşdu: “Çaxır içən, zina və oğurluq edən şəxslər haqqında nə düşünürsünüz?” (Həmin vaxt “hədd” cəzaları hələ müəyyənləşdirilməmişdi). Dedilər: “Allah və peyğəmbəri daha yaxşı bilir.” Buyurdu: “Bu əməllər pozğun əməllərdir, bu əməllərə görə cəza vardır. Ən pis oğru namazından oğurlayandır.” Yanındakılar soruşdular: “O öz namazından necə oğurlayır?” Peyğəmbər dedi: “Rüku və səcdələrini tam şəkildə yerinə yetirmir”[46].

Nə üçün də olmasın? Məgər namaz bizə Allahın mükafatı deyil?! Namaz mükafatı əsasında hesabımıza gündəlik məvacib yüklənir. Allah günün məlum saatlarında axirət hesabımıza istədiyi qədər məbləğ köçürür. Amma çoxumuz namazı oyun-oyuncağa çevirib; o bizim üçün vaxt itkisidir artıq. Çoxumuzun nəzərində

---

[45] Hədisi Mə`dən ibn Təlhəyə istinadən İmam Buxari və İmam Müslim rəvayət etmişlər.

[46] Hədis Nö`man ibn Mürrəyə istinadən rəvayət edilmişdir. Əlbaniyə görə, hədis səhihdir.

namaz borcdan vəzifəyə, tələsik hərəkət və sözlərə çevrilmişdir.

"Namaz üç hissədir: paklanma üçdə birdir, rüku üçdə birdir, səcdə üçdə birdir. Kim onları layiqi ilə yerinə yetirərsə, namazı və digər əməlləri qəbul edilər. Namazı qəbul edilməyənin digər əməlləri də qəbul edilməz"[47].

Əgər namazın üçdə biri rükunun, digər üçdə biri isə səcdənin payına düşürsə, onda yer nə qalır?! Unutmayaq: namazda bizə vacib edilən yeganə hərəkətlər rüku və səcdədir. Namaza başlayarkən tərpənmədən ayaqüstü dayanırıq, başa vurarkən hərəkətsiz otururuq. Bu iki tərpənməzlik arasında iki hərəkətlilik vardır: rüku və səcdə.

Görürsünüzmü, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səssizliklə hərəkəti vəhdətdə götürmüşdür. Açıq ibarələrlə müşayiət edilən istənilən hərəkət (həm də nitq) gözləmə, fasilə, səssizlik və düşünmə tələb edir.

Biz "Allah böyükdür" sözlərini təkrar edirik. Bu sözlərin məzmununda açıqlıq vardır. Bu açıqlıq həmin sözlərdən sonra azacıq fasilə verib düşünməyi labüd edir: Allah nədən və kimdən böyükdür?

Biz "Allah Ona həmd edəni eşidir" və "Rəbbimiz, həmd Sənədir" sözlərini təkrar edirik. Bu sözlərin məzmununda açıqlıq vardır. Bu açıqlıq həmin sözlərdən sonra azacıq fasilə verib düşünməyi labüd edir: Nəyə görə Allaha həmd edirik?

Biz "Əzəmətli rəbbim uzaqdır" və "Uca rəbbim uzaqdır" sözlərini təkrar edirik. Bu sözlərin məzmununda açıqlıq vardır. Bu açıqlıq həmin sözlərdən sonra azacıq fasilə verib düşünməyi labüd edir: Allah nədən uzaqdır

---

[47] Hədis Əbu Hüreyrəyə istinadən rəvayət edilmişdir. Əlbaniyə görə, hədis səhihdir.

(xalidir)? Allahı nəyə görə naqis keyfiyyətlərdən uzaq (xali) hesab edirik?

Bu üzdən namazda rüku və səcdələrə üçdə iki pay düşür. Hər dəfə "Əzəmətli rəbbim uzaqdır" və "Uca rəbbim uzaqdır" sözlərini təkrarlayarkən Allahın əzəməti və böyüklüyünü xəyalımızda canlandırmağımıza kömək edəcək istənilən şeyi təsəvvürümüzə gətirməliyik...

Qoy hər bir "təsbih", hər bir namaz adət deyil, ibadət olsun!

"Allah böyükdür" insana səbir aşılayır, həyatda üz-üzə gəldiyimiz sınaq və çətinliklər qarşısında bizi gücləndirir.

"Həmd aləmlərin rəbbi Allahadır" və "Rəbbimiz, həmd Sənədir" sözləri bizə yadasalma şüuru bəxş edir. Nəticədə Allahın bizə bəxş etdiyi nemətləri təsəvvürümüzdə canlandırır, ilahi lütfə görə şükür edirik.

"Əzəmətli rəbbim uzaqdır" və "Uca rəbbim uzaqdır" sözləri Allahın əzəməti, yaradıcılığı haqqında düşünməyə qapılar açır.

Namaz dünya və axirətin üçün sərmayə olsun. O kəslərdən ol ki, bütün əzaları, ağıl və qəlbləri ilə səcdəyə gedir, Allahı təqdis edirlər.

# Üç nömrəli qırmızı açar: “ət-Təhiyyətu lilləh...”

Allahı salamlamaq nə deməkdir bilirsinizmi? Onun qarşısında oturmuşsunuz; O, dərkedilməz aləmdən sizə baxır və siz Ona deyirsiniz: “Səni salamlayıram, Allahım”.

Əvvəl atdığın addımlar bu böyük ana çatmağına kömək edəcək hazırlıq mərhələsini əmələ gətirir. Həmin addımlar imkan verir ki, namütənahi səmaları aşmaq üçün lazımi enerjiyə sahib olasan. Bu mənəvi enerjinin sayəsində uzaq məsafələr qət edir, qeyri-adi dayanma ilə Allahı salamlayır və əlçatmaz mükafat qazanırsan.

Allaha salam verdiyini hiss etmək nə böyük mərtəbə, nə böyük məqamdır! Təsəvvür edin ki, bu məqamda deyirsiniz: “Səni salamlayıram, Allahım!” Siz yüksəkdəsiniz, heç bir dayaq və vasitəyə ehtiyac hiss etmirsiniz, Allah necə də ucadır, əzəmətlidir...

Bu görüşü layiqi ilə hiss edə bilsən, müqayisəedilməz həzz və ən nəfis mükafatdır.

“Təhiyyat” duasını oxuyarkən bir deyil, dörd dəfə salam veririk. Əvvəlcə, Böyük Yaradana Ona məxsus formada salam veririk: “ət-təhiyyətu lilləh” (Salamlar Allah üçündür). Sonra Peyğəmbərlə üz-üzə dayanıb, onu da bu ətirli salam formalarından biri ilə salamlayırıq: “əs-sələmu ələykə əyyuhən-nəbiyyu” (sənə salam olsun, ey Peyğəmbər). Məhz bu əsnada böyük hədiyyə qazanırıq: üçüncü salamı özümüzə veririk: “əs-sələmu ələynə” (bizə salam olsun). Bütün bunlardan sonra dördüncü salamı verməklə müqəddəs salamlar silsiləsini tamamlayırıq: “və ələ ibədilləhis-salihin” (Allahın əməlisaleh bəndələrinə salam olsun).

Bu dörd salam arasında bir neçə “yaşıl sahə” mövcuddur. Bundan əvvəl dedik ki, belə “yaşıl sahələr” namazda mühüm qrammatik element rolunu oynayır. Onlar mənaya açıqlıq bəxş edir və biz əsas “qırmızı” qrammatik formalardan sonra zəngin qrammatik ərazilərə sahib olur, nəticədə zaman qazanırıq. Bu müddət bizə ona görə lazımdır ki, həmin qrammatik formaları tələffüz etdikdən sonra hər birinin məzmunu haqqında düşünək, mahiyyətini dərk edək.

Təsəvvür edin ki, “təhiyyat” duası bu formadadır: “ət-təhiyyətu lilləhi, əs-sələmu alən-nəbiyyi və aləynə və aləs-salihin”. Yəni tələsik üslubda olub, düşünməyə imkan verən əlavə “yaşıl ərazilər”ə sahib deyildir.

Yaxud daha sürətlə deyilən formadadır: “ət-təhiyyətu lilləhi və lirasulihi və lənə və lis-salihin”.

Fikir verin: yuxarıdakı formalar məzmunu dəyişmir, amma orijinal mətndəki mənanı bütövlükdə verə bilmir, bir sıra məqamları ehtiva etmir.

Bu formalar zaman sarıdan kasaddır, nəticədə “ət-təhiyyətu lilləh” duasını oxuyub Allaha salam verdikdən sonra bu qeyri-adi məqamdan həzz almırıq. Halbuki orijinal mətndəki forma namaz qılan şəxsə kifayət qədər vaxt tanıyır və o bu müddət ərzində verdiyi salama cavab olaraq Allah Təalanın rəhmət və bərəkətinin axaraq onu başdan ayağadək yuduğunu hiss edir. Salam verəni Allahın salamlamasının təzahürüdür bu! “Təhiyyat” duasının orijinal forması göstərir ki, Allah Ona veriləcək salamın uzun və “yaşıl ərazili” olmağını istəyir. Bunun üçün siz sözlərin sonundakı hərfi saitsiz (sukunla) deyin, bununla da, həmin sözlər sizinlə daha çox qalacaq və siz daha uzun müddət əldə edəcəksiniz:

“ət-təhiyyətu ... lilləh... vəs-saləvət... ət-tayyibət... əz-zəkiyət... əl-mubərakət...”.

Eyni şeyi sonrakı salama da tətbiq edirik: “əs-sələmu ələykə əyyuhən-nəbiyyu...”.

Allahın ən sevimli bəndəsinə – Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* salam verdikdə iki dəfə həzz alırıq. Bu anlara lazımi qədər vaxt ayırmalıyıq ki, həzzimiz iki dəfə olsun.

Birincisi qarşında dayanıbmış kimi Peyğəmbərə salam verməyin həzzidir. Özü də elə bir vaxtda ki, Allaha salam verməyin həzzini yaşamışsan. Əminsən ki, Allah sənin salamını eşitmişdir.

Peyğəmbərin sənə salam qaytardığını hiss etdikdə ikinci həzzini yaşayırsan. Əminsən ki, Allah Peyğəmbəri sənə salam verməsi üçün həyata qaytarmışdır:

“Elə biriniz yoxdur ki, salam verdiyində salamını almağım üçün Allah ruhumu mənə qaytarmasın”[48].

Daha heyrətamizi budur ki, salam verib xeyir-dua göndərdiyində Allah da peyğəmbəri ilə birlikdə sənə salam qaytarır. Qüdsi hədisdə deyilir:

“Cümə günü mənə çoxlu salavat deyin. (Bir dəfə) Cəbrayıl yuxarıdan – rəbbinin dərgahından yanıma gələrək dedi: “Allah buyurur: “Yer üzündə sənə bir dəfə salavat deyən elə müsəlman yoxdur ki, Mən və mələklərim ona on dəfə xeyir-dua etməyək”[49].

Nə böyük salam! Nə böyük xeyir-dua! Nə böyük mükafat! Allahın sənə verdiyi salamın nə böyük mükafat olduğunu dərk edirsənmi? Allahın əmri ilə milyonlarla mələyin salamını bəs necə? Özü də bir deyil, on dəfə! Namazda və xaricində bircə salavata görə on dəfə xeyir-dua almaq necə də xoşdur!

---

[48] Hədisi Əbu Hüreyrəyə istinadən “Fitvalar məcmuəsi”ndə İbn Teymiyyə və İmam Nəvəvi rəvayət etmişlər.
[49] Hədis Ənəs ibn Malikə istinadən rəvayət edilmişdir. Əlbaniyə görə, hədis səhihdir.

# Dörd nömrəli qırmızı açar: “Əs-sələmu aləynə və alə ibədilləhis-salihin”[50]

Bu adi salam olmayıb, əvvəlcə Allaha, sonra peyğəmbərinə verdiyin salamın mükafatıdır. Prezidentin, yaxud kralın ziyarətinə getmiş şəxsə sarayı tərk edərkən adətən qonaqlara verilən nəfis hədiyyə təqdim edirlər. Prezident verdiyi üçün həmin hədiyyələr adi olmur.

Kralları, prezidentləri, yeri və göyləri yaradan Allahın onu salamlamağa gələn şəxsə hədiyyəsi nə olacaqdır? Allahın hədiyyəsi təsəvvür etdiyimizdən də böyük və nəfisdir! Bu hədiyyələrin sayı milyardlarladır və sən onları Adəmdən bu yana Allahın yaratdığı və Qiyamət gününədək yaradacağı əməlisaleh insanların sayına görə alırsan. Çünki əməlisaleh bəndələrə salam vermək savablı işdir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Kim “əs-sələmu aləykum” deyərsə, on savab qazanar. Kim “əs-sələmu aləykum və rahmətullah” deyərsə, iyirmi savab qazanar. Kim də ki “əs-sələmu aləykum və rəhmətullahi və bərakətuh” deyərsə, otuz savab qazanar”[51].

Elə ki namazında bu iki salamı verdin, iki hədiyyənin sənə göndərildiyini hiss edəcəksən:

---

[50] **Tərcüməsi**: “bizə və Allahın əməlisaleh bəndələrinə salam olsun!”

[51] Hədis Süheyl ibn Hənifə istinadən rəvayət edilmişdir. Əlbaniyə görə, hədis səhihdir.

Birincisi kəsilməz ilahi salamdır. Hiss edirsən ki, bu salam sənə, ailənə, sevdiklərinə göndərilir və Allahdan gələn rəhmət, lütf, əmin-amanlıq sizi bürüyür.

İkincisi saysız-hesabsız savabdır. Allahın saysız-hesabsız əməlisaleh bəndələrinə verdiyin salam sənə o qədər savab gətirir ki, başından axıb tökülür, rəhmət, sükunət, lütf, xatircəmlik səni çulğayır.

Bir daha diqqət yetir: salam təkcə sənə verilmir, çünki duanın mətnində "bizə" sözü işlədilmişdir, yəni salam hamıyadır. Təkcə özünə salam verməklə ətrafındakı insanlara: sevdiklərinə, qohum-əqrəbaya, yaxın-uzaq möminlərə, yer üzündəki bütün əməlisaleh bəndələr salam vermək başqa-başqa şeylərdir.

Axırda, "təhiyyat", "təşəhhüd", "salavati-ibrahimiyyə" dualarını "verib-almaq" surəti ilə oxu. Sən namazda təkcə verən, ötürən tərəf deyilsən. Əmin ol ki, hər sözü tələffüz etdikdən dərhal sonra savab qazanacaqsan. Oxuyaraq ver, sonra bir qədər gözlə ki, verdiyinin mükafatını alasan. Oxu, gözlə, oxu gözlə... bu minvalla davam et:

"Ət-təhiyyətu lilləh"i ver, gözlə, cavabdan həzz al;

"Vəs-saləvətu"nu ver, gözlə, cavabdan həzz al;

"Vət-tayyibətu"nu ver, gözlə, cavabdan həzz al;

"Allahumə salli alə Muhəmmədin"i ver, gözlə, cavab və savabdan həzz al;

"Və alə əli Muhəmmədin"i ver, gözlə, cavab və savabdan həzz al və s.

Bütün bunlardan sonra hələ də düşünürsənmi ki, namaz tez qılıb canını qurtarmaq istədiyin vəzifədir? Bundan sonra namaz qılarkən dünyanın ən böyük mükafatını almağa yaxın olduğunu hiss edəcəksənmi? Namaz qıldıqdan sonra yenidən dünya gəldiyini hiss etmirsənsə, xeyir bütövlükdə əlindən çıxmışdır.

# Dua üçün oturmaq

Dua namazın sadə formasıdır. Duada namazın ruhu vardır, amma o, namaz kimi, rəsmi çərçivəyə, qaydalara sahib deyildir, xüsusi hazırlıq və icra tələb etmir, konkret vaxtlarda icra edilmir. O, sərbəst və mobil namaz növüdür; hər an "zəng" çalmaqla sənə sürpriz edə bilər; onu istənilən vəziyyətdə icra etməkdə çətinlik çəkmirsən.

Yeri gəlmişkən, ingilis dili ilə əlaqəli bir fakta toxunmaq istəyirəm. İngilis dilində namaz qılmaq və dua etmək felləri bir sözlə – "pray" sözü ilə ifadə edilir. Bu cür qrammatik kumulyasiya göstərir ki, müraciət forma baxımından Allaha olduğu üçün dua namazın bir formasıdır. Bu fakta əsasən görürük ki, Peyğəmbərin dua üslubu danışıq üslubundan fərqlənir. Belə ki onun dua üslubunda Allaha, danışıq üslubunda isə bizə müraciət vardır. Ərəb dilinin üslubiyyat məsələlərini dərindən bilənlərə məlumdur ki, Peyğəmbərin dua üslubu bəlağət, ifadə gözəlliyi, həmahənglik, təsir və ovsunlayıcılığı ilə onun danışıq üslubundan seçilir. Buna baxmayaraq, Peyğəmbərin danışıq üslubu ərəb dilində danışan və yazan hər kəsin üslubundan üstün və bəlağətlidir. Həmçinin yaxşı tənqidçi qüdsi hədislərlə adi hədislərin dil üslubundakı açıq-aydın fərqi müşahidə etməyi bacarır.

Dua dilində mənəvi qayğının olduğunu hiss edirik. Sanki, onun formalaşmasında Səma da iştirak etmişdir. Bu baxımdan dua dili qüdsi hədislərin dilinə oxşayır. Bəlkə də, buna görə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dua sözləri və formalarını səhabələrinə olduğu kimi

əzbərlədirdi. Görün o, duada "nəbi" sözünün yerinə "rəsul" sözünün işlədilməsini necə düzəldir. Halbuki hər iki söz ərəb dilində "peyğəmbər" deməkdir.

"Bəra ibn Azib rəvayət edir ki, (bir dəfə) Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ona deyibmiş: "Yatmağın gəldiyində ...dəstəmaz al. Sonra sağ böyürün üstə uzanıb de: "Allahım, özümü Sənə təslim etdim. Üzümü Sənə tutdum. İşlərimi Sənə həvalə etdim. Səni sevdiyim və Səndən qorxduğum üçün belimi Sənə dayadım. Səndən ancaq Sənə sığınıram, Səndən qurtuluş ancaq Sənə üz tutmaqla mümkündür. Nazil etdiyin kitabına, göndərdiyin peyğəmbərinə iman etdim."

(Peyğəmbər deyir:) "Əgər (bu sözləri dediyin) gecə ölsən, fitrət üzrə (günahlardan paklanaraq) ölərsən. Qoy bu sözlər danışacağın son sözlər olsun[52]".

Bəra deyir: "Duanı Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanında təkrar etdim. "Nazil etdiyin kitabına, göndərdiyin" sözlərinə çatdıqda "rasulikə" sözünü işlətdim. Dedi: "Yox, (düz demədin). "və nəbiyyikə"[53].

Səhabələr danışırdılar ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Quran ayələrini necə əzbərə öyrədirdisə, bəzi duaları da o cür öyrədirmiş. O, həmin duaların olduğu kimi əzbərlənməsini istəyirdi.

"İbn Abbas *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aşağıdakı duanı onlara sanki Quran əzbərlədirmiş kimi öyrətmişdi. Belə ki demişdi: "Deyin: "Allahım, cəhənnəm əzabından Sənə sığınırıq.

---

52 Yəni, bu sözlər yatarkən deyəcəyin son sözlər olsun – ***tərcüməçinin qeydi.***

53 Hədisi İmam Buxari və İmam Müslim rəvayət etmişlər. Hədisin əslində "nəbiyyikə" sözü işlədilmişdir. Bəra "peyğəmbər" sözünün sinonimini – "rasulikə" sözünü işlətmiş, Peyğəmbər də onun səhvini düzəltmişdir – ***tərcüməçinin qeydi.***

Qəbir əzabından Sənə sığınırıq. Dəccal fitnəsindən Sənə sığınırıq. Həyat və ölüm fitnəsindən Sənə sığınırıq"[54].

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Qurandan bir surəni necə öyrədirdisə, "təşəhhüd"ü də bizə o cür öyrətmişdi"[55].

Hədisin başqa versiyasına görə, Abdullah ibn Ömər demişdir: "Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ona ("təşəhhüd" – ***mütərcim***) nə bir hərfin artırılmasını, nə də əskildilməsini istəyirdi".

[54] Hədisi İmam Müslim rəvayət etmişdir.

[55] Hədisi Abdullah ibn Abbasa istinadən İbn Macə rəvayət etmişdir. Hədis Əlbaniyə görə səhihdir.

# Balans

Görəsən, bizdən kimsə namazını qıldıqdan sonra əlinə qələm alıb bəzi hesabları aparıbmı, Allaha doğrudan üz tutduğunu, Allahla həqiqi rabitənin baş verdiyini, qəlbinin, heç olmazsa, bir dəfə, yaxud saniyələr ərzində riqqətə gəlib bədəninin əsdiyini hiss etdiyi anları qeyd edibmi? Yəni, namazdan, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə təqdim etdiyi cədvələ uyğun olaraq, payına düşəni hesablayıbmı?

"Əmmar ibn Yasir rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir: "İnsan namazını qılıb qurtardıqda ona namazının ya onda biri, ya doqquzda biri, ya səkkizdə biri, ya yeddidə biri, ya altıda biri, ya beşdə biri, ya dörddə biri, ya üçdə biri, ya da yarısı yazılar"[56].

Namazını hiss edərək qılmağa çalış. Əgər bunu birinci rükətdə edə bilməsən, ikincisində, üçüncüsündə, dördüncüsündə et; sünnə namazında edə bilməsən, vacib namazda et; sübh namazında edə bilməsən, günorta, əsr, axşam və yatsı namazlarında et; elə et ki, azı bir vacib, yaxud nafilə namazında ağlayasan, qəlbinlə titrəyəsən, Allahla əlaqənin həzzini yaşayasan. Bu, imanın ən zəif dərəcəsidir. Artıra bilsən, nə yaxşı! Axirət balansına artırılsın deyə həyat hesabına yatırdığın ən yaxşı gəlirdir bu!

Çox vaxt böyük mağazalar həvəsləndirici hədiyyə kampaniyasına start verirlər. Müştərilər mağazadan çıxmazdan əvvəl anket doldurur, oraya adlarını, telefon

---

[56] Hədisi Əmmar ibn Yasirə istinadən Əbu Davud və Nəsai rəvayət etmişlər. Hədis Əlbaniyə görə səhihdir.

nömrələrini, ev ünvanlarını yazırlar ki, hədiyyə qazandıqları təqdirdə xəbər tutsunlar.

Namaz qıldığında ilahi mağazaya daxil olur, onlarla anketi doldurursan. Hər anketin öz hədiyyəsi vardır. “Müştərilər” adi mağazadan fərqli olaraq, ilahi mağazada ancaq bir hədiyyə qazanmır, əksinə, bütün hədiyyələri udmaq şansları olur! Amma bir şərtlə: anketləri düzgün doldurmaq lazımdır!

Sən namazında ən böyük sərmayə layihəsinə girişir, az xərclə daha çox qazanırsan. Bu “layihə”də sənin gəlir əldə etməyinə zəmanət verilir. Bu nəhəng ticarət layihəsində səndən tələb olunan sərmayə, haradasa, sıfırdır. Zəkat ibadəti səndən var-dövlətinin 2.5 faizini verməyini tələb edir; həccə gedərkən sənə səfər, qalma, yemək xərcləri üçün pul lazım olur; oruc tutarkən yeməkdən, içməkdən və bir sıra halal əməllərdən imtina etməli, axırda fitrə sədəqəsi çıxmalısan. Namaza gəlincə, onun səndən tələb etdiyi “xərc” dəstəmaz alarkən işlətdiyin sudan, namazı qılarkən sərf etdiyin vaxtdan ibarətdir. Vəssalam, nə əlavə rüsum, nə də əlavə vergilər... Əvəzində, hesabına dərhal yatan böyük məbləğdə “pul” qazanırsan, hətta onun bir hissəsini hələ namazda ikən birbaşa sənə verirlər. Həmin hissəyə mənəvi və fiziki rahatlıq, daxili sakitlik, zehin açıqlığı, yenidən doğulmağını hiss etməyin və s. daxildir. Bəzi “hədiyyələr” (uğur, bərəkət, salamatlıq, duaların qəbulu) qablaşdırılaraq gözoxşayan qutularda dünyadakı ünvanına göndərilir. Yerdə qalanları isə axirətə saxlanılır. Söhbət günahların silinməsindən, saysız-hesabsız savabın “fond”a daxil edilməsindən gedir.

Belə bir layihə gəlir və zərərin qeydiyyatını aparmaq üçün xüsusi hesab dəftərinin tutulmasına layiq deyildirmi? Zərər dedikdə bizə məlum anlayışı nəzərdə

tutmuruq. Bu “zərər” kapitalın itirilməsi deyildir; o, kapitala əlavə edilməsi mümkün olan daha çox gəlirin itirilməsidir. Namazımız yalan və riyaya xidmət edərsə, kapitalımız, ən pis halda, dəyişməz qalacaqdır.

Qazanc və zərərlə əlaqəli bu yeni sərmayə anlayışına əsasən siz hər namazdan sonra gəlirlərinizi hesablaya bilərsinizmi? Bəs zehniniz bərk məşğul olduğu üçün namazda əldən çıxardığınız daha çox gəliri necə, onun da hesabını tutacaqsınızmı?

# Namazda qazandığımız "daş-qaşlar"ın siyahısı

Namaz hesabatlarını gözdən keçirərkən, hər şeydən əvvəl, barəsində danışdığımız beş cizgiyə onların hər birinə necə əməl etdiyini müəyyənləşdirmək üçün nəzər salmağı unutma. Bunlar vaxt, dil, bədən, qəlb və əməl cizgiləridir. Həmçinin bu hesabatları namaza ayırdığın dəqiqələrin sayı baxımından nəzərdən keçir; əgər ikirükətlik namazı iki, yaxud üç dəqiqədə qılmışsansa, bir daha qıl. Çünki bu müddət ərzində ancaq hərfləri tələffüz etmiş, sözlərin mənasını qavrayıb mənimsəməyibsən. Dil, bədən, qəlb və əməl cizgilərinə əməl etdikdə namazı mənimsəmiş sayılırsan. Buna da ki iki-üç dəqiqə kifayət etmir.

Hər bir müsəlman namazdan sonra çata biləcəyi təqribi dərəcələri ölçəcək "tərəzi"yə sahib olmalıdır. Təkcə ona məlumdur ki, namazını necə qılıb və namazı hansı dərəcədədir. Bu məqsədlə aşağıdakı sadə "tərəzi"dən istifadə etmək olar. Siz ondan istifadə edib namazdan sonrakı "gəlirlər"inizi hesablayacaq, namazınızı "çəkə" biləcəksiniz. Təbii ki, bütün bunlar nisbidir, qıldığımız namaza ən düzgün qiyməti ancaq Allah Təala verə bilər.

1. Əllərimizi qaldırıb "ehram" təkbiri gətirərkən hər şeyi tərk edib bu dünya ilə heç bir əlaqəsi olmayan başqa ülvi aləmə daxil olduğumuzu hiss etdikmi?

2. Hər dəfə "Allahu Əkbər" dedikdə namazdakı dalğınlıqdan ayılırıqmı? "Allahu Əkbər" deməyimiz bizi yenicə daxil olduğumuz mənəvi aləmdən yayındıran düşüncələri zehnimizdən qovurmu?

3. "Rəhman" sözündəki nur bizi başdan-ayağa (şaquli olaraq) neçə dəfə yuyub təmizləyib?[57] Bəs "Rəhim" sözü necə, bizi öz nuru ilə üfüqi şəkildə yuyubmu?[58] Bədənimiz və ruhumuz bütünlükdə paklanıbmı?

4. "Fatihə"də oxuduğumuz neçə sözün mənasına ruhən vara bilmişik? Xəyalımızda Allahın əzəmətini canlandıra bilmişikmi? Bu sözləri oxuyarkən daxilimizdə nəyinsə dəyişildiyini hiss edirikmi?

5. "Fatihə" və oxuduğumuz digər surələrdə hər ayədən sonra fasilə edib düşünmüşükmü?

6. "Bizi doğru yola yönəlt" ayəsini oxuduğumuzda ailəmizi, qohumlarımızı, dostlarımızı, müsəlmanları və qeyri-müsəlmanları, müsəlman və müsəlman olmayan düşmənlərimizi xəyalımızda canlandırmışıqmı? Ayənin mənasını hər kəsə şamil etmişikmi? Kin bəsləmədiyimiz üçün Allahdan onları doğru yola yönəltməyi istədiyimizdə göndərilən ani mükafatın ləzzətini hiss etmişikmi?

7. Hər dəfə "Allahu Əkbər" dedikdə, hər rüku və səcdə duasından sonra xəyalımızdakı "yaşıl" boşluğu doldurmağa cəhd göstərmişikmi? Buna neçə saniyəmizi sərf etmişik?

8. Namaz əsnasında aşağıdakı qırmızı "düymələr"dən neçəsini sıxmışıq? Neçəsinin verdiyi enerjinin daxilimizə axdığını, qəlbimizi titrətdiyini hiss etmişik?

***"Ancaq Səndən kömək diləyirik" düyməsi***. Bu sözləri dedikdən sonra hansı köməyi istədiyimizi hiss etmək, cəm formasında işlədilən bu ibarəyə daxil hər kəsi: həm özümüzü, həm də başqalarını xəyalımızda canlandırmaq üçün neçə saniyə ayırmışıq?

---

[57] Bu sözü deyərkən səmadan axıb tökülən və bizi paklayan rəhmət nəzərdə tutulur.

[58] Əzəldən əbədiyə uzanan davamlı rəhmət nəzərdə tutulur.

***"Salamlar Allahadır" düyməsi.*** Bu sözləri və sonrakı hissələri (vəs-saləvətu vət-tayyibətu) tələffüz edərkən uzatma və pauza nə qədər çəkmişdir? Aşağıdakı səhnəni ruhən hiss etməyə neçə saniyə vaxt ayırmışıq: Allahın hüzuruna daxil olur, Ona bizə öyrətdiyi formada salam verir, bu vaxt Allahı salamlamağın həzzini hiss edir, Allahın salama salamla cavab verməsinin ləzzətini yaşayırıq.

***"Ey Peyğəmbər, sənə salam, Allahın rəhmi və bərəkəti olsun" düyməsi***. Bu salamı verməyə, ondakı müəyyən hərfləri (əs-sələmu, Allahi, və bərakətuhu) uzun tələffüz etməyə nə qədər vaxt ayırmışıq? Peyğəmbəri salamlamağın həzzini yaşayıb, salama salamla qarşılıq verməsinin nəşəsini hiss etmişikmi?

***"Bizə və Allahın əməlisaleh bəndələrinə salam olsun" düyməsi***. Özümüzü, ətrafımızdakıları, harada və nə vaxt yaşamaqlarından asılı olmayaraq Allahın bütün əməlisaleh bəndələrini salamlayarkən həm bizim, həm də onların üzərinə pak salam damcılarının töküldüyünü, bizi və onları təmizlədiyini hiss etmişikmi? Bəs verdiyimiz hər salama görə Səmanın mükafatına layiq görüldükdə üstümüzə tökülən, bizi başdan-ayağadək paklayan, xəstəlik və yorğunluqdan, qayğı və narahatlıqdan xilas edən başqa damcıları necə: onları da hiss etmişikmi?

9. Vacib namazlarda əldən çıxardığımız bu "məqamlar"ın yerini əlavə (nafilə) namazlarda doldurmuşuqmu?

10. Səbir aşılayan bu yeni təlimdə uğur qazanmışıqmı? Səbir enerjisinin könlümüzə yükləndiyini, ruhumuz, bədənimiz, əxlaq və düşüncələrimizdən nəyinsə dəyişildiyini hiss etmişikmi?

# Namazda itirdiyimiz “daş-qaşlar”ın siyahısı

1. Namazda diqqətimizi yayındıran şeylərə qalib gəlməyimizi təmin edəcək neçə “Allahu Əkbər” əlimizdən çıxıb?

2. Neçə ayəni oxuyub mənası haqqında düşünməmişik?

3. Rüku və səcdədə neçə təsbih və salamı tutuquşu kimi təkrarlayıb, şirinliyi və məzmunundakı xoşməzəliyi hiss etməmişik, xəyali “yaşıl” boşluğu doldurmamışıq?

4. Səcdəyə gedərkən neçə dəfə paltarımızı, saçımızı oynatmışıq, əl və digər əzalarımızı hərəkət etdirmişik? Halbuki bunları etməyə bilərdik.

5. Səccadədəki xətlər, rəng və təsvirlər, yaxud namaz qıldığımız yerdəki digər əşyalar diqqətimizi neçə dəfə namazdan yayındırıb?

6. Namaz qılarkən dünya işləri düşüncəmizi neçə dəfə məşğul etmişdir?

7. Məsciddə və başqa yerdə insanların səs-küyü, kənar söhbətlər, televizor və ya radionun səsi, telefonun zəngi bizi namazdan neçə dəfə yayındırıb?

8. Məlum beş cizgidən neçəsinə namazda diqqət yetirməmişik?

9. Namaz qıldıqdan sonra əlavə immunitet qazanmışıqmı? O immunitet ki, namazda Allahdan dilədiklərimizə zidd olan əməllərdən bizi qoruyur.

10. Namazdan sonra daxilimizdə səbir, əzmkarlıq və təmkin hiss edirikmi?

Günün axırında başını yastığa qoyub yatmağa hazırlaşır, dua edirsən. Yatmazdan əvvəl həmin günün namazlarında özün üçün qeyd etdiyin məqamları

bir dəqiqə ərzində xəyalında canlandırmağı unutma. Xüsusən, “qırmızı açarlar”la əlaqəli məqamları xəyalına gətir. Gündəlik balansına nəyisə artırdığını, yaxud zərərə düşdüyünü müəyyənləşdirmək üçün bugününü dünəninlə müqayisə et. Çalış ki, geriləməni növbəti gündə dayandırasan; davamlı şəkildə inkişaf et, yüksəl. Həftənin axırında özünə həftəlik qiymət ver. Daha sonra bu həftəlik qiyməti keçən həftəninki ilə müqayisə et. Öyrən gör qoyduğun sərmayədən hər gün artan formada gəlir götürürsən ya yox.

# Həyatımız namaz olsun

Namaz əmrinin nazil edilməsindən danışan hədisi xəyalımda götür-qoy edirəm. Hədisə görə, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səmaya qalxmış, namazı vacib edən əmrlə tanış olmuşdu. Hədisdə deyilir ki, başlanğıcda əlli vaxt namaz əmr edilibmiş. Peyğəmbər rəbbindən ümmətinin rahatlığı üçün namaz sayının azaltmağı o vaxta qədər xahiş etmişdi ki, axırda Allah bu sayı beşə endirmişdi. Hər dəfə bu hədisi xatırlayanda özümdən soruşuram: "Görəsən, hər gün əlli vaxt namazı necə qılardıq?" Vaxtımız digər şeylərə çatardımı? Yeməyə, içməyə, yatmağa, oxumağa, yazmağa, danışmağa, öyrənməyə, həyatdan həzz almağa... vaxtımız qalardımı?"

Nəhayət, namazın mahiyyətini, fərdi və sosial həyatda oynadığı rolu, bizə təsirini dərk etdiyimdə gördüm ki, namaz həyat deməkdir, həyat isə namazın bir formasıdır.

Oyanıbsansa, öldükdən sonra dirilibsənsə, sənə yenidən həyat verəni tanıdığını hiss edirsənsə, deməli, namaz qılırsan;

Özünün və başqalarının övladlarına nəzər saldıqda onların cismən və mənən inkişaf etdiklərini görüb heyrətlənirsənsə, deməli, namaz qılırsan;

Ailəni xeyrə istiqamətləndirib, hikmətlə, gözəl öyüd-nəsihətlə Allaha çağırırsansa, deməli, namaz qılırsan;

Haqqın tapdalandıqda qardaşının, yoldaşın və qonşunun təqsirindən səmimiyyətlə keçirsənsə, daha sonra üzrxahlıq edib, özünü təqsirkar kimi aparırsansa, deməli, namaz qılırsan;

Söyüldüyünü eşidib cavab vermirsənsə, səbir göstərməyinin mükafatını Allahdan umursansa, deməli, namaz qılırsan;

Müsəlman qardaşının qeybətinin edildiyi bir məclisi söhbəti dəyişə, yaxud qardaşını müdafiə edə bilmədiyin üçün tərk edirsənsə, deməli, namaz qılırsan;

Savaş açıb kin bəsləmək əvəzinə, bir qeyri-müsəlmanın doğru yola yönəlməsi üçün Allaha dua edirsənsə, deməli, namaz qılırsan;

Qeyri-müsəlmana islamın mərhəmətini, tolerantlıq və nəzakətini, sevgi və mədəniyyətini, əxlaq və təbəssümünü göstərirsənsə, deməli, namaz qılırsan;

Yaşadığın ölkədə – qeyri-müsəlman ölkə olsa da – asayişi qoruyursansa, əmin-amanlığa əməl edirsənsə, öhdənə düşənləri (vergilər və sair) yerinə yetirirsənsə, deməli, namaz qılırsan;

Hər tərəfi eybəcərlik bürüyübsə və sən şəri dilin və əlinlə dəyişdirə bilməsən də, vicdanınla inkar edirsənsə, deməli, namaz qılırsan;

Ailəni, ətrafındakıları razı salmaq üçün əlləşirsənsə, deməli, namaz qılırsan;

Allahın sənin üçün ancaq xeyir istədiyini fikirləşirsənsə, Onun barəsində bəd gümana düşmürsənsə, deməli, namaz qılırsan;

Hər şeyə görə: nemətlər və bəlalara görə Allaha şükür edirsənsə, deməli, namaz qılırsan;

Hər tərəfdən şirnikdirici və tovlayıcı şeylərlə əhatələndiyin halda gözünü haramdan qoruyursansa, deməli, namaz qılırsan;

Xəstəliyə, yoxsulluğa, müsibətə, məişət çətinliyinə səbir edirsənsə, deməli, namaz qılırsan;

Əgər qan tökülməsinə razı olan milyonlar arasında tək qalıb bir can xilas edirsənsə, deməli, namaz qılırsan;

Əgər, heç olmazsa, səsinlə, hisslərin və dualarınla başqa ölkələrdəki müsəlmanların dərdinə, kədərinə, qayğısına şərik çıxırsansa, deməli, namaz qılırsan;

Əgər bir xəstəni yoluxmağa gedirsənsə, deməli, namaz qılırsan;

Yuxuya təslim olub, növbəti gündə işləmək, çalışıb-əlləşmək, yaratmaq üçün bədənini istirahətə verirsənsə, deməli, namaz qılırsan;

Nəhayət, yatmazdan əvvəl həmin gündə etdiyin əməllərə görə özünü hesaba çəkirsənsə, deməli, namaz qılırsan.

Namaz qılsan, görəcəksən ki, həyat bütünlükdə namazdan ibarətdir. Namaz qılan insan namaz sözləri ilə necə bütövləşirsə, sən də həyatın müxtəlif tərəfləri ilə o cür bütövləş; hər "künc"də, hər "döngə"də imkan düşdümü, namazını qıl; həyatın ayrı-ayrı tərəfləri Xaliqin əzəmətindən söz açan, qüdrətini uca tutan, lütfünə şükür edən, nemətlərini tanıdan, bəndələrinə Ona daima üz tutmağın vacibliyini, daima namazda olduqlarını xatırladan kəlmələrdir.

Birisi sənə pislik etdikdə qəzəblənmə, kin bəsləmə; əksinə, özünü namazda imiş kimi apar, öz-özünə de: "Allah nə pakdır! Məni və onu Allah yaratmayıbmı? O hansı əzəmətli qələmdir ki, görünüş, xasiyyət və əxlaqda bir-birindən fərqlənən milyardlarla insanın hər birinə ayrıca kimlik bəxş etmişdir?"

Ətrafda gördüyün, eşitdiyin, təsadüf etdiyin hər şeylə Allahın şanını uca tut. Allahın yaratdığı mənzərəni, məxluqu, məxluqları iyrənc hesab etmə! Gözünü qamaşdıran şimşəyi, canına vəlvələ salan ildırımı, təbiəti belə sarsıdan zorakılıqları, qorxu və üsyanları Allahın şanını uca tutmaq, Ona daha şox yaxınlaşmaq vasitəsi seç.

Hərəkət etdikdə, səssiz dayandıqda, oturub durduqda, yedikdə, içdikdə, qazanıb xərclədikdə, eşitdikdə, gördükdə, danışdıqda, düşündükdə dayanmadan ibadət, zikr və şükür edən, namaz qılan kainatın parçası ol; madam ki həyatdasan, deməli, namazdasan. Aşağıdakı qızıl qaydaları həyat düsturuna çevir:

1. Dünyanı qazanmaq üçün evindən kənara bir addım atdınmı, axirətini də qazanmaq üçün daxilində eyni addımı at.

2. Ömrünün bir saatını belə hədər etmə; təsəvvür et ki, ölməyinə bir saatdan da az vaxt qalıb.

3. Dəstəmazda bədən üzvlərinin üstündəki kiri yuduğunda altındakı kiri də yumağı unutma.

4. Namazda oxuduğun sözləri əməllərinlə təsdiqlə.

5. Namazda başını itaətkarlıqla əydiyin kimi, həyatda da təvazökarlıq göstər.

6. Məsciddən oraya daxil olduğun kimi çıxma.

7. Həyatındakı günahlara əlvida demədikcə Ramazan ayına da əlvida demə.

8. Sol əməl dəftərindən bir günah silmədikcə sağ əməl dəftərinə bir savab əlavə etmə.

9. Səni cəhənnəmə yaxınlaşdıran günahı "kəsmədikcə" Allaha yaxınlaşacağın qurbanı da kəsmə.

10. Soyuqdan, xəstəlik və aclıqdan xilas olmaq üçün neçə-neçə insanın bir qəpiyə möhtac olduğunu təsəvvürünə gətirmədikcə əlavə bir qəpik də olsun xərcləmə.

11. Yarısını içəcəksənsə, stəkanı ağzınadək doldurma.

12. Bir damcı suyu belə hədər etmə. Hər gün susuzluqdan ölən insanları yadına sal.

13. Çörəyə möhtac qalıb ölənləri təsəvvürünə gətirmədikcə loğmanı ağzına aparma.

14. Əmin ol ki, Allah səni süfrəndəki naz-nemətlərdən məhrum etməyə qadirdir. Buna əmin olduqdan sonra süfrədəki qırıntıları tullaya bilərsən.

15. Axirət meyvələrinə daxilən həvəsli deyilsənsə, dünya meyvələrindən həzz alma.

16. Verməklə (savab) qazandığın şeylər qədər yığmaqla (savabını) itirdiyin şeylərdən həzz alma.

17. Yaxşı ayaqqabın yoxdursa, hirslənmə, çünki onları geyinməyə ayaqları olmayan insanlar vardır.

18. Mənzilindəki bir məişət cihazı sıradan çıxdıqda, yaxud mebel köhnəldikdə gileylənmə, çünki evi olmayan insanlar vardır.

19. Sözlərinə şəkər qatmadıqca yeməyinə duz tökmə.

20. Başqaları haqqında pis danışma. Unutma ki, sənin də haqqında pis danışanlar vardır.

21. Valideyninlə kobud danışma; əks halda, eynisini öz övladlarından eşidəcəksən.

22. Səndən aşağıda duranlara xor baxma. Bil ki, Allah bunu etməyə daha çox qadirdir.

23. Sənə pislik etmiş şəxsi bağışlamadıqca Allahdan öz günahların üçün bağışlanma diləmə.

24. Qoy könlünə nifrət daxil olmasın! Sevgiyə isə icazə ver bol-bol axsın könlünə.

25. Sevdiklərinizdən əvvəl sevib-sevmədiyiniz məlum olmayan şəxslərə dua et.

26. Uzun-uzadı səbir göstərməyi çətin iş hesab etmə. Əmin ol ki, axırda, bol-bol savab qazanacaq, yaxında xilas olacaqsan.

Nəhayət, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aşağıdakı nəsihətinə əməl etməyi unutma:

“Sanki görürmüş kimi Allaha ibadət et. Özünü ölmüşlərdən hesab et. Hər daşın və ağacın yanında Al-

lahı zikr et. Pis bir iş tutduğunda dərhal yaxşı iş gör: gizlində olanı gizlinlə, aşkarda olanı aşkarla əvəzlə”[59].

Hər dəfə nəfəs alıb-verdikdə xatırla ki, həyatın bütünlükdə namazdan ibarətdir. Hər bir vəziyyətdə namaza hazırlaşan insan kimi cismən və ruhən pak ol. Allahın damarlara daxil etdiyi qan qədər təmiz ol. Hər bir hüceyrənə, oynağına, əzələnə... görə rəbbinə şükür et.

Bil ki, namazı idarə etməklə həyatını idarə edirsən. İlk əsasını – kəlmeyi-şəhadəti sənə verən islam istəyir ki, axirət həyatını zəmanət altına alasan. İkinci əsas – namaz isə dünya və axirəti zəmanət altına almaq üçündür.

Əziz oxucu! Bu kitab sənin üçün xırda açardır. O açar ki, onunla düşüncələrindəki xəzinələri açır, Allahla yaratdığın xəyal aləmində qanad çalır, məxluqat aləmində edəcəyin kəşflər dəryasına dalır, namazını və həyatını idarə edəcək kitaba sahib olursan.

[59] Hədisi Muaz ibn Cəbəl rəvayət etmişdir. Əlbaniyə görə hədis səhihdir.

## MÜNDƏRİCAT

Namaz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
Allahla görüş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4
"Heç şübhəsiz, o (namaz) ağır işdir"... Nə üçün? . . . . . . . . . . .10
Borcdan hüquqa doğru . . . . . . . . . . . . . . . . . . . . . . . . . .12
Vəzifə və hüququn sərhədi . . . . . . . . . . . . . . . . . . . . . . .15
Namaza oyanmaq həzzi . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
Səbirdəki həzz. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .21
Namaz səbir məktəbidir. . . . . . . . . . . . . . . . . . . . . . . . .23
Nə üçün namaz qılırıq? . . . . . . . . . . . . . . . . . . . . . . . . .27
Namaz bizi yenidən proqramlaşdırır . . . . . . . . . . . . . . . . .28
Namaz və həyat ritmi . . . . . . . . . . . . . . . . . . . . . . . . . .36
Növbənövlük: ilk mədəni məktəb . . . . . . . . . . . . . . . . . . .39
Daxili itaətkarlıqda növbənövlüyün rolu . . . . . . . . . . . . . .42
Vəziyyət və hərəkətlərin əvəzlənməsi – nə üçün? . . . . . . . . .44
Azan və on möcüzəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . .46
İki dəstəmaz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .53
Camaat namazı: mədəniyyətdəki sirr. . . . . . . . . . . . . . . . .58
Cümə xütbəsi: inkişaf sessiyası . . . . . . . . . . . . . . . . . . . .67
Buradan başlayaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .72
Namazdakı beş cizgi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .78
Bir nömrəli qırmızı açar: "Allah böyükdür!" . . . . . . . . . . . .85
Qiraət və tilavət arasında . . . . . . . . . . . . . . . . . . . . . . .88
Qurani-Kərimin yeni dili . . . . . . . . . . . . . . . . . . . . . . . .90
"Açıq dil" və "yaşıl ərazi" . . . . . . . . . . . . . . . . . . . . . . .92
"Fatihə" surəsinin rolu və qiraət . . . . . . . . . . . . . . . . . . .95
Mərhəmətli və Rəhimli Allahın adı ilə! . . . . . . . . . . . . . . .98
Mərhəmətli və Rəhimli . . . . . . . . . . . . . . . . . . . . . . . . 103
İki nömrəli qırmızı açar: "Yalnız Sənə ibadət edir,
yalnız Səndən kömək istəyirik" . . . . . . . . . . . . . . . . . . . 105
Bizi düz yola çıxar. ... kəslərin yoluna . . . . . . . . . . . . . . 108
"Fatihə" surəsində uzatma yerləri . . . . . . . . . . . . . . . . . 112
Rüku və səcdələrdəki mərkəzlilik . . . . . . . . . . . . . . . . . . 114
Üç nömrəli qırmızı açar: "ət-Təhiyyətu lilləh...". . . . . . . . . . 118

Dörd nömrəli qırmızı açar:
"Əs-sələmu aləynə və alə ibədilləhis-salihin" . . . . . . . . . . . . . 121
Dua üçün oturmaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 123
Balans . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126
Namazda qazandığımız "daş-qaşlar"ın siyahısı . . . . . . . . . . . . . 129
Namazda itirdiyimiz "daş-qaşlar"ın siyahısı . . . . . . . . . . . . . . . 132
Həyatımız namaz olsun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 134

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunub